# Azərbaycan Şimal–Cənub Dəhlizinin mərkəzi ölkəsidir



Səhifə ⇨ 7

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 191 (30595) 4 sentyabr 2024-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Zəngəzur dəhlizi: "kəsişən maraqlar" və "erməni məsələsi"

*İran XİN rəsmisi ilə Rusiyanın Tehrandakı səfiri nələri müzakirə ediblər?*















**Cənubi Qafqazda kommunikasiyaların açılmasına dair məsələ hər ötən gün aktuallığını artırmaqdadır. Hazırda belə bir təəssürat var ki, mövcud istiqamətdə əsəblər tarıma çəkilib. Ancaq regiona bağlı ölkələrin səbrlə davrandıqlarını, müzakirəyə üstünlük verdiklərini, müxtəlif həll variantları axtardıqlarını müşahidə etmək də mümkündür. Söhbətimiz bu görüntünün bir fraqmenti barədədir. Əlbəttə, həmin fraqment əsnasında digər məqamları da diqqətə çatdıracağıq.**

Məlumdur ki, Cənubi Qafqazda marağı olan Rusiya regional kommunikasiyaların açılması məsələsində üçtərəfli bəyanatı əsas götürür. Moskvanı bölgədən çıxarmaq istəyən Qərb Azərbaycan və Ermənistan arasında sülhün əldə edilməsi ilə məsələnin reallaşması məntiqi üzərində dayanır. Bu məsələdə Ermənistanın ərazi bütövlüyünün və suverenliyinin toxunulmazlığı klişesi gündəmdədir. Rəsmi İrəvan da eyni motivi tirajlayır, habelə özünün irəli sürdüyü "Dünyanın kəsişməsi" layihəsinin alternativsizliyini vurğulayır. Söhbət regional kommunikasiyaların blokdan çıxarılması üçün sözügedən layihənin, guya, alternativsiz mahiyyət daşıdığının qabardılmasından gedir.

Ümumən, Qərb regional kommunikasiyalar baxımından intensivlik tərəfdarıdır. ABŞ və Avropanın qlobal düşüncə mərkəzlərinin fikrincə, mühüm tranzit Rusiyanın, İranın və Çinin nəzarətindən kənar yol olmalı, Azərbaycan və Orta Asiya ölkələrinin xammalını Avropaya daşımalıdır. Ancaq, hər bir halda, qlobal tranzitin Çin ilə Avropa İttifaqı arasında mal mübadiləsini həyata keçirməsi paradiqması da aktivdir.

Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yolu ölkəmizin "Zəngəzur dəhlizi" adlandırmasının heç kəsə, o cümlədən Ermənistana və onun xaricdəki havadarlarına dəxli yoxdur və rəsmi Bakı üçtərəfli bəyanatın Ermənistanın üzərinə qoyulmuş öhdəlik məntiqini qabardır. Təxminən belə: 44 günlük müharibə məğlubu Ermənistandır. Ölkə sözügedən sənəddə Naxçıvana yolun açılmasına imza atıb və bu, yerinə yetirilməlidir. Naxçıvana yol "Azərbaycandan Azərbaycana yol" kimi olmalıdır, orada hansısa sərhəd və gömrük nəzarəti həyata keçirilməməlidir.

*(ardı 4-cü səhifədə)*

# Bakı – İrəvan: sülh gündəminə təhdidlər və bəhanələr

**Məlum olduğu kimi, avqustun 30-da Azərbaycan və Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə komissiyaların birgə fəaliyyətləri haqqında Əsasnamə imzalanıb. Mövcud istiqamətdəki iş Azərbaycan ilə Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə dövlət komissiyası və Ermənistan ilə Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyanın 2024-cü il aprelin 19-da keçirilmiş 8-ci görüşünün protokoluna uyğun olaraq həyata keçirilib. Yəni, komissiyaların birgə fəaliyyəti haqqında əsasnamənin razılaşdırılması ilə bağlı fəaliyyət həmin sənəd üzrə aparılıb.**



Əslində, kifayət qədər böyük iş görülüb və bir neçə ay əvvəl yayılmış xəbərlərə diqqət yetirsək, hazırda əldə olunan irəliləyişi proqnozlaşdırmaq mümkün idi. Məsələn, Azərbaycan tərəfi hələ iyulun 1-də belə bir məlumat yaymışdı ki, komissiyalar işçi qaydada əsasnamənin layihələrinin mübadiləsini həyata keçirib və bir sıra müzakirələr aparıblar.

*(ardı 3-cü səhifədə)*

# BRICS-ə üzvlük Azərbaycana yeni imkanlar yaradacaq



Səhifə ⇨ 6

# Ermənistanın sülhdənqaçma "paketi"



Səhifə ⇨ 3

# Fransada siyasi böhranı Makronun gedişi həll edə bilər



Səhifə ⇨ 5

# Lamiyə Vəliyeva da "Paris-2024"ün qalibi oldu



Səhifə ⇨ 11

# Xəzərdə yataqların tammiqyaslı işlənməsinin ikinci mərhələsi



Səhifə ⇨ 7

# Ersin TATAR: Azərbaycan dünyaya daha bir seçki nümunəsi göstərdi



**Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar sentyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Ersin Tatar növbədənkənar parlament seçkilərində Yeni Azərbaycan Partiyasının inamlı qələbəsi münasibətilə təbriklərini çatdırıb. O, seçkilərin azad, demokratik, sərbəst mühitdə keçdiyini və Azərbaycan xalqının iradəsini ifadə etdiyini vurğulayıb.

Ersin Tatar Azərbaycan parlamentində Şimali Kipr Türk Cümhuriyyəti ilə dostluq qrupunun yaradılmasını da vurğulayaraq yeni parlamentlə parlamentlərarası dostluq qrupu çərçivəsində əməkdaşlığın uğurla davam etdiriləcəyinə əminliyini bildirib.

Ölkəsinin Türk Dövlətləri Təşkilatının Şuşa Zirvə görüşünə dəvət olunmasını məmnunluqla xatırladan Ersin Tatar Şimali Kipr Türk Cümhuriyyətinin bu təşkilatla əlaqələrinin inkişafına verdiyi dəstəyə və dəvətə görə dövlətimizin başçısına minnətdarlığını ifadə edib.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirib. Azərbaycanın bundan sonra da Şimali Kipr Türk Cümhuriyyətinin Türk Dövlətləri Təşkilatı çərçivəsində əlaqələrinin inkişafına və əməkdaşlığının genişlənməsinə dəstək verəcəyini qeyd edib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***

# Mayot adasının da azadlıq mübarizəsi Bakıdan keçir




**Dünən Bakıda Fransanın işğalı altındakı Qəmər Adaları İttifaqının Mayot adasına həsr olunmuş beynəlxalq konfrans keçirilib. Bakı Təşəbbüs Qrupunun təşkil etdiyi məclisdə "Qəmər Adaları İttifaqının Mayot adasının Fransa tərəfindən qeyri-qanuni işğalı" mövzusunda müzakirələr aparılıb.**

Qəmər Adaları İttifaqının BMT-də, Cənubi Afrikada və digər regionlarda fəaliyyət göstərmiş nümayəndələri, "Maore komitəsi", "Üçüncü Yol Kollektivi (C3V)", "Demokratik Cəbhə", "Qəmər adalarının bütövlüyü və suverenliyinin müdafiəsi üzrə kollektiv" təşkilatları, Mayot adasının təmsilçiləri, o cümlədən Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri, səfirlər, beynəlxalq təşkilatların, beyin mərkəzlərinin təmsilçiləri və media nümayəndələri iştirak ediblər.

Konfransda Qəmər adalarının müstəmləkəçilik tarixi, Mayotun Fransa tərəfindən işğalı və bunun nəticəsində adanın vətəndaşlarına vurulmuş ziyan, Fransanın bu bölgədə müstəmləkəçilik siyasətinin geosiyasi və iqtisadi maraqları, habelə Mayot adası ilə bağlı beynəlxalq təşkilatların mövqeyi ətrafında müzakirələr aparılıb.

Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov son bir neçə ayda paytaxt Bakının müstəmləkəçilikdən əziyyət çəkən xalqların və ölkələrin azadlıq mübarizəsi ilə bağlı beynəlxalq konfranslara ev sahibliyi etdiyini deyib. Azərbaycan Hökumətinin və Bakı Təşəbbüs Qrupunun dəstəyini yüksək qiymətləndirən Mayot Adasının Müstəqilliyi Uğrunda Mübarizə Komitəsinin üzvü Ahmed Tabet ölkəsinin müstəqillik uğrunda mübarizəsindən bəhs edib.

Qəmər Adaları İttifaqının BMT-də sabiq nümayəndəsi Mohamed Toihiri, Qəmər Adaları İttifaqının təmsilçisi, hüquq müdafiəçisi Mohamed Rafsandjani Hassani, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri Cavid Vəliyev, Qəmər Adaları İttifaqı Üçüncü Yol Kollektivinin (C3V) QHT nümayəndəsi Nadia Tourqui, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İcraçı direktorunun müşaviri Aytən Qəhrəman, Qəmər Adaları İttifaqının nümayəndəsi, Demokratik Cəbhənin üzvü Mohamed Monjoin, Mayot adasının Maore Komitəsinin vitse-prezidenti Ambidi Said Mattoir və digərləri çıxış edərək Mayotun Fransaya birləşdirilməsi nəticəsində qəmərlilərə vurulmuş ziyan və fransız müstəmləkəçiliyinin yaratdığı problemlər barədə fikirlərini bildiriblər.

Konfransın sonunda qəbul edilən yekun bəyanatda Qəmərin Mayot adasında "WUAMBUSHU" adlı əməliyyatın həyata keçirilməsi, Fransanın adadakı müstəmləkəçiliyi pislənilir, regional və alt-regional təşkilatlar, vətənpərvər suveren Pan-Afrika hərəkatları Fransanın müstəmləkə siyasətini şiddətlə qınamağa çağırılır, Fransa hökumətindən Qəmər İttifaqının suverenliyinə hörmət göstərmək və onun ayrılmaz hissəsi olan Mayot adasını dərhal azad etmək tələb edilir.

*

Fransanın müstəmləkəçiliyi altında olan Mayot adasının Maore komitəsi ilə Bakı Təşəbbüs Qrupu (BTQ) arasında sentyabrın 3-də əməkdaşlıq haqqında saziş imzalanıb. Sənədi Bakı Təşəbbüs Qrupunun İcraçı direktoru Abbas Abbasov və Mayot Adasının Müstəqilliyi Uğrunda Mübarizə Komitəsinin üzvü Ahmed Tabet imzalayıblar.

***XQ***

# Konstitusiya Məhkəməsi Palatasının iclası

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib.**



İclasda Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 36-2.3-cü maddəsinin Əmək Məcəlləsinin 79-cu maddəsinə uyğunluğunun yoxlanılmasına dair insan hüquqları üzrə müvəkkilin (ombudsmanın) sorğusuna baxılaraq, Plenumun icraatına qəbul olunması haqqında qərardad qəbul edilib.

Sorğuya mahiyyəti üzrə, tərəflərin iştirakı ilə Konstitusiya Məhkəməsi Plenumunun sentyabrın 24-nə təyin edilmiş iclasında baxılacaq.

***XQ***

# Azərbaycan – Pakistan əməkdaşlığı müzakirə edilib

**Azərbaycanın Pakistandakı səfiri Xəzər Fərhadov bu ölkənin özəlləşdirmə, investisiyalar və kommunikasiyalar naziri Əbdül Alim Xan ilə görüşərək iki dövlət arasındakı qarşılıqlı münasibətləri müzakirə edib.**

Söhbət zamanı iki ölkənin iştirakı ilə Bakıda keçiriləcək biznes-forum barədə fikir mübadiləsi aparılıb. Xəzər Fərhadov naziri Azərbaycanın Pakistanın bir çox sahələrinə, o cümlədən LNG qazı, karbamid və elektrik kimi sahələrə yatırım edə biləcəyi barədə məlumatlandırıb.

Əbdül Alim Xan bildirib ki, ölkələrimiz qida təhlükəsizliyi, informasiya texnologiyaları, səhiyyə, kənd təsərrüfatı kimi bir çox sahələrə birgə yatırımlar edə bilər. O, Bakıda biznes-forum keçirilməsi fikrini alqışlayıb. Nazir bildirib ki, Türkiyə, Azərbaycan və Pakistan regionun inkişafında önəmli rol oynamaq üçün sıx əməkdaşlıq etməlidir.

***XQ***

# San-Marino Respublikasının Regent Kapitanları Zati-aliləri cənab Alessandro Rossi və xanım Milena Qasperoniyə

**Zati-aliləri!**

Ölkənizin milli bayramı – Respublika Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, San-Marino xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 31 avqust 2024-cü il**

# Baş Prokurorluğun təmsilçiləri Türkiyədə



**Sentyabrın 2-də Baş prokurorun müavini Heydər Məmmədov və Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin rəis müavini Anar Nəsibovdan ibarət nümayəndə heyəti qardaş Türkiyənin Ankara şəhərində "2024-2025 Yeni Ədliyyə İli Açılış Tədbiri"ndə iştirak ediblər.**

Mərasimdə iştirak edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölkəmizin nümayəndə heyətini qəbul edib.

Türkiyənin Baş prokuroru Muhsin Şentürk və Ali Məhkəmənin sədri Ömer Kerkezlə rəsmi görüşlərdə ölkələrimiz arasında hüquqi əməkdaşlığın daha da inkişaf etdirilməsi, təcrübə mübadiləsinin intensivləşdirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi sahəsində əməkdaşlıq, habelə qarşılıqlı maraq doğuran digər məsələlərə dair faydalı fikir mübadiləsi aparılıb.

***XQ***

# XİN-in nümayəndə heyəti Sloveniyada

**Azərbaycanın xarici işlər nazirinin müavini Fariz Rzayevin rəhbərlik etdiyi nümayəndə heyəti Sloveniyada keçirilən Bled Strateji Forumunda iştirak edib.**



Forum çərçivəsində qlobal iqtisadiyyat mövzusuna həsr olunmuş paneldə çıxış edən F.Rzayev dövlətimizin həyata keçirdiyi irimiqyaslı enerji layihələri, Avropa ölkələrinin enerji təhlükəsizliyinə verdiyi töhfə barədə məlumat verib, beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması və fəaliyyəti sahəsində oynadığı vacib rol barədə danışıb. O, Azərbaycanın bu fəaliyyətinin Cənubi Qafqaz regionunun təhlükəsiz, firavan və inkişaf etmiş bir məkana çevrilməsi baxımdan xüsusi əhəmiyyətə malik olduğunu vurğulayıb.

Sloveniyanın Xarici İşlər Nazirliyində dövlət katibi Marko Ştuçin ilə keçirilmiş görüşdə Azərbaycan ilə Sloveniya arasında ikitərəfli əməkdaşlığın gündəliyində duran aktual məsələlər, o cümlədən iki ölkə arasında siyasi dialoqun intensivləşdirilməsi, iqtisadiyyat və s. sahələr üzrə əməkdaşlığın inkişaf etdirilməsi məsələləri müzakirə olunub.

***XQ***

# Antalyada "Azərbaycan mədəniyyəti və sənəti günü"



**Azərbaycanın Türkiyədəki səfirliyinin nəzdində Mədəniyyət Mərkəzinin layihəsi əsasında Antalyada da "Azərbaycan mədəniyyəti və sənəti günü" keçirilib.**

Şənliklərdə dövlət rəsmiləri, diplomatik nümayəndəliklərin təmsilçiləri, ictimaiyyətin tanınmış simaları iştirak ediblər. Açılış mərasimində Azərbaycanın Ankaradakı səfiri Rəşad Məmmədov və Antalya valisi Hulusi Şahin ölkələrimiz arasında yüksək səviyyəli münasibətlərdən və əməkdaşlıqdan danışıblar. İki qardaş ölkə arasındakı münasibətlərin dünya üçün nümunə olduğunu vurğulayan natiqlər Türkiyədə Azərbaycan mədəniyyətinə böyük maraq olduğunu qeyd ediblər. Onlar ilk dəfə Antalyada keçirilən "Azərbaycan mədəniyyəti və sənəti günü" tədbirlərinin bölgədə Azərbaycan milli mədəniyyətinin daha da yaxından tanıtmağa imkan yaratdığını bildiriblər.

Sonra Azərbaycanın qədim tarixi, zəngin mədəniyyəti, eləcə də turizm bölgələrini özündə əks etdirən videoçarx nümayiş olunub. Mərasim Azərbaycan Mədəniyyət Mərkəzinin hazırladığı geniş bədii proqramla davam etdirilib.

***XQ***

# Bakı – İrəvan: sülh gündəminə təhdidlər və bəhanələr



(əvvəli 1-ci səhifədə)

Qeyd edək ki, Prezident İlham Əliyev də iyulun 1-də Kanadanın yeni təyin olunmuş səfiri Kevin Hamiltonla söhbət zamanı Azərbaycanın və Ermənistanın hazırda ikitərəfli səviyyədə daha yaxşı nəticələrə imza atdıqlarından söz açmışdı: “Kiminsə tərəfindən bu prosesə müdaxilə yoxdur. Sərhədlərin delimitasiyası, hətta nadir hal olan demarkasiya məsələlərində razılıqlara gələ bilirik. Düzdür, hələ sülh müqaviləsi imzalanmayıb, lakin artıq sərhədlərin delimitasiyasına nail olunub”.

Prezident İlham Əliyev sözügedən söhbət zamanı onu da bildirmişdi ki, sülh sazişinin başlıca şərti Ermənistanın konstitusiyasının dəyişdirilməsidir. “Çünki onun tərkibində Azərbaycana qarşı ərazi iddiaları var və bu, baş verməyənə qədər sülh sazişi imzalanmayacaq. Bu, məlum məsələdir”, – deyən dövlətimizin başçısı danışıqlar prosesi çərçivəsində, kifayət qədər, sürətli irəliləyişin mövcudluğunu vurğulamışdı.

Erməni ekspert və politoloq cameəsində isə belə bir sual var ki, ikitərəfli danışıqlar prosesində irəliləyişin əldə edildiyi, delimitasiya işlərinə start verildiyi bir vaxtda Azərbaycana nəyə görə Ermənistanın konstitusiyasının dəyişdirilməsini, yaxud konstitusiya dəyişikliyi məsələsini irəli sürür? Haşiyə çıxaq ki, sözügedən cameə iki hissəyə bölünür: hakimiyyət tərəfdarları və müxaliflər. Birincilər Azərbaycanın tələbi fonunda ölkəmizin, guya, sülhdən yayınmaq üçün bəhanə axtardığını vurğulayır və bu yolla rəsmi Bakıya yönəlik mənfi beynəlxalq imic formalaşdırmağa çalışırlar. İkincilər isə həm bunu edir, həm də erməni iqtidarının səriştəsizliyi, qorxaqlığı amilini qabardırlar.

Heç bir tərəf əsl reallığı anlaya bilmir. Bəli, Ermənistanda Azərbaycanın irəli sürdüyü tələbin nə qədər məntiqi olduğu qəbul edilmir və ən böyük problem də elə budur. Aydındır ki, problem tipik erməni düşüncə tərzindən, daha doğrusu, hay xəstəliyindən qaynaqlanır. Qarşımızda səmimiyyətdən uzaq, düşdüyü avantürizm burulğanında boğulmağa məhkum, səbəb-nəticə əlaqələrini tuta bilməyən, məntiqsiz bir toplum, qövm dayanıb. Ötən illərin təcrübəsi göstərir ki, bu qövmün anladığı yalnız bir dil var ki, o da güc dilidir.

Sərhədlərin delimitasiyası və demarkasiyası məsələsində danışıqlar fazasının aktivləşdiyinə dair görüntünün mövcud olduğu hazırkı dövrdə ölkəmizin məhz konstitusiya dəyişikliyi tələbi ilə çıxış etməsi tam məntiqidir. Bu tələb köklüdür. Çünki ölkəmizə sülh təminatı lazımdır. Nəzərə alsaq ki, konstitusiya dəyişikliyi referendum, yəni ümumxalq səsverməsi ilə reallaşmalı prosesdir, deməli, təminat erməni xalqının iradəsidir. Xalq işğalçılıq niyyətinə düşməyəcəyini açıq bəyan etməlidir.

Əlbəttə, Ermənistan konstitusiyasına dəyişiklik, yaxud ümumən ölkənin əsas qanununun dəyişdirilməsi hələ tam təminat deyil. Yada salaq ki, vaxtilə Ermənistan SSR-in ana qanununda Azərbaycana qarşı ərazi iddiası əksini tapmamışdı. Ancaq keçmiş SSRİ zamanında respublikamız belə iddialarla üzləşmişdi. Erməni millətçiləri ötən əsrin 80-ci illərinin sonlarında Qarabağın müxtəlif yerlərində təxribatlar törədib dinc azərbaycanlıları qarət edəndə, qətlə yetirəndə, eləcə də digər zərərlər vuranda hansısa sənədə əsaslanmamışdılar. Yəni, xəstə erməni cəmiyyətinin içindəki mənfurluğu konstitusiya dəyişikliyi aradan qaldırmaq iqtidarında deyil. Amma o cəmiyyətin ortaya xoş niyyət qoyması şərtdir. Bunu bizdə inam yaratmaq üçün etməlidir və etməyə məhkumdur. Ancaq...

Nəzərə alaq ki, tərəflər sırf delimitasiya və demarkasiya məsələləri barədə nə qədər irəliləyiş əldə etsələr də, problemli məqamları razılaşdırmağı bacarsalar da, baş nazir Nikol Paşinyan sərhəd dirəyini hər yerdə göstərib ona müqəddəslik libası geydirsə də, gələcəkdə hər şeyin indiki kimi olacağına dair real təminat yoxdur. Həm də ona görə təminat yoxdur ki, Ermənistanın 44 günlük müharibədən sonra, necə deyərlər, ağıllanacağı, konstruktiv yola gələcəyi ilə bağlı bütün ümidlər ölüb. Azərbaycan əldə etdiklərini güc yolu ilə qazanıbsa, başqa nə deyəsən?

Bir daha bildirək ki, konstitusiya dəyişikliyi, daha doğrusu, konstitusiyanın istinad etdiyi İstiqlaliyyət bəyannaməsindəki Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarının mövcudluğunun aradan qaldırılması son dərəcə vacib məqamdır. Ermənistan bunu məhz indi etməli və delimitasiya işlərinin dayanıqlı olduğunu təsdiqləməlidir. Rəsmi İrəvan isə mövcud istiqamətdəki ən böyük işin – referendumun 2027-ci ildə reallaşa biləcəyini bildirir. Özü də məsələnin qoyuluşu belədir: konstitusiyaya dəyişiklik deyil, konstitusiyanın özünün dəyişdirilməsi həyata keçiriləcək. Guya ki, söhbət Azərbaycan tələbinin yerinə yetirilməsindən getmir.

Bəli, Ermənistan bu gün həyata keçirməli olduğu işi sonraya saxlayır. Bir məqam da var ki, hələ 2027-ci illə bağlı da tərəddüd var. Mümkündür ki, rəsmi İrəvan mövcud istiqamətdəki prosedur fəaliyyətin gerçəkləşdirilməyini iddia edib vaxtı uzatsın. Vaxt uzatmaqdan söz düşmüşkən, Prezident İlham Əliyev avqustun 30-da Azərbaycan – Türkiyə parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi Türkiyə Böyük Millət Məclisinin üzvlərindən ibarət nümayəndə heyətini qəbul edərkən Ermənistanın qəsdən vaxt uzatdığını, Fransadan, digər Qərb ölkələrindən və başqa tərəflərdən yeni silahlar aldığını, öz ərazisində üçüncü tərəflərlə hərbi təlimlər keçirdiyini vurğulamışdı.

Bütün bunların fonunda erməni ekspert cameəsinin bildirdiklərindən belə qənaət hasil olur ki, Ermənistanın xüsusən də hakimiyyətə yaxın beyin mərkəzləri Azərbaycanın irəli sürdüyü tələblərə əsaslanaraq ölkəmizin, guya, sülh istəmədiyi təsvvürünü tirajlayır və beləliklə, delimitasiya və demarkasiya proseslərinin sülhə doğru yön motivini sıradan çıxarmağa çalışırlar. Onlar baş nazir Nikol Paşinyanın sonuncu mətbuat konfransında sülh gündəmini pozmağa yönəldiyi şübhə doğurmayan fikirlərini yayır, beynəlxalq dairələri, faktiki olaraq, aktivliyə, daha doğrusu, özünü sülh prosesinin vacib elementi kimi göstərən delimitasiya və demarkasiya işlərinə müdaxiləyə səsləyirlər.

*Ə.RÜSTƏMOV*
*XQ*

*İki qonşu dövlət arasında təhlükəsizliyin başlıca zəmanəti sülhdür. Nə qədər ki, “nə sülh, nə müharibə” vəziyyəti davam edəcək, Ermənistan – Azərbaycan sərhədində xoşagəlməz insidentlərin baş vermə təhlükəsi də aradan qalxmayacaq. Deyəsən, bu həqiqəti Hayastanın baş naziri də dərk edir. Nikol Paşinyan Qazax rayonu ilə sərhədə növbəti səfərində Kirants sakinləri ilə görüşüb və burada diqqətçəkən açıqlamalar verib. Bu açıqlamaların bir çoxu erməni cəmiyyəti tərəfindən birmənalı qarşılanmasa da, reallığın nəzərə alınması baxımından maraq doğurur.*

# Məğlub ölkə üçün “Kirants modeli”

## *Paşinyan sərhədin bir hissəsində suveren dövlətin təməlini qoyduğunu etiraf edir*




Onun sakinlərlə görüşdə dediyi səsləndirdiyi tezislərdən biri Azərbaycanla sərhədin hazırda həmişəkindən daha təhlükəsiz olması barədə dedikləridir. “Kirantsda Azərbaycanla sərhədin bir neçə metrliyində yerləşən məktəbi ziyarət etməyim indi heç vaxt olmadığı qədər təhlükəsizdir”, – deyən baş nazir bu barədə fikirlərini bir az da genişləndirib: “Bütün məsuliyyətimlə bəyan etmək istəyirəm ki, müstəqil Ermənistanın tarixində Kirantsda məktəbi ziyarət etmək indiki qədər təhlükəsiz olmayıb. Yəni Kirantsda yaşamaq heç vaxt indiki qədər təhlükəsiz olmayıb”.

Paşinyan çıxışında daha sonra bildirib ki, Kirantsda məktəbə getməyin təhlükəsiz olması ilə bağlı vəziyyət azərbaycanlıların Xeyrimli kəndində də məktəbə getməyin təhlükəsiz olması deməkdir. Bundan əlavə, baş nazir Kirantsda həyata keçirilən sərhədin delimitasiya prosesini dövləti üçün böyük uğur adlandırıb: “Dövlətinizin haradan başladığını və harada bitdiyini bilməyəndə sual yaranır ki, sizin müstəqil dövlətiniz var, ya yox? Biz Kirantsda müstəqil, suveren, güclü və sülhsevər Ermənistan dövlətinin təməl daşını qoyduq”.

Oxuculara xatırladaq ki, Paşinyanın misal çəkdiyi məktəbin binası Azərbaycan sərhədindən 30–40 metr aralıda yerləşir. Sərhəd dirəklərinin ərazinin dəqiq demarkasiya olunduğundan xəbər verdiyi həmin ərazi 1992-ci ildə Ermənistan ordusu tərəfindən işğal edilmiş və gəlmə ermənilərlə məskunlaşdırılmışdı. O zaman Qazax rayonunun inzibati ərazisinə daxil olan 7 kənddən üçünün geri qaytarılması ilə bağlı hökumətlərarası sərhəd komissiyası danışıqlar aparır.

Hayastan baş nazirinin Kirantsdakı çıxışında dediklərini reallığın gecikmiş etirafı kimi qəbul etmək olar. İndi onun boynuna düşən vəzifə “Kirants modeli”ni sərhəd zolağının hər metrinə və Ermənistanın perimetri boyu bütün ərazisinə tətbiq etməkdir. Bundan ötrü, sadəcə, “kollektiv Qərb”in yalançı vədlərinə uymamağa, daxildən və xaricdən səslənən separatçı-revanşist çağırışlara məhəl qoymamağa və siyasi iradə nümayiş etdirməyə ehtiyac var.

Azərbaycan qanunvericiliyinə görə, Ermənistanla rəsmiləşdirilməyən sərhədlər yalnız dövlətlərarası müqavilə ilə təsbit edilə bilər. Amma hələlik iki ölkə arasında sərhədlərin dəqiq müəyyən edilməsi ilə bağlı rəsmi razılaşma, yaxud müqavilə yoxdur. Ermənistan isteblişmentinin təztez istinad etməyi xoşladığı Alma-Ata Bəyannaməsi isə sərhədin delimitasiya və demarkasiyası üçün heç bir hüquqi öhdəlik yaratmır. Bu məsələdə Bakı haqlı olaraq bildirir ki, Azərbaycan sərhəd xəttini istədiyi istiqamətdə müəyyən edə bilər.

Ümumiyyətlə, mövcud durumda Ermənistan hakimiyyəti rasional və praqmatik mövqe nümayiş etdirmək, revanşist xəyallardan əl çəkmək barədə düşünməlidir. Bu tarixi reallığı məğlub ölkənin idarəçiləri qəbul etməlidirlər: onların alternativ şansı, başqa seçim imkanı yoxdur! Haqlı olaraq, tarixi Ermənistanı real Ermənistandan ayırmağın vacibliyini qeyd edən Paşinyan və onun komandası siyasi gerçəkliklərdən dərs almalı, onlardan nəticələr çıxarmalı və imzası ilə boynuna götürdüyü öhdəlikləri vaxtında və qeyd-şərtsiz yerinə yetirmədirlər. Onlar bir həqiqəti də nəzərə almalıdırlar ki, Ermənistan nə regional, nə də beynəlxalq proseslərə təsir etmək, Azərbaycanın yaratdığı geosiyasi reallığı dəyişdirmək iqtidarındadır. Çünki Azərbaycanın sülhə və əməkdaşlığa yanaşma prinsipləri dəqiq, konkret və birmənalıdır. Məhz bu aspektdən yanaşanda deyə bilərik ki, Azərbaycan özünün müəyyənləşdirdiyi bütün strateji hədəflərinə doğru inamla irəliləyir.

Ermənistanın 30 ilə yaxın davam edən işğalçılıq siyasəti nəticəsində qazandığı

### Ekspert rəyi



**Elxan ŞAHİNOĞLU,**
**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi icmalçı**

– Nikol Paşinyan İlham Əliyevlə sərhəddə görüşüb danışıqlar aparmaq istədiyini də vurğulayıb. O, Rusiya Prezidenti Vladimir Putinlə telefon danışığı zamanı Bakı ilə birbaşa danışıqlara üstünlük verdiyini bildirib. Paşinyan Putinin xətrinə dəyməmək üçün çoxtərəfli danışıqlar formatını da nəzərdən keçirə biləcəklərini söyləyib. Rəsmi Bakı birbaşa danışıqların əleyhinə deyil. Bu məsələdə konsensus var.

Paşinyan ermənilərin Qarabağa qaydışının mümkün olmadığını da deyib. Baş nazir haqlıdır. Ermənilərin Qarabağa qayıtması üçün onların Azərbaycan vətəndaşlığını qəbul etməli zəruri şərtdir. Onlar isə Azərbaycan vətəndaşı olmaq istəmirlər. Deməli, geri qayıda bilməyəcəklər. Nikol Paşinyanın bir maraqlı açıqlaması da Ruben Vardanyan haqqında olub: “Vardanyan Rusiya vətəndaşlığından imtina etdi. Kim onu Ermənistana və Qarabağa göndərmişdi? O, hansı zəmanətlə bölgəyə ezam olunmuşdu? Niyə onu göndərən sonda dedi ki, Vardanyanı yaxşı tanımır və onun ölkəsinin vətəndaşı deyil?”.

Paşinyan bu cümləsi ilə ona işarə edib ki, Ruben Vardanyanı Qarabağa Moskva göndərsə də, sonra ona sahib durmayıb. Bunun səbəbi də bəllidir. Rusiyada milyardlarla dövriyyəyə malik şirkətləri idarə edən Ruben Vardanyanın qəfil Qarabağa gəlişinin Moskvanın planı olduğunu biz də bilirdik. Ancaq Vardanyan milyardlarını Qərb sanksiyalarından qorumaq üçün Rusiya vətəndaşlığından imtina etdikdə Kreml ondan üz döndərdi. Bu səbəbə görə də Kreml Vardanyana sahib durmadı. Bunu Paşinyan da bilməmiş deyil.

Cənubi Qafqazda təcrid vəziyyətinə düşməsi, gəlirli regional və beynəlxalq layihələrdən kənarda qalması oldu. İndi itirdiklərinin fərqində olan Nikol Paşinyan həm özünün, həm də xalqının gələcək aqibəti ilə bağlı düzgün qərarlar qəbul etməlidir. Əslində, onun Kirantsda etdiyi etirafları Ermənistanın son şansından faydalanmaq məcburiyyətində olduğunu göstərir. Təki bu şansı əldən buraxmasın...

*İ.HƏSƏNQALA*
*XQ*

# Ermənistanın sülhdənqaçma “paketi”

## *“Sülh sazişində ciddi məsələlər var” deyəndə haylar nəyi nəzərdə tuturlar?*

**Bakının sülh sazişinin mətninə sayca 10-cu təkliflər paketini İrəvana göndərməsinin üstündən 2 ay keçəndən sonra qarşı tərəf cavab verib. Bu barədə Ermənistan xarici işlər nazirinin müavini Vahan Kostanyan deyib. Yəni, rəsmi İrəvan sülh müqaviləsi üzrə 10-cu paketini Azərbaycana təqdim edib.**




İki gün əvvəl Çexiya paytaxtında keçirilən “GLOBSEC” forumu çərçivəsində Ermənistan xarici işlər nazirinin müavini Vahan Kostanyan panel müzakirələrdəki çıxışında rəsmi İrəvanın yürütdüyü xarici siyasətdən də bəhs edib. O bu kontekstdə Ermənistanın suverenliyinin, sərhədlərinin qorunmasına yönəlmiş diversifikasiyanın vacibliyini vurğulayıb. Bu zaman, o, sülh sazişinin mətnində nələri nəzərdə tutduqlarına aydınlıq gətirmək əvəzinə, Ermənistanla Aİ-yə üzv dövlətlər arasında formalaşmış fəal siyasi dialoqun, “möhkəm əsaslara söykənən” əməkdaşlığın əhəmiyyətindən danışıb, hətta, bu tərəfdaşlığın dərinləşdirilməsi üçün vacib perspektivlərin mövcudluğunu önə çəkib. Nazir müavini Aİnin Ermənistandakı müşahidə missiyasının “regionda təhlükəsizlik və sabitliyin təmin edilməsində rolunu” da xüsusi olaraq qeyd edib.

* *

Kostanyandan fərqli olaraq, baş nazir Paşinyan dörd gün əvvəlki mətbuat konfransında Ermənistanın Azərbaycana sülh sazişi ilə bağlı yeni təklifləri təqdim etdiyini və layihədə 17 maddənin yer aldığını açıqlayıb. Onun dediyinə görə, maddələrdən 13-ü, o cümlədən müqavilənin preambula hissəsi tam razılaşdırılıb. Nikol Paşinyanın “Azərbaycanla sülh müqaviləsinin yekun variantında 17 maddədən 13-ü razılaşdırılıb və biz razılaşdırılmış bəndlər əsasında sülh müqaviləsini imzalaya bilərik” sözləri o deməkdir ki, Ermənistan konstitusiyasının Azərbaycana qarşı ərazi iddiasını əks etdirən müddəa məhz razılaşdırılmayan məsələlər içərisindədir. Doğrudur, Paşinyan bu dəyişikliyi zəruri saydığını bildirir, amma bunu gələcəkdə həll etməyə üstünlük verir. Halbuki Prezident İlham Əliyev konstitusiya dəyişikliyini sülh sazişinin imzalanması üçün əsas şərt kimi irəli sürüb və Bakının bu mövqeyində heç bir dəyişiklik yoxdur.

Möhkəm sülhün əldə olunmasından ötrü Bakının irəli sürdüyü tələblər barədə susmağa üstünlük verən baş nazir sazişin imzalanmasından sonrakı dövrdən danışmağa başlayıb. Hətta iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının nəzərdə tutulduğunu “müjdələyən” Paşinyan bunun bütün digər məsələlərin müzakirəsi üçün əlavə platformaya çevriləcəyini söyləyib.

(ardı 5-ci səhifədə)

# Zəngəzur dəhlizi: “kəsişən maraqlar” və “erməni məsələsi”

(əvvəli 1-ci səhifədə)




Bu yerdə haşiyə çıxaq ki, Ermənistan baş naziri Nikol Paşinyan sonuncu mətbuat konfransında üçtərəfli bəyanata ölkəsinin məğlub, Azərbaycanın qalib dövlət obrazını canlandıran sənəd kimi baxılmasının əleyhinə çıxdı. Əlbəttə, bu, reallıqlara meydan oxumaqdır. Hərçənd, bölgə ilə bağlı böyük məsələlərin İrəvanın iştirakı olmadan həlli presedentinin mövcudluğunu nəzərə alsaq, Paşinyanın dilə gətirdiyi “milçəyin könül bulandırmasından” başqa bir şey deyil.

Əlqərəz, mövcud dolaşıq labirintdə Türkiyənin Azərbaycanın tərəfində dayandığını vurğulamağa ehtiyac yoxdur. Daha doğrusu, Ankara Bakının mövqeyini dəstəkləyir. Həm də ona görə ki, prinsip etibarilə ona öz ərazisindən keçən daha bir qlobal tranzit lazımdır. Əlbəttə, məsələnin ideoloji tərəfi də var. Söhbət Naxçıvana yol və Zəngəzur müstəvisində türk dünyasının bütövləşmiş strukturunun qərarlaşmasından gedir. Yeri gəlmişkən, bu məsələ ölkəmiz üçün də aktualdır.

Rusiyanın mövqeyi barədə söz açdıq. Əlavə edək ki, ölkənin Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bugünlərdə keçirdiyi ənənəvi brifinqdə maraqlı məqama toxunmuşdu. Onun sözlərindən belə çıxmışdı ki, Rusiyanın Azərbaycan vasitəsilə daşımalarda marağı var




və bu məsələdə Moskva üçün ölkəmizdən və Ermənistandan keçməklə, Türkiyə, oradan isə Qərb istiqaməti mühüm əhəmiyyət daşıyır. Bir sözlə, Rusiya da “Zəngəzur dəhlizi” ideyasını təqdir edir. Hərçənd, Kreml təmsilçilərinin sırf bu ifadəni dilə gətirməkdən uzaq dayandıqları da məlumdur. Görünür, erməniləri qıcıqlandırmaq istəmirlər. Anlaşılandır...

Məlum olmayan və anlaşılmayan İranın mövqeyidir. Daha doğrusu, Tehranın mövqeyi bəllidir, ancaq onun məsələyə indikindən fərqli yanaşmasına ümid bəslənilir. Əvvəldə “səbrlə davranmaq, müzakirəyə üstünlük vermək, müxtəlif həll variantları axtarmaq” məntiqindən məhz buna görə bəhs etdik. Yəni, indiki şəraitdə “Nuh deyib peyğəmbər deməməyə” heç bir ehtiyac yoxdur. Görünür, Moskvanın Tehrana anlatmaq istədiyi elə budur. Hər halda, İranın xarici işlər nazirinin köməkçisi, Avrasiya məsələləri üzrə baş direktor Müctəba Dəmirçulu ilə Rusiyanın İrandakı səfiri Aleksey Dedovun görüşmələri və Cənubi Qafqazdakı vəziyyəti müzakirəyə çıxarmaları adi məsələ kimi qarşılana bilməz. Görüşdə nələrdən söz açıldığını diqqətə çatdıracağıq. Hələlik isə...

Bəli, Zəngəzur dəhlizinə görə İranla Rusiya arasında da münasibətlərin gərginləşəcəyini ehtimal etmək mümkündür. Ümumi mənzərə belədir ki, Azərbaycan, Türkiyə və Rusiya bu dəhlizin açılmasını və ona Rusiyanın nəzarət etməsini istəyirlər. Əslində, demək olmaz ki, İran və Ermənistan Naxçıvana yolda maraqlı deyillər. İkinci üçün, bu, dalandan çıxmaq istəyidir. Əlbəttə, rəsmi İrəvan qlobal daşımaların mərkəzində dayanıb həm mənəvi, həm siyasi, həm də iqtisadi dividendə can atır. Ancaq Ermənistan və İran sırf Zəngəzur dəhlizinə, bütövlükdə isə dəhliz məntiqinə qarşıdırlar. Ona görə də Müctəba Dəmirçulu səfir A.Dedovla görüşündə regiondakı sərhədlərin toxunulmazılığı klişesini qabardır. Nəticə etibarilə, Tehran Qərblə eyni mövqedən çıxış edən tərəfə çevrilir.

Ancaq İran rəsmilərinin düşünmələrinə ehtiyac var. Əgər Zəngəzur dəhlizinə nəzarəti Ermənistan reallaşdırsa, bu, Qərbin patronajlığı altında olacaq. Görəsən, belə gedişat İrana lazımdırmı? Axı ölkə “region ölkələri üçündür” şüarını dəstəklədiyini bəyan edir. Yeri gəlmişkən, Dəmirçulu ilə Dedov “3+3” platforması çərçivəsində qarşıdan gələn görüşü müzakirə ediblər. Formatın regionda təhlükəsizlik, iqtisadi və nəqliyyat əlaqələrinin açılması nöqteyi-nəzərindən əhəmiyyətini vurğulayıblar.

O zaman Tehranda bilmirlərmi ki, Qərbin Ermənistan vasitəsilə Cənubi Qafqazda söz sahibinə çevrilməsi, sonradan İran üçün təhlükə yaradacaq? Nəhayət, hansının – əsrlərdir bir coğrafiyada təmsil olunan Rusiyanın, yoxsa bu coğrafiyadan kənar Qərbin təminatı daha etibarlıdır? Güman edirik ki, səfir Dedov M.Dəmirçuluya bunları da izah edib.

M.Dəmirçulu vurğulayıb ki, İran regionda sülh və sabitlikdə maraqlıdır və prosesə dəstək göstərməyə hazırdır. Onun ölkəsinin beynəlxalq səviyyədə tanınmış sərhədlərin və geosiyasi status-kvonun hansısa dəyişikliyinə qarşı olmasına dair fikri isə düşünməyə vadar edir. İndi necə başa düşək? Aydındır ki, geosiyasi dəyişiklik labüddür və Tehran buna qarşı çıxa bilmək potensialında deyil. Axı sərhədlərin dəyişməsinin qeyri-mümkünlüyü “geosiyasi dəyişiklik yolverilməzdir” məntiqi içərisindəki tək və yeganə seqment deyil.

Hesab edək ki, Azərbaycanın “Zəngəzur dəhlizi” yox, Ermənistanın “Dünyanın kəsişməsi” ideyası reallaşır. Belə olduqda geosiyasi dəyişiklik yaşanmayacaq? Əlbəttə ki, yaşanacaq. Bir qədər əvvəl Qərbin Ermənistan vasitəsilə regionda güclü mövqeyə sahiblənməsindən təsadüfən söz açmadıq. Bunun gerçəkləşməsinin geosiyasi status-kvo dəyişikliyi olduğunu nəzərə alsaq, İranın belə bir duruma qarşı da müqavimət ortaya qoyması mümkünsüzdür? Ölkə Ermənistanın etibarınamı güvənəcək?

Başqa məqama keçək. Dedov–Dəmirçulu təmasında tərəflər regiondakı bütün ölkələrin maraqlarına və qanuni narahatlıqlarına diqqət yetirilməsinin vacibliyini vurğulayıblar. Hesab edirik ki, narahatlığı yuxarıdakı suallarla, kifayət qədər, əhatəli göstərdik. Qalır nəticə çıxarmaq. Daha doğrusu, Tehranın nəticə çıxarması. Əgər Dedov–Dəmirçulu görüşündə Cənubi Qafqazla bağlı bütün tərəflərin maraqlarını nəzərə almaqla problemlərin həlli, regionda sülhün, sabitliyin bərqərar olması və iqtisadi planların həyata keçirilməsi üçün region ölkələrinin potensialından istifadənin vacibliyi vurğulanırsa, üstəlik, bu zaman ərazi bütövlüyü və suverenliyin toxunulmazlığı amili önə çəkilirsə, deməli, rusiyalı səfir İran rəsmisinə başlıca məqamın nədən ibarət olduğunu da çatdırıb.

Bəli, ərazi bütövlüyü və suverenlik məsələsi ilə manipulyasiya edən Ermənistanın məqsədi Rusiyanı, elə İranı da qlobal tranzitdən ofsayd durumunda saxlamaqdır. Birinci məhz bu səbəbdən ortaya atılıb. Dedov durumu Dəmirçuluya anladıbmı, – bilmirik. Bu yerdə Rusiya XİN rəsmisi M. Zaxarovanın daha bir fikrini diqqətə çatdıraq. M.Zaxarovanın bildirdiklərindən o nəticə hasil olurdu ki, Azərbaycan, Rusiya və Ermənistan baş nazirlərinin müavinlərinin görüşlərində tərəflər ölkələrin suverenliyi pozmamaq üçün tam yuridik əsaslarla həyata keçirilməli olan gömrük prosedurlarına qədər hər şey razılaşdırılmışdı. Ancaq rəsmi İrəvan son anda mövqeyindən uzaqlaşaraq Rusiya sərhədçilərinin təkcə Ermənistan deyil, həm də Azərbaycan tərəfində nəzarəti həyata keçirmələri şərtini irəli sürüb.

Məlumdur ki, Bakı bu şərti qəbul edə bilməzdi və etməyib də. Həm də ona görə ki, müharibə məğlubu ölkə belə tələb irəli sürməməlidir. Ən sonuncu sualımız isə budur: İran Ermənistanı məğlub sayır, yoxsa yox!? Yaxud Azərbaycanın qələbəsini qəbul edir, yoxsa fərqli düşünür? Yaxşı olar ki, İran Ermənistanın vaxtilə Qərbə arxalanaraq bütün oyun qaydalarını pozduğunu, 44 günlük müharibəyə rəvac verdiyini xatırlasın. Amansız savaşın onun sərhədləri yaxınlığında baş verdiyini də həmçinin. Axı dünya başqa dünyadır, bunu görmək çoxmu çətindir?

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Deyəsən, davakarlar “dəmir yumruq”dan ötrü darıxıblar

**Qarabağ iqtisadi rayonunun müəyyən hissəsində 32 il (1991-2023) mövcud olmuş separatçı rejimin sonuncu “qlavar”ı Samvel Şahramanyan yenə də sərsəm açıqlamaları ilə gündəmə gəlib. Xunta rejiminin Ermənistan paytaxtına sığınmış tör-töküntüləri sentyabrın 2-də qondarma rejimin yaradılmasının “ildönümü”nü qeyd ediblər. Onlar həmin gün ölkəmizə qarşı işğalçı müharibədə həlak olmuş şəxslərin dəfn edildikləri İrəvandakı “Yerablur” qəbiristanlığında olublar.**



Azərbaycan Ordusunun ötən il keçirdiyi lokal xarakterli antiterror tədbirləri zamanı heç bir sutka müqavimət göstərməyə gücü çatmayan, döyüşlərin başlamasından cəmi 5-6 saat sonra “ağ bayraq” qaldıraraq təslim olan, süqut edən, sentyabrın 28-də rejimin 2024-cü il yanvarın 1-dək mövcudluğuna xitam verilməsi haqqında “fərman” imzalayan Şahramanyan, deyəsən, həmin günləri unudub.

Separatçıların sonuncu başçısı jurnalistlərlə söhbətində 1991-ci il sentyabrın 2-də keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti və ona bitişik Şaumyan rayonunun sərhədləri daxilində qondarma rejimin yaradılmasını “Dağlıq Qarabağ xalqının müstəqillik bəyannaməsi” qəbul etməsi adlandırıb. Şahramanyan təəssüflə bildirib ki, erməni əhalisi bu günü öz evindən uzaqda qeyd edir. Onların geri qayıtması məsələsi “respublikanın indiki hakimiyyətinin” daim gündəmindədir.

O, “Artsax parlamenti”nin qərarı ilə Ermənistanın keçmiş xarici işlər naziri Vardan Oskanyanın rəhbərlik etdiyi işçi qrupunun yaradıldığını qeyd edib. Bildirib ki, onlar vaxtaşırı görüşür və hayların daimi yaşayış yerlərinə qayıtması üçün bütün mümkün variantları müzakirə edirlər. “Lakin biz bu qayıdışın beynəlxalq təminat mexanizmlərindən istifadə etməklə həyata keçirilməsinə hazırlaşmalıyıq, əgər bu təminatlar realdırsa, biz artsax xalqının öz vətənlərinə qayıtmasını təmin etməyə hazırıq” – deyə bildirib.

2023-cü il sentyabrın sonu, oktyabrın əvvəllərində özündən əvvəlki separatçı “qlavarlar” və başqa hərbi canilər həbs edilsələr də, saxlanılmaqdan son anda canını qurtararaq Xocalı hava limanından qalxan təyyarə ilə Qafana uçan Şahramanyan rejimin buraxılmasına dair imzaladığı “fərman” barədə də danışıb. Deyib ki, onun “Artsax respublikasının buraxılması haqqında fərmanı” qanunsuzdur və bu sənədin heç bir hüquqi qüvvəsi yoxdur. Onun sözlərinə görə, “Artsax”ın ləğvi məsələsi manipulyasiya edilir, guya, onun imzalamalı olduğu sənəd mülki əhalinin təhlükəsiz gediş-gəlişini təmin etməyə imkan verib. Samvel bir daha qeyd edib ki, rejimin ləğvi ilə bağlı “sənəd” qanunsuzdur və onun hüquqi qüvvəsi yoxdur.

Yeri gəlmişkən, qeyd edək ki, vaxtilə Qarabağda etnik separatizmin, bu gün isə Ermənistanda revanşizmin qızışdırılmasına xüsusi “töhfə” verən ölkənin mediası bu tədbiri “Dağlıq Qarabağın prezidenti (?) Samvel Şahramanyanın başçılıq etdiyi Artsax respublikasının ali rəhbərliyinin ziyarəti” kimi qələmə verib.

Şahramanyanın iddiaları ilə bağlı bir sıra məsələlərə aydınlıq gətirməyə ehtiyac var. Qeyd etdiyimiz kimi, bir il əvvəl qondarma rejimin buraxılmasına imza atan Samvel indi Azərbaycanla söz oyununa başlayıb. Əlbəttə, bütün bu iddialar ölkəmiz üçün cəfəngiyatdır və heç bir məna kəsb etmir. Bizim üçün burada önəmli olan rəsmi İrəvanın mövqeyidir.

Sirr deyil ki, Ermənistan hakimiyyəti separatçılara hər zaman hərtərəfli dəstək verib. Qarabağdakı işğalçı ordu da Ermənistan silahlı qüvvələrinin ayrılmaz tərkib hissəsi olub. Hayastan İkinci Qarabağ müharibəsindəki məğlubiyyətə, təslimolma sənədi imzalamasına baxmayaraq, xarici qüvvələrin sifarişi və dəstəyi ilə Qarabağdakı erməniləri silahlandırır, onların Azərbaycan Respublikasına reinteqrasiyasına imkan vermir, bir sözlə, bölgədə separatizmi təşviq edirdi. Baş nazir Nikol Paşinyan şifahi, eləcə də 2022-ci il oktyabrın 6-da Praqada Avropa Siyasi Birliyinin zirvə toplantısı çərçivəsində keçirilmiş dördtərəfli görüşdə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini yazılı şəkildə tanısa da, tez-tez “Dağlıq Qarabağ” ərazi vahidindən bəhs edirdi. Bu, az imiş kimi, Paşinyan 2023-cü il sentyabrın 2-də Qarabağ ermənilərini “müstəqillik bəyannaməsi” qəbul etmələri münasibətilə təbrik etmişdi.

Nikolun bu addımı göstərdi ki, qarşı tərəf reinteqrasiya prosesində, Qarabağda Azərbaycanın suverenliyinin tam bərpasında maraqlı deyil və ərazi iddialarından əl çəkməyib. Onun xunta rejiminə təbrik məktubu ünvanlaması və sentyabrın 9-da Qarabağ iqtisadi rayonunun həmin hissəsində qondarma “prezident seçkiləri”nin keçirilməsi, S.Şahramanyanın “prezident” elan olunması ölkəmizin səbir kasasını daşdıran son damla oldu. Çünki 44 günlük Vətən müharibəsindən sonra tərəflər arasında qeyri-rəsmi razılıq var idi. Bu razılaşmaya görə, hər şey olduğu kimi qalmalı, tərəflər barışdırıcı mövqe sərgiləməli idi. Amma rəsmi İrəvan bu razılaşmanı dəfələrlə pozdu.

Mina terroru isə hər gün can alırdı. Qarabağdakı silahlı ermənilər azərbaycanlıların keçdiyi yollara minalar basdırmaqda davam edirdilər və bu minalar Ermənistanda 2020-ci ildən sonra istehsal olunmuşdu. Beləliklə, bizim başqa yolumuz qalmadı və 2023-cü il sentyabrın 19-da ordumuz lokal xarakterli antiterror tədbirlərinə başladı. Cəmi 23 saat davam edən tədbirlər nəticəsində Ermənistan ordusunun bölmələri silahlarını yerə qoydu və Qarabağın bütün ərazisi üzərində suverenliyimiz bərpa edildi. Azərbaycan ərazisindəki boz zona birdəfəlik ləğv edildi.

Bu xatırlatmanı verməyimiz təsadüfi deyil. Əgər indi Ermənistanın cəsarəti çatırsa, Samvelin bu cəfəng ideyalarının gerçəkləşdirilməsi istiqamətində addımlar ata bilər. O zaman başlarına hansı oyunların gələcəyinə şahid olacaqlar. Ümumiyyətlə, görünən odur ki, hər ilin sentyabrında Ermənistan özünü qəribə tərzdə aparmağa başlayır. Onlar 2020-ci ildən başlayaraq hər ilin sentyabrında zərbə almağa alışıblar. “Dəmir yumruq” isə yerindədir, heç yerə getməyib və növbəti dəfə onun gücünü üzərlərində sınaqdan keçirə bilərlər.

Digər tərəfdən baş verənlər artıq mühacirətdə Qərbi Azərbaycan hökumətinin yaradılmasının vaxtının yetişdiyini göstərir. Doğrudur, Qərbi Azərbaycan İcması var və aktiv fəaliyyət göstərir. Amma soydaşlarımızın öz doğma torpaqlarına qayıdışı məsələsinə daha sistemli yanaşma olmalıdır. 2024-cü il iyulun 1-də Kanadanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kevin Hamiltonun etimadnaməsini qəbul edərkən Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər burada əsas kimi götürülə bilər. Azərbaycan Prezidenti bildirmişdi ki, qayıdış hüququ qarşılıqlı şəkildə təmin olunmalı, o cümlədən Qərbi Azərbaycan İcmasının nümayəndələrinə də şamil edilməlidir. Bu çərçivədə dövlətimizin başçısı ötən əsrdə, sonuncusu 1988-ci ildə olmaqla müxtəlif mərhələlərdə köklü Azərbaycan əhalisinin indiki Ermənistan ərazisində etnik təmizləməyə məruz qaldığını və onlara aid maddi-mədəni irsin tamamilə dağıdıldığını qeyd etmişdi.

Bu çərçivədə sentyabrın 1-də Milli Məclisə növbədənkənar seçkilərin keçirilməsini, parlamentin yeni tərkibinin formalaşmasını qeyd etmək lazımdır. Yeddinci çağırış Milli Məclisin tərkibində Qərbi Azərbaycandan olan, qaçqın həyatı yaşamış, hətta körpə olarkən Qərbi Azərbaycandan valideynləri ilə çıxmağa məcbur olmuş deputatlar var ki, onlar daha fəal olmalıdırlar. Zənnimizcə, parlamentdə bununla bağlı xüsusi komissiyanın yaradılması məsələsinə də baxılması, ümumi işin xeyrinə olar.

Mövzu üzrə fikirlərini “XQ” ilə bölüşən Dövlət İdarəçilik Akademiyasının müşaviri, politoloq Zaur Məmmədov bildirdi ki, S.Şahramanyanın açıqlaması və Ermənistan hökumətinin bəyanatları, onların vaxt uzatması bölgədə sülhə ciddi zərbədir: “Məlum olduğu kimi, Qarabağ erməniləri bugünlərdə 1991-ci il sentyabrın 2-də elan etdikləri qondarma müstəqilliklərinin ildönümünü qeyd ediblər. Həmin gün Şahramanyan və digərləri Qarabağ ermənilərinə müraciət edərək sərsəm bəyanatlar səsləndirmişlər. Bu fonda Ermənistan rəhbərliyinin 2024-cü ildə imzalanmasına böyük ümidlərin bəslənildiyi sülh müqaviləsini imzalamaması və ölkəmizə qarşı ərazi iddialarından əl çəkməklə bağlı konkret mövqe nümayiş etdirməyərək vaxtı uzatması bölgədə sülhə zərbə kimi başa düşülməlidir. Bir tərəfdən erməni separatçıları köhnə ab-havada iddialarını davam etdirirlər, digər tərəfdən rəsmi İrəvan məğlub ordusunu gücləndirir, sülh gündəliyi ilə bağlı konkret addımlar atmır”.



Z.Məmmədovun sözlərinə görə, bütün bunlar aşağıda qeyd olunanların aktuallaşmasının istisna olmadığını göstərir: “İlk növbədə Ermənistanın silahsızlaşdırılması məsələsi gündəmdədir. Qərbi Zəngəzur və Göyçə gölünün ortasından şərti sərhədlərə qədər ərazilər silahsızlaşdırılmalıdır. Bu ərazilərdə Ermənistan ordusu ancaq yüngül tipli silahlarla təchiz edilməlidir. Birinci və İkinci dünya müharibələrindən sonra Almaniya, Yaponiya, ötən əsrin sonlarında İraq nümunələri artıq var. İkincisi, beynəlxalq aləm azərbaycanlıların qayıdışı məsələsinə ciddi yanaşmalıdır. Bölgədə sülhün möhkəmləndirilməsi üçün toplumlar əvvəlki demoqrafik coğrafiyaya qayıtmalıdırlar. Şahramanyanın bəyanatları isə sülh prosesini gərginləşdirir, revanşizmdən xəbər verir”.

Politoloq istisna etmir ki, Milli Məclisdə Qərbi Azərbaycanla əlaqədar xüsusi komissiya yaradıla bilər. Onun sözlərinə görə, əgər Ermənistan hücum xarakterli silahlarını Zəngəzura yerləşdirməyə, ərazi iddiaları ilə ordumuza qarşı atəşkəsi pozmağa davam edəcəksə, o zaman bölgədə bufer zonasının yaradılması üçün lazımi addımlar atılacaq. Beləliklə, Azərbaycanın sülh çağırışları fonunda Ermənistandakı separatçılar və hökumət tərəfindən verilən bəyanatlar regionun təhlükəsizliyi ilə bağlı adekvat addımların atılması ilə nəticələnə bilər.

***Səxavət HƏMİD***
***XQ***

# Ermənistanın sülhdənqaçma “paketi”

*(əvvəli 3-cü səhifədə)*

“Ermənistan hakimiyyəti ən müxtəlif yollarla sülh sazişinin imzalanmasını uzatmağa çalışır. Artıq sayca onuncu təkliflər paketi o deməkdir ki, sülh müqaviləsinin bağlanmasının vaxtı çatıb. Baxmayaraq ki, sazişin mətnində bir neçə maddə öz həllini tapmayıb”. Bunu “XQ”yə açıqlamasında Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxov bildirdi və rəsmi İrəvanın dedikləri məsələlərlə bağlı olmadığına diqqət çəkdi: “Azərbaycan lap başdan bu missiyanı bölgə üçün lazımsız qurum kimi qəbul edib. Bu missiyanın nəyi qoruduğu, nələri müşahidə etdiyi bugünədək qaranlıq qalıb. Əlbəttə, həmin kontingentin istefada olan jandarm və hərbçilər, yəni xüsusi xidmət orqanlarının potensial agentləri olmaları hamıya bəllidir. Onların sərhəd zonasında məxfi məlumatlar toplamaqla məşğul olmaları da müzakirə edilən mövzulardandır. Nəhayət, Paşinyan



sülh paketinə nələrisə daxil etdiyinə əmin olduğunu dilə gətirdi: “Amma bu, mümkün deyil. Necə yəni öz həllini gözləyən məsələlər var? Bunlar çox ciddi suallardır. Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının əks olunduğu müddəaları mütləq çıxarmalıdır. İndi olmasa da, qarşıdakı mərhələdə Zəngəzur dəhlizinin açılması həll olunmalıdır. Digər məsələlər də var”.

İrəvanın sülh danışıqları üzərində manipulyasiyaya davam etdiyini nəzərə çatdıran tanınmış politoloq onun Avropa İttifaqının müşahidə missiyasının əhəmiyyətini qabartmağa başlamasının da təsadüfi da anlayır ki, Ermənistanı Aİ-yə, yaxud NATO-ya qəbul edən yoxdur. Bu məsələlər gündəlikdə durmur. Həmin təşkilatların Azərbaycana qarşı qərəzli mövqedən çıxış etdikləri də hamıya yaxşı məlumdur. Əslində, bütün bunlar Paşinyanın sülhdənqaçma siyasətinin atributlarıdır”.

* * *

Kostanyanın Praqadakı çıxışına qayıdaraq onu da qeyd etməyi zəruri sayırıq ki, Ermənistan hökuməti tərəfindən hazırlanmış “Sülh yollarının kəsişməsi” proqramı, guya, onun regional kommunikasiyaları açmağa hazır olduğunu təsdiqləməsi hayların növbəti “feyk-gedişidir”. Paşinyanın kommunikasiyaların qarşılıqlı şəkildə, suverenlik, yurisdiksiya və bərabərlik prinsiplərinə əsaslanaraq işə salınması barədə söylədikləri də siyasi saxtakarlıq və vaxt qazanmaq “nömrələrinin” davamıdır.

Nazir müavininin çıxışında Aİ-nin mülki müşahidə missiyası barədə dedikləri isə heç bir halda rəsmi Bakının mövqeyi ilə üst-üstə düşə bilməz. Azərbaycan Prezidenti İlham Əliyevin köməkçisi Hikmət Hacıyev Amerikanın “Politico” nəşrinə müsahibəsində bu mövzu ilə bağlı birmənalı olaraq bildirib ki, Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiyası və demarkasiyası üzrə hökumət komissiyalarının birgə işinə dair sənədin imzalanması “Avropa İttifaqı missiyasının Ermənistandan çıxarılması üçün kifayət qədər əsas verir”. Yəni, Aİ-nin şübhəli fəaliyyətə malik mülki missiyası iki ölkə arasında sərhəd razılaşmalarına yardım göstərmək deyil, yalnız maneçilik törədə bilər.

Hökumətlərarası komissiyanın vasitəçisiz, birbaşa və gərgin birgə işinin müsbət nəticəsi kimi avqustun 30-da Azərbaycan və Ermənistan arasında imzalanan vacib sazişi göstərmək olar. Həmin sənədi bugünlərdə hər iki tərəfin eyni vaxtda dərc edəcəyi gözlənilir.

Oxuculara xatırladaq ki, avqustun 30-da imzalanmış “Komissiyaların birgə fəaliyyəti haqqında Əsasnamə” hazırda Azərbaycan və Ermənistanda dövlətdaxili prosedurlardan keçirilmə mərhələsindədir.

Hər şeydən göründüyü kimi, sülh müqaviləsinin imzalanmasını uzatmağa çalışan Ermənistan öz tarixinin ciddi sınaq dövrünü, ən keşməkeşli günlərini yaşamaqdadır. İndi ölkə daxilində, eləcə də bütün sahələrdə dərin xaos, iqtidarla kütlə arasında inamsızlıq mühiti hökm sürür.

Sülhdən qaça-qaça Bakıya 10-cu təkliflər paketini göndərən Paşinyan iqtidarını qarşıda sülhsüz və daha çətin günlərin, cəmiyyəti isə qarşıdurmaların gözlədiyini təxmin edə bilərik.

***İmran BƏDİRXANLI***
***XQ***

# İrəvan Qərbi azərbaycanlıların qayıdış hüququnu tanımaq istəmir

**Sentyabrın 2-də Ermənistanda revanşist qüvvələrin, qondarma rejimin tör-töküntülərinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü təhdid edən təxribatçı açıqlamalarını, o cümlədən Qərbdəki havadarlarına arxalanaraq yenə “beynəlxalq təminat altında Qarabağa qayıdış”dan dəm vuranların biz Qərbi azərbaycanlıların qayıdış hüququnu danmasını kəskin şəkildə pisləyirik. Bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında bildirilib.**



Bəyanatda, həmçinin qeyd olunub: “Qərbi Azərbaycan İcması son vaxtlar bir neçə dəfə Ermənistan hökumətindən öz ərazisində Azərbaycanın suverenliyinə qarşı çıxan qüvvələrin fəaliyyətinə son qoyulması ilə bağlı çağırış edib. Görünən odur ki, Ermənistan hökuməti nəinki bu addımı atmır, əksinə, üzdə sülhdən danışaraq kənarda anti-Azərbaycan addımlara rəvac verir.

Qərbi Azərbaycan İcmasının Ermənistanın suverenliyini və ərazi bütövlüyünü təhdid etmədiyi halda, özünü “mühacirətdə olan hökumət” kimi qələmə verən qondarma rejimin tör-töküntülərinin, Ermənistanın sabiq xarici işlər nazirinin rəhbərlik etdiyi “repatriasiya komissiyası”nın Ermənistanda belə rahat fəaliyyət göstərməsi qəbuledilməzdir. Bəyan edirik ki, Ermənistan bu təhlükəli siyasətdən əl çəkməsə, onda biz Azərbaycan Respublikasında mühacirətdə olan Qərbi Azərbaycan hökumətinin təsis edilməsi istiqamətində işlərə başlayacaq və bu xüsusda, ilk olaraq yeni seçilmiş parlamentdə “Qərbi Azərbaycana qayıdış” komissiyasının yaradılması məqsədilə Milli Məclisə müraciət ünvanlayacağıq".

# Fransada siyasi böhranı Makronun gedişi həll edə bilər

## *Lakin o, hələ də müqavimət göstərir*

**Cənubi Qafqazda sülh və sabitliyin bərpa olunmasına imkan verməyən, Ermənistanı hər vəchlə qızışdıran bəzi Qərb ölkələrinin önündə gedən Fransada vəziyyət gündən-günə pisləşir. Ölkə daxili siyasi ziddiyyətlərə, necə deyərlər, qərq olub və fransızlar buna görə məsuliyyəti prezident Emmanuel Makronun üzərinə qoyurlar.**



Fransanın ən çox baxılan xəbər kanalı olan BFM TV-nin keçirdiyi rəy sorğusunun nəticəsinə əsasən, fransızların demək olar ki, yarısı ifrat solçu, 2024-cü il iyunun 30-da və iyulun 7-də keçirilmiş (müvafiq olaraq birinci və ikinci tur–S.H.) parlament seçkilərində qalib gələn solçu qüvvələr blokunun üzvü olan “Məğlubedilməz Fransa” partiyasının lideri Manuel Bomparın prezident Emmanuel Makronun istefa verməli olduğu barədə təklifini dəstəkləyir. Bu təklifə respondentlərin 49 faizi “hə” deyib. Diqqəti cəlb edən həm də odur ki, təkcə sadə vətəndaşlar deyil, bəzi siyasətçilər də Makrona qarşı siyasi addımların atılması üçün çağırış edirlər. Məsələn, “Vətənpərvərlər” partiyasının lideri Florian Filippo “Teleqram”ın yaradıcısı Pavel Durovun saxlanması ilə bağlı Makronun impiçmentini tələb edir.

Ancaq bu, aysberqin media məkanında yalnız görünən hissəsidir. Fransada siyasi qeyri-sabitliklə yanaşı, sosial problemlər və miqrasiya böhranı da tüğyan edir. Bir sıra avropalı analitiklər, hətta cəmiyyətdə yığılmış ziddiyyətlər səbəbindən ölkədə vətəndaş müharibəsinin baş verəcəyini proqnozlaşdırırlar. Buna görə də bəzi yerli siyasətçilər hesab edirlər ki, Makronun impiçmenti yaranmış vəziyyətdən ən yaxşı çıxış yoludur.

“Məğlubedilməz Fransa” partiyasının baş verənlərlə bağlı yaydığı bəyanatda qeyd olunur ki, onlar “Beşinci respublika”nın prezidentinə qarşı impiçment prosedurunu başlamağa hazırdırlar. Siyasi qüvvələr Fransa liderini demokratiyaya xəyanətdə və öz namizədini yeni baş nazir təyin etməkdən imtinasına görə institusional çevrilişdə ittiham ediblər. Partiya E.Makronu tutduğu vəzifədən məhrum etmək üçün bütün konstitusion vasitələrdən istifadə etməklə hədələyib. “Məğlubedilməz Fransa” qeyd edib ki, onlar prezidentin demokratiyanın əsas qaydasına məhəl qoymamaq cəhdinə göz yummaq fikrində deyillər və hər bir məsələ xalqın səsi ilə müəyyən olunmalıdır. Bundan öncə isə bu partiya ilə E.Makron arasında başqa bir böhran yaşanmışdı. Böhranın əsas səbəbi Makronun hökuməti idarə etmək üçün parlamentdə kifayət qədər dəstək qazana bilməyəcəyini nəzərə alaraq “Məğlubedilməz Fransa”nın baş nazirliyə namizədini dəstəkləməməsi idi. “Dövlət başçısının qərarı demokratiyaya qarşı institusional çevriliş kimi səciyyələndirilə bilər” – deyə “Məğlubedilməz Fransa” bəyan etmişdi.

Qeyd edək ki, Fransa parlamentinə keçirilən növbədənkənar seçkilərin nəticələrinə görə, solçu “Yeni Xalq Cəbhəsi” Milli Assambleyadakı 577 yerdən 193-nü əldə edib. İkinci yerdə 168 mandatla “Respublika naminə birlikdə” prezident bloku qərarlaşıb. Marin Le Penin ifrat sağçı Milli Birlik Partiyası 143 mandat qazanıb. Yəni, heç bir siyasi qüvvənin parlamentdə mütləq çoxluğu (289 yer) yoxdur.

Bütün bunlar Fransanın çoxdan görmədiyi ciddi konstitusiya böhranı yaşadığını deməyə əsaslar verir. Ümumiyyətlə, Fransanın dövlət idarəçiliyi mexanizmi kifayət qədər mürəkkəbdir. Fransa prezident və parlament formatının bir növ qarışığı olan, hamının bir-birindən ayrı fəaliyyət göstərdiyi və bir-birindən seçildiyi idarəçilik modelinə sahibdir. Yaranmış vəziyyəti şərh edən israilli publisist, **İsrail Jurnalistlər Birliyinin beynəlxalq əlaqələr komissiyasının rəhbəri Rostislav Qoltsman hesab edir ki,** Makron



prezidentliyi illərində bu mürəkkəb dövlət idarəçiliyi modeli barədə heç olmasa nəsə öyrənməli idi, amma o, siyasətə yeni gələnlər kimi, klassik səhvə yol verdi: boyundan yuxarı tullandı. Məsələ ondadır ki, Makron ən çox Marin Le Penin rəhbəri olduğu Milli Cəbhənin uğurundan qorxurdu və bunun qarşısını almaq üçün o, solçu partiyaların bloku – “Yeni Xalq Cəbhəsi” ilə əlbir olaraq onlara Fransanın bir sıra regionlarında yer verdi. Nəticədə, Makronun bloku Le Penin partiyasını qabaqladı və ikinci yeri tutdu. Lakin koalisiya hökuməti qurmaq vaxtı gələndə Makronun sonuncu müttəfiqi ultimatum verdi: Yeni baş nazirin namizədliyini məhz o müəyyənləşdirəcək.

Bununla belə, ekspert hesab edir ki, Jan-Luk Melanşonun rəhbərliyi altında “Yeni Xalq Cəbhəsi”ndə sol radikal qruplar, o cümlədən ən odioz fiqurlar (olduqca iyrənc, yaramaz, arzuolunmaz, xoşagəlməz, özünə qarşı mənfi münasibət, nifrət və ikrah oyadanlar–S.H.), xüsusən də antisemitlər cəmləşiblər. Belə bir qrupun təklifinin Fransa parlamentindəki heç bir qüvvə tərəfindən dəstəklənməyəcəyi aydındır: “Makronun siyasi axmaqlıqlarından birinin mahiyyəti budur – Le Penin uğurunu əngəlləməklə o, Fransanı siyasi böhrana sürüklədi. Beləliklə, indi vəziyyəti hansısa formada nizamlamaq üçün Makron həmin Le Pen və nifrət etdiyi digər siyasətçilərlə danışıqlar aparmağa məcburdur. Məqsəd yenə də seçkilərin liderinin – “Yeni Xalq Cəbhə”sinin təhdidlərindən birtəhər qurtulmaqdır. Sonuncu isə gözləmək və heç nə ilə razılaşmaq istəmir və əhalinin dörddə üçünün onunla həmfikir olduğunu iddia edərək minlərlə insanı küçələrə çıxarmaqla hədələyir. Bu təhdidin doğru olub-olmaması vacib deyil, amma Fransa cəmiyyətinin ən fəal hissəsinin “Yeni Xalq Cəbhəsi”nin nəzarəti altında olduğu göz önündədir. Bu, Makronun özü üçün yaratdığı “siyasi kompot” növüdür. Durovla bağlı iş isə Makronun yöndəmsizliyinin başqa bir amili, hazırkı siyasi gündəmin ssenarisinə tam uyğun gəlməməsidir”.

R.Qoltsman bildirib ki, beləliklə, impiçment Makronun siyasi cəhətdən uzaqgörən ola bilməməsinin nəticəsidir. O, özünü tələyə salıb və bu, onun üçün ən ciddi sınaq kimi görünür. “Etməli olduğumuz yeganə şey gözləməkdir. Düşünürəm ki, gözlənilən impiçment onun “prezidentlik səyahəti”nin son dayanacağı olacaq” – deyə israilli analitik vurğulayıb.

Gözlənilən impiçmentin E.Makronun siyasi karyerasına son qoyması və daha uyğun liderə yol açması üçün real şansların nə qədər olması barədə fikirlərini bölüşən fransaşünas, tarix elmləri namizədi, **Rusiya Prezidenti yanında Xalq Təsərrüfatı və Dövlət İdarəçilik Akademiyasının Sosial Elmlər İnstitutunun dosenti İqor İqnatçenkonun fikrincə,** Makron indi, sadəcə, obrazlı desək, sağ qalmaq, yəni ikinci prezidentlik müddətinin sonunadək vəzifəsini qoruyub saxlamaq üçün çox şey edir. Buna görə də Makron, ümumilikdə, hələ də müxtəlif siyasi sınaqlara, o cümlədən impiçmentə qarşı müqavimət göstərir: “Onun “qara gün” üçün özünün “sağqalma strategiyası” var. Həmin “strategiya” bu və ya digər siyasi qüvvəyə növbəti güzəştlərdən ibarətdir”.

İqnatçenkonun sözlərinə görə, hazırda Fransada Makronun inadkarlığı və tələsik hərəkətləri ilə alovlanan siyasi qarşıdurma güclənir. O, solçu partiyalar blokundan namizədi hökumət başçısı təyin etməkdən qəti şəkildə imtina edir. Söhbət sonuncu



parlament seçkilərində qalib gələn “Yeni Xalq Cəbhəsi”ndən gedir. Namizədin özü – Lüsi Kastets Paris meriyasında işləyir və az-çox mötədil siyasətçidir. O, Makronun gündəminə yaxşı uyğunlaşa bilər, lakin Fransa prezidenti onun namizədliyini əngəlləyir. Yəni, biz sona qədər müqavimət göstərən və aşkar şeylərə göz yuman Makronun belə məntiqsiz hərəkətlərini müşahidə edirik. Belə bir üslubu uzaqgörənlik adlandırmaq olmaz.

Politoloq hesab edir ki, eyni kontekstdə Makronun tələsik addımları sayəsində beynəlxalq qalmaqala çevrilən Pavel Durovla bağlı məsələ Parisin siyasi kredosuna güclü zərbə vurdu: “İlon Maskın Makrondan sahibkarın saxlanılması üçün indi mövcud olanlarla yanaşı, daha tutarlı səbəblər göstərməsini tələb etməsini də unutmaq olmaz. Birləşmiş Ərəb Əmirlikləri isə Durovun saxlanması səbəbindən Fransanın “Rafal” hərbi təyyarələrini almaqdan imtina etməklə qorxudur. Yəni, işlər artıq belə dalanlara dirənib”.

İ.İqnatçenkonun sözlərinə görə, Makron xarizmatik olmağa çalışır, amma əslində hər şey, bir növ, vodevilə çevrilir: “İmpiçmentin özünün nəticəsinə gəldikdə isə Makronun mövqeyinin ölümcül olmasına baxmayaraq, onun prosesdən sağ çıxacağını düşünürəm. Fransa parlamentində həddən artıq müxtəlif siyasi qüvvələr təmsil olunur. Makron buna çox ümid edir. Lakin bu, Fransanın Makronun prezidentliyi dövründə, hökumətin formalaşması məsələsi də daxil olmaqla, ölkənin ən dərin xaosa qərq olması və vəziyyətin bundan sonra necə inkişaf edəcəyi ilə bağlı prezidentin özünün də tam təsəvvürünün olmaması reallığını aradan qaldırmır”.

Onu da bildirək ki, Fransa istefadan sonra hökumətin vəzifələrini yerinə yetirmə müddətinə görə antirekord vurub. İyul ayında Makron Qabriel Attalın kabinetini yeni tamhüquqlu hökumət formalaşana qədər vəzifəsini davam etdirmək şərti ilə istefaya göndərmişdi. Konstitusiyaya görə, Makron gələn yaya qədər parlamenti buraxa bilməz. Ona görə də analitiklər onun partiyalarla dil tapmaq şansı yüksək olan birini baş nazir təyin edəcəyinə inanırlar. Eyni zamanda, Attal və prezidentə çıxışı olan bir sıra siyasətçilər ona yaxın düşərgədən olan şəxsi baş nazir təyin etməməyi məsləhət görürlər. Bu isə o demək olacaq ki, fransızlar dəyişikliyə səs verərkən ölkədə heç nə dəyişməyəcək.

Yaranmış böhran bir sıra ekspertlərin də qeyd etdikləri kimi, Fransa elitasının bir neçə onilliklər ərzində siyasi baxımdan ciddi şəkildə kiçilməsinin və Makronun özünün proseslərin mənfi istiqamətə doğru getməsinə rəvac verdiyinin bariz təzahürüdür. “Beşinci respublika” rəhbərinin ölkəsindən min kilometrlərlə uzaqda yerləşən Cənubi Qafqazdakı proseslərə müdaxilə etməkdən və Ermənistanı silahlandırmaqdansa, bu barədə düşünməsi daha yaxşı olardı.

***Səxavət HƏMİD***
***XQ***

AKTUAL

# Vətən müharibəsinin fəlsəfəsi

**IX MƏQALƏ**

**Dövlətçilik hər bir şəxsin qəlbində olmalıdır.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**



## Ərazi bütövlüyü

II Qarabağ savaşını Vətən müharibəsi kimi xarakterizə edən başlıca məqam ərazi bütövlüyünün təmini vəzifəsinin yerinə yetirilməsidir. Paralel olaraq, ərazi bütövlüyü milli ideyanın məzmununu və strateji məqsədini əks etdirir. Məntiqi olaraq belə bir nəticə çıxarmaq olar: II Qarabağ savaşı Vətən müharibəsi kimi iki funksiyanı sintezdə yerinə yetirmişdir. Onlardan biri azərbaycançılığın cəmiyyəti bütövləşdirən aparıcı konsept kimi özünütəsdiq etməsidir. İkinci funksiya azərbaycançılığın ərazi bütövlüyü ilə sosial bütövləşmənin stimulverici faktor kimi özünütəsdiqi ilə bağlıdır.

Hər iki funksiyanın substantiv təşkiledicisi eynidir – ərazi bütövlüyü. Buna nail olmaq isə həmin iki funksiyanın Vətən müharibəsi anlayışının semantik sahəsində mövcud olması ilə bağlıdır. Vətən müharibəsinin fəlsəfəsində bu məqamın xüsusi yeri vardır. Çünki Azərbaycan dövlətçiliyi tarixində ilk dəfə olaraq Vətən müharibəsinin məqsədi ilə milli ideyanın məzmunu üst-üstə düşürdü. Bunu necə reallaşdırmaq olardı?

Hər şeydən öncə, Vətən müharibəsi milli ideyanın reallaşdırılmasına xidmət etməli idi. Bununla da, müharibənin semantik anlamı sərhədlənməli idi. Yəni feili olaraq Azərbaycan Ordusu başqa funksiya yerinə yetirməməli idi. Ordu ərazi bütövlüyünü təmin etmək funksiyasını yerinə yetirdi və dayandı. Bu, faktiki olaraq, Azərbaycan Prezidentinin ifadə etdiyi üç vəzifənin birgə yerinə yetirilməsinin təsdiqi idi – tarixi ədalətin bərpası, milli ləyaqətin yenidən aktuallaşması və beynəlxalq hüquq normalarına əməl olunması.

Deməli, Vətən müharibəsinin başlıca fəlsəfi özəlliyi vurğulanan üç faktorun gözlənilməsi ilə milli ideyanın həyata keçirilməsi ilə əlaqəlidir. Bu da birbaşa milli ideyanın həyata keçirilməsində ədalət, ləyaqət və hüquq kimi dəyərlərin aparıcı rol oynadığını və faktiki olaraq Vətən müharibəsinin məna sərhədlərini müəyyən etdiklərini göstərir. Elə isə II Qarabağ savaşını ədalətli, ləyaqətli və hüquqi (qanuni) müharibə adlandıra bilərik!

Eyni zamanda, milli ideya ədalətlilik, ləyaqətlilik və hüquqilik (qanunilik, inklüzivlik) şərtlərinin ödənməsi fonunda reallaşmışdır. Ərazi bütövlüyünün bərpası vurğulanan dəyərlərin birgə uğurlu təcəssümüdür. Feili olaraq isə Azərbaycan cəmiyyətinin humanitar xarakterli savaş apardığının təzahürüdür.

Bunlar ərazi bütövlüyünün təmini birbaşa azərbaycançılıqla əlaqələndirən dəyərlərdir. Azərbaycançı olmaq, həm də dövlətin ərazisinin tamlığı üçün məsuliyyət daşımağı ifadə etməkdədir. Dövlət haqqında müasir fəlsəfi, sosioloji və kulturoloji təsəvvürlərdə ərazi bütövlüyünün təmini əsas şərtlərdən biri kimi dərk edilir. Burada coğrafi ərazinin siyasi, geosiyasi, mənəvi-mədəni mənalarını daşıdığı tezisi əsas götürülür. Belə alınır ki, ərazisinin bütövlüyünü təmin edə bilməyən dövlət tam mənasında müstəqil və suveren sayılmaz. Bu iki keyfiyyətə malik olmayan dövlət isə XXI əsrin əsl müstəqil dövləti kimi qəbul edilməz.

Deməli, II Qarabağ savaşı həm də müstəqil dövlətin mövcud ola bilmək şərtinin təmin edilməsidir. Vətən müharibəsi kimi II Qarabağ savaşının müstəqil dövlət, tarixi ədalət, milli ləyaqət və beynəlxalq hüquq kimi özünütəsdiqi, həm də azərbaycançılığın məzmun çalarlarından biri kimi təsəvvür edilə bilər. Bu məqam maraqlı və düşündürücü formada azərbaycançılığın məna və məzmununda dövlətçilik faktorunun yer almasının bir aspektini açır. Konkret olaraq, azərbaycançılıq həm də dövlət millətçiliyinin ifadəsidir. Azərbaycançılıq vətənsevərliyin dövlətsevərliyə proyeksiyasını özündə ehtiva edən milli məfkurədir! Bu məna transformasiyasında II Qarabağ savaşının rolu ayrıcadır! Buradan "Vahid Vətən" anlayışına maraqlı məna keçidi vardır.

## Vahid Vətən

Vətən özlüyündə həmişə təkdir, birdir və bu mənada vahiddir. Bununla yanaşı, azərbaycançılıq kontekstində Vahid Vətən ərazi bütövlüyü ilə suverenliyin azərbaycançılığın dövlətçilik aspektində sintezinin ifadəsidir. Bu anlamda Vətənin vahidliyi ərazi tamlığının tam suverenliklə vəhdətini əks etdirir. Yəni Vətən müharibəsi göstərdi ki, ərazi bütövlüyü ilə yanaşı, dövlət həm tam suveren olmaq da azərbaycançılığın tələblərindən biridir. Azərbaycançı dövlətin ərazisinin bütövlüyünü onun suverenliyinin tam təminatı zərurəti kontekstində dərk etməlidir. Bununla Vətənin vahidliyi xüsusi fəlsəfi anlam alır. Vahidlik müstəsnalıq deyildir, Vətənin coğrafi, mədəni, mənəvi və hüquqi olaraq tamlığıdır. Bunun üçün onun bir qarışı da işğal altında olmamalıdır və eyni zamanda, öz yetərli, haqqını tam təmin edən və dövlət kimi suveren davrana bilən olmalıdır.

"Vahid Vətən" anlayışının başqa bir məna çaları da vardır. O, "Vətənim Azərbaycandır, başqa Vətən yoxdur!" mənasını verir. Bu tezis deyərdim ki, azərbaycançılığın, Vətənsevərliklə Dövlətsevərliyin sintezində əsas müddəadır. Çünki azərbaycançılıq əslində, bir zamanlar ərazisi milyon kvadratkilometrlərlə ölçülən nəhəng dövlətin XX əsrdə cəmi 86 min kvadratkilometr əraziyə "sığınması" prosesinin dayandırılmasına səslənişdir! Göz görə-görə "Azərbaycan" adlı Vətən əldən gedirdi. Ulu öndər dahiyanə surətdə bu deqradasiya prosesini dərin mənalı "Azərbaycançı ol!" devizi ilə saxladı. Azərbaycançı olmağın motivədici mexanizmi isə "Mən fəxr edirəm ki, azərbaycanlıyam" kəlamı idi. Deməli, azərbaycançı olmağım üçün mən azərbaycanlılığımla fəxr etməliyəm. Bu məqam da "Vahid Vətən" anlayışının mənəvi-əxlaqi və ideoloji boyunun mövcudluğundan xəbər verir. Konkret olaraq, Vahid Vətənin semantikasında azərbaycanlıqla fəxarət hissi keçirmək ciddi yer tutur.

Beləliklə, "Vahid Vətən" çoxkomponentli ümumi anlayışdır. Onun məzmununda siyasi, sosial, kulturoloji, coğrafi və mənəvi-əxlaqi aspektlər bütövlük təşkil edir. Həmin bağlılıqda Vətən müharibəsi kontekstində vətəndaş həmrəyliyi və milli birlik də xüsusi məzmun alır.

## Vətəndaş həmrəyliyi

Həmrəylik məsələsi bütün dünya cəmiyyətləri üçün çox aktual məsələdir. Yurgen Habernas Avropa İttifaqı ölkələri üçün ən vacib faktoru məhz real həmrəylik modelinin axtarışında görür. O, Avropa ölkələrini hələlik bu istiqamətdə uğurlu hesab etmir.

Filosoflar və alimlər ayrıca bir cəmiyyət üçün də həmrəyliyin son dərəcə aktual bir məsələ olduğuna şübhə etmirlər. Azərbaycan üçün isə bu faktorun xüsusi mənası vardır. Onu üç aspekdə izah etmək istərdik.

Hələ keçən əsrin əvvəllərində Avropa və Rusiyada baş verən sosial, siyasi, geosiyasi, iqtisadi və ideoloji yeniləşmələr fonunda Şərqdə ilk demokratik cəmiyyət quruculuğuna başlamış Şimali Azərbaycanda sosial təşkilatlanma modeli axtarışları ciddi əhəmiyyət daşıyırdı. Aydın idi ki, ənənəvi həmrəylik və sosial inteqrasiya nümunələri müasir tələblərə uyğun modernləşməli idi. Müxtəlif ideyalar irəli sürüldü. Onların sırasında "milli təsənüd" daha uyğun hesab edildi. Detallara varmadan onu qeyd edək ki, hər bir variantda Azərbaycan cəmiyyəti üçün qalıcı və nəticəverici model həyati əhəmiyyətə malik idi. Onun fəlsəfi tərəflərini dərindən araşdırmaq üçün qəzet məqaləsi formatı bəs etmir. Lakin tarix Azərbaycanı qısa müddət sonra SSRİ adlanan birliyin təsir sahəsinə atmaqla bütün işlər yarımçıq qaldı. Yəni ADR-in başladığı proses kəsildi.

70 il sonra Heydər Əliyev Azərbaycan üçün strateji vacibliyi olan azərbaycançılıq konseptinə qalıcı və müasir şəraitdə toplumun daxili birliyini dinamik təmin edən yeni məzmun verdi. Ayrıca, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi tarixi gün müəyyən edərək, həmrəyliyin bütün xalq miqyasında hər il təkrar-təkrar ictimai şüurun gündəminə gətirilməsi ənənəsinin təməlini qoydu.

Müstəqillik illərinin təcrübəsi göstərir ki, azərbaycançılıq milli həmrəyliyin ən uyğun nümunəsidir. II Qarabağ savaşı isə Vətən müharibəsi nümunəsi olaraq real zaman-məkan kontinnumunda azərbaycançılığın praktiki nəticəverici konsept olduğunu bir daha təsdiqlədi. Müasir Azərbaycan dövlətçiliyi tarixində bu məqamı çox əhəmiyyətli hesab etmək lazımdır.

Həmrəylik azərbaycançılıq konsepti çərçivəsində cəmiyyətin birliyə, bütövlüyə və müasirləşməyə canatmalarının dinamik nümunəsi kimi Vətən savaşının gedişində çox mühüm rol oynadı. Azərbaycanın Vətən olmaqla yanaşı, müstəqil dövlət kimi də mövcudluğu təhtəlşüurda yerini daha da möhkəmlətdi. Savaşın gedişində mülki vətəndaş, əsgər, cəmiyyətin bütün kəsimləri, hakimiyyət Azərbaycan Respublikasını müstəqil dövlət kimi müdafiə etdiklərini qabarıq şəkildə davranışlarında ifadə etdilər. Yəni savaş müddətində həmrəylik sadəcə sivil toplumun sosial, psixoloji, ideoloji və vətənpərvər birliyini əks etdirmədi – burada müstəqil dövlət faktoru ön sıraya çıxarılmışdı. Əslində, sosial həmrəylik müstəqil dövlətçiliyin zəruriliyi aspektindəki fikir və mövqe birliyinin reallaşmasına xidmət etdi.

Müstəqil dövlətçiliyin təmini baxımından Vətən müharibəsinin önəmli fəlsəfi mənalarından biri bundan ibarətdir. Çünki XXI əsrdə Azərbaycanda toplumun sivil həmrəylik canatmasının davamlı olaraq müstəqil dövləti qorumaq nümunəsinə transformasiya olunması tarixi irəliləyişdir. Bu proses digər iki aspekti stimullaşdırdı.

Onlardan biri həmrəyliyin etnik çərçivədən çıxarılaraq Ümumazərbaycan kontekstində məzmunlaşması ilə bağlıdır. Müasir cəmiyyətlərdə sosial-siyasi və mənəvi-mədəni birlik üçün təməl şərtlərdən biri ödəndi. Bu, digər məqamlarla yanaşı, Azərbaycanda yeni səviyyədə Böyük Millət Quruculuğu prosesinə imkanlar yaratdı.

Vətən savaşının nəticəsinin həmrəylik kontekstində verdiyi töhfələrdən digəri Azərbaycan təcrübəsinin formalaşması oldu. Məsələ ondan ibarətdir ki, tarixin real səhnəsində XXI əsrin riskləri və qeyri-müəyyən dinamikası fonunda cəmiyyətdə toplum-dövlət, xalq-iqtidar, lider-cəmiyyət həmrəyliyinin praktiki nəticə verən təcrübəsini toplamaq bir zərurətdir.

Bunlar yekun olaraq Vətən müharibəsinin Azərbaycanda həmrəyliyi real zamanda "Vətəndaş həmrəyliyi" müstəvisinə transformasiya etməsinə imkan verdi. Vətəndaş həmrəyliyinin Azərbaycan təcrübəsinin təməlində bu baxımdan Vətən savaşının dayandığını deyə bilərik. Onun iki özəl fəlsəfi xüsusiyyəti üzərində düşünmək olar.

Birincisi, vətəndaş həmrəyliyi mənəvi, siyasi, sosial və mədəni-ideoloji aspektlərdə insanların "Vahid Vətən" anlayışını dərinləşdirdi.

İkincisi, vətəndaş həmrəyliyi azərbaycanlıların şüurunda Vahid müstəqil dövlət anlayışına yeni inteqrativ anlam yaratdı.

Bununla Vahid vətən və Vahid müstəqil dövlət anlayışları azərbaycançılıq çərçivəsində həmrəyliyin rəmzinə çevrildi! Buradan isə milli birliyin strateji əhəmiyyəti olan nümunəsinə keçidinin ümumi mənzərəsi əmələ gəlir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# BRICS-ə üzvlük Azərbaycana yeni imkanlar yaradacaq

**Bu yaxınlarda Azərbaycan hökuməti BRICS-ə üzv olmaq üçün müraciət edib. Qurum dünya iqtisadiyyatında yüksələn güclərin birliyini təmsil edir və qlobal güc balansında mühüm rol oynayır. Əsas məqsədi üzv dövlətlər arasında diplomatik, təhlükəsizlik və iqtisadi əməkdaşlığı inkişaf etdirməkdir. Azərbaycanın BRICS-ə üzv olmaq niyyəti də ölkənin gələcək inkişaf perspektivlərinə hesablanıb.**



Ekspertlər bildirirlər ki, Azərbaycanın BRICS-ə qoşulması ölkə iqtisadiyyatına əhəmiyyətli üstünlüklər gətirə bilər. Təşkilata üzvlüyün əsas aspektlərindən biri Azərbaycan malları üçün satış bazarlarının genişləndirilməsi imkanıdır. Rusiya, Çin, Hindistan və Braziliya kimi böyük iqtisadiyyatları olan BRICS ölkələri enerji, kənd təsərrüfatı və emal sahələrində Azərbaycanın ixracına kömək edə bilər.

Hazırda Azərbaycan BRICS-i yaradan ilk 5 ölkədən 3-ü –Rusiya, Çin və Hindistanla fəal ticarət aparır. 2024-cü ilin yanvar-iyul ayları ərzində BRICS ölkələri ilə ticarət dövriyyəsi 5 milyard 837 milyon 895 min ABŞ dolları olub. Bu, ümumi ticarət dövriyyəsinin 21,7 faizini təşkil edir. Rusiya və Çin isə ən çox ticarət etdiyimiz 3-cü və 4-cü ölkələrdir.

Bu dövlətlər ölkəmizin istehsalçıları üçün qabaqcıl bazarlardan biridir. Məsələn, 2024-cü ilin yanvar-iyul ayları ərzində Azərbaycanla Rusiya arasında ticarət dövriyyəsi 2 milyard 572 milyon ABŞ dolları təşkil edib. Bu göstəricinin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 5,2 faiz və ya 127,5 milyon ABŞ dolları artıb. Azərbaycanın qeyri-neft məhsulları ixrac etdiyi ölkələr arasında Rusiya birinci yerdə qərarlaşıb. Belə ki, cari ilin yanvar-iyul ayları ərzində Azərbaycandan Rusiyaya 641 milyon 87 min ABŞ dolları dəyərində qeyri-neft məhsulları ixrac edilib. İxracda əsasən meyvə-tərəvəz (pomidor, kartof, alma, meşə fındığı, albalı, çiyələk, xurma və sair), meyvə şirələri, ilkin formalı propilen sopolimerləri üstünlük təşkil edib. Ölkəmiz BRICS-ə üzv olmaqla bu böyük bazardan daha səmərəli istifadə edərək ixracı bir neçə dəfə artıra bilər.

İki ölkəni həm də nəqliyyat infrastrukturu birləşdirir. Rusiyanı Azərbaycan vasitəsilə İranla birləşdirən Şimal–Cənub nəqliyyat dəhlizi yüklərin Fars körfəzinə və əksinə səmərəli daşınmasına imkan verir. Dəhliz Rusiyanı İran və Mərkəzi Asiyadan keçməklə Fars körfəzi ilə birləşdirərək region ölkələrinə, o cümlədən Azərbaycana Hind okeanı, Cənub–Şərqi Asiya və Afrika bazarlarına çıxış imkanı verəcək.

Çinin isə dünya və ölkəmiz üçün strateji önəmi hər il artır. Azərbaycan iqtisadi və siyasi dəstək baxımından Pekin ilə əməkdaşlığa maraqlıdır. Artıq Çin Azərbaycanın əsas ticarət tərəfdaşlarından birinə çevrilib və 4-cü ən böyük xarici ticarət tərəfdaşıdır.

Bu ilin əvvəlinə Azərbaycan ilə Çin arasında ticarət dövriyyəsinin həcmi 43,5 faiz artaraq 3,1 milyard dollara çatıb. BRICS-ə üzv olmaqla hər iki ölkə ikitərəfli ticarətin həcmini daha da artırmağa, əmtəələrin strukturunu optimallaşdırmağa və malların bazarlara çıxışını asanlaşdırmağa hazırdırlar. Güclü iqtisadi tamamlayıcılıq, sənayeləşmə və investisiya sahəsində əməkdaşlığı artırmaq üçün böyük potensiala malikdirlər. Enerji, o cümlədən neft və qaz hasilatı və emalı, "yaşıl" enerji və nəqliyyat infrastrukturu, informasiya və telekommunikasiya, rəqəmsal iqtisadiyyat, əlvan metallar, tikinti materialları və s. kimi prioritet sahələrdə əməkdaşlığı genişləndirmək niyyətindədirlər.

Azərbaycan Çinə, həm də qeyri-neft məhsullarının perspektivli ixrac bazarı kimi baxır. Azərbaycan məhsullarının bu ölkəyə ixracını təşviq etmək məqsədilə 2018-ci ildən etibarən Pekin, Sian, Çindao, Canciaşe, Şanxay və Urumçi şəhərlərində bir neçə "Azərbaycan Ticarət Evi" və "Azərbaycan Şərab Evi" açılıb. Çinin daha bir neçə ticarət evinin açılması nəzərdə tutulur.

Bundan başqa, BRICS üçün əhəmiyyət daşıyan və Azərbaycan ərazisindən keçən Şərq–Qərb (Orta Dəhliz) nəqliyyat dəhlizi Çini Avropa ilə birləşdirən ən qısa nəqliyyat marşrutudur və bir sıra üstünlüklərə malikdir. Əvvəllər Çindən birbaşa Avropa ölkələrinə əsas yükdaşıma Rusiya ərazisindən keçməklə Trans–Sibir tranzit xətti ilə həyata keçirilirdi. Trans–Sibir dəmir yolu ilə müqayisədə Orta dəhliz 2 min kilometr daha qısadır və əlverişli coğrafi iqlimə malik ərazilərdən keçir. Bu da nəqliyyat dəhlizinin əsas üstünlüklərindən biridir və ixracatçıların ona marağını artırır. Bu, BRICS üçün böyük önəm daşıyır. Dəhliz Çini Qazaxıstan və Azərbaycan vasitəsilə Avropa ilə birləşdirərək yükdaşımalar üçün alternativ marşrutlar təmin edir. Azərbaycanın BRICS-ə daxil olması isə mühüm nəqliyyat marşrutlarına çıxışı təmin edəcək. Ən önəmlisi isə Azərbaycan yuxarıda qeyd olunan hər iki marşrut xəttinin kəsişmə nöqtəsində yerləşməsidir.

Göründüyü kimi, coğrafi olaraq Çin və Hindistanın marağında olduğu Orta Dəhliz, Şimal–Cənub dəhlizlərinin mərkəzində yer alan ölkə məhz Azərbaycandır. Çin və Hindistanın isə bu dəhlizlərdə mühüm maraqları var. BRICS dünya üzrə istehsalın böyük həcminə malik olduğundan Azərbaycanın bu təşkilata üzvlüyü ona böyük ixrac imkanları qazandırmağa, Avropa və Asiya arasında əsas nəqliyyat marşrutlarına təsirini genişləndirməyə, mövcud infrastrukturdan daha səmərəli istifadəyə imkan verəcək. Həm də Azərbaycana əlavə investisiyaların cəlb edilməsinə şərait yaradacaq. Ölkəmiz Asiya ilə Avropa arasında nəqliyyat əlaqələrinin təmin edilməsində mühüm rol oynayacaq. Bütün bunlar Azərbaycanın qlobal bazarlarda mövqelərini möhkəmləndirməyə və mallarının rəqabət qabiliyyətini artırmağa, iqtisadiyyatın şaxələndirilməsinə imkan verəcək.

BRICS platforması, həm də iri neft və qaz istehsalçıları bir araya gətirməyə imkan verir. Bu, Azərbaycan üçün böyük perspektivlər açır. Çünki ölkəmiz Xəzər dənizi regionunda əsas neft və qaz ixracatçılarından biridir. Azərbaycan əhəmiyyətli karbohidrogen ehtiyatlarına malikdir və artıq yanacaq Cənub Qaz Dəhlizi və Bakı–Tbilisi–Ceyhan kimi layihələr vasitəsilə Avropaya çatdırılır. Azərbaycanın BRICS-ə daxil olması Rusiya və İrana qarşı sanksiyalar şəraitində enerji resurslarının sabit tədarükünü təmin edəcək.

Bundan başqa, sözügedən qurumu Azərbaycan üçün maraqlı edən digər səbəblər də var. Onlardan biri Bakının çoxvektorlu xarici siyasətidir. Bu kontekstdə qeyd edə bilərik ki, çoxşaxəli, tarazlaşdırılmış xarici siyasət kursuna malik olan Azərbaycan Cənubi Qafqaz regionunun lider dövləti olmaqla yanaşı, müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır. BRICS-in üzvü olmaqla ölkəmizin bu əlaqələri daha da genişlənəcək. Çünki BRICS üzvləri BMT Təhlükəsizlik Şurası, G20 və Şanxay Əməkdaşlıq Təşkilatı kimi böyük təşkilatların üzvləridir. Ərazi bütövlüyü, suverenliyin toxunulmazlığı kimi məsələlər BRICS sənədlərində xüsusi vurğulanır. Bildirilir ki, siyasi və təhlükəsizlik, maliyyə və iqtisadiyyat, eləcə də mədəni və xalqlar arasında münasibətlər BRICS çərçivəsində əsas istiqamətlərdir.

Burada BRICS-in daha bir üstünlüyü ortaya çıxır. Bu qurum üzv ölkələrə digər birliklərə üzvlüklə bağlı məhdudiyyətlər qoymur. Yəni üzv ölkələr digər iqtisadi və güc mərkəzləri ilə milli maraqlara uyğun əməkdaşlıq edə bilər. Bu səbəbdən də BRICS-ə üzvlük Azərbaycanın xarici siyasətindəki çoxtərəfli əməkdaşlıq prinsiplərinə cavab verir, iqtisadi siyasətimizin hədəflərinə uyğun gəlir. Həm Qərblə, həm də Şərqlə yaxşı tərəfdaşlıq əlaqələri quran Azərbaycan öz milli maraqlarını hər iki qütbdə təmin edəcək.

Beləliklə, BRICS-ə qoşulmaq Azərbaycana böyük siyasi və ya iqtisadi güzəştlərə getmədən beynəlxalq arenada mövqelərini möhkəmləndirmək imkanı verəcək. Bu, həm də Bakıya Avropa İttifaqı və ABŞ ilə əlaqələri saxlamaqla Rusiya, Çin və İranla münasibətlərini gücləndirməyə şərait yaradacaq. Bakı qlobal dəyişikliklər və çağırışlar qarşısında BRICS ölkələri ilə iqtisadi əlaqələrini gücləndirmək, davamlı inkişafını və təhlükəsizliyini təmin etməklə yeni imkanlara çıxış əldə edəcək.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

“Əsrin müqaviləsi” – 30

# Xəzərdə yataqların tammiqyaslı işlənməsinin ikinci mərhələsi

## *“Faza-2” layihəsi çərçivəsində indiyədək 219 milyon ton neft çıxarılıb*



**Xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış yeni neft strategiyasının əsasını qoymuş “Əsrin müqaviləsi” Azərbaycanı dünyanın etibarlı enerji tərəfdaşına çevirib. Bu nəhəng neft sazişinin həyata keçirildiyi ötən 30 il ərzində Azərbaycanda və xaricdə dünya səviyyəli tikinti-quraşdırma layihələri həyata keçirilib, ölkəmizin neft sənayesinin infrastruktur imkanları xeyli genişləndirilib.**

“Əsrin müqaviləsi” Xəzər dənizinin Azərbaycan sektorunda geniş sahəni əhatə etdiyindən bu nəhəng neft sazişi bir neçə mərhələdə reallaşdırılıb. Belə ki, “İlkin neft layihəsi” çərçivəsində görülmüş işlər nəticəsində müstəqilliyini yenicə əldə etmiş Azərbaycanı dünyanın neft ixrac edən dövlətlərinin sırasına qoşulsa da, qarşıdakı illərdə nəzərdə tutulmuş iri neft hasilatı və ixracı layihələri ölkədə nəhəng tikinti-quraşdırma işlərinə yol açıb. Beləliklə, 2001-ci il avqustun 30-da “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun tammiqyaslı işlənmə layihəsinin birinci mərhələsi (“Faza-1”) ilə bağlı qərar qəbul edildikdən sonra “Əsrin müqaviləsi”nin reallaşdırılmasında mühüm dövr başlanıb.

2005-ci ilin fevralında “Mərkəzi Azəri” platformasının istismara verilməsi ilə ölkəmizdə böyük neft hasilatının əsası qoyulub. Təkcə onu qeyd etmək kifayətdir ki, “Azəri” yatağının mərkəzi hissəsinin istismara daxil edilməsi il ərzində əlavə 18–19 milyon ton neft hasilatına imkan yaradıb və bununla da, “Əsrin müqaviləsi” çərçivəsində illik neft hasilatının səviyyəsi 24–25 milyon tona çatdırılıb.

“Azəri” yatağının qərb və şərq hissələrinin işlənməyə cəlb edilməsi isə “Əsrin müqaviləsi”nin tammiqyaslı işlənmə layihəsinin ikinci mərhələsi (“Faza-2”) çərçivəsində həyata keçirilib. Bu məqsədlə 2002-ci il sentyabrın 18-də “Faza-2” layihəsi üzrə tikinti-quraşdırma işlərinə başlamağa dair qərar qəbul olunub. Layihə çərçivəsində nəzərdə tutulmuş tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi üçün 2002-ci il oktyabrın 8-də Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti ilə podratçı təşkilatlar arasında 8 əsas müqavilə imzalanıb.

Yeri gəlmişkən, 5,2 milyard dollar dəyərində qiymətləndirilən “Faza-2” layihəsi “Əsrin müqaviləsi”nin icrası çərçivəsində “İlkin neft layihəsi”ndən sonra AÇG yataqlarının tammiqyaslı işlənilməsinin növbəti mühüm mərhələsidir. Bu mərhələ çərçivəsində “Azəri” yatağının qərb və şərq hissələrinin işlənilməsi təmin edilib. Bununla da, “Faza-1” layihəsi ilə birlikdə “Azəri” yatağının istismara daxil edilməsi tamamlanıb.

“Ümumilikdə, “Faza-2” layihəsinə 48 quyunun qazılması üçün nəzərdə tutulmuş 2 hasilat, qazma və yaşayış platforması, “Mərkəzi Azəri”yədək 22 düymlük, həmçinin Səngəçal terminalına qədər 30 düymlük boru kəmərləri daxildir. “Faza-2” qurğuları “Azəri” yatağı üçün dənizdə və quruda inkişaf kompleksi yaratmaq məqsədilə “Faza-1” obyektləri ilə birləşdirilib. Xatırladaq ki, bu mərhələ üçün nəzərdə tutulmuş əsas tikinti-quraşdırma işlərinə dəniz obyektlərinin inşası, istismar quyularının qazılması, sualtı boru kəmərlərinin çəkilməsi və Səngəçal terminalındakı mövcud neft qəbuletmə obyektlərinin genişləndirilməsi daxil idi.

Bundan əlavə, “Azəri” yatağının qərb və şərq hissələrinin istismara daxil edilməsi üçün nəzərdə tutulmuş tikinti-quraşdırma işləri ilə paralel olaraq burada əvvəlcədən planlaşdırılmış öncəqazma proqramı da uğurla reallaşdırılıb. Müqavilə müddətində isə “Faza-2” layihəsi çərçivəsində 210 milyon ton (1,6 milyard barel) neft hasilatı nəzərdə tutulur.

Nəhayət, uğurlu tikinti-quraşdırma işlərindən sonra 2005-ci ilin dekabr ayında “Azəri” yatağının qərb hissəsi istismara daxil edilib. Burada quraşdırılmış “Qərbi Azəri” platforması Bakıdan 100 kilometr aralı, Xəzər dənizinin 120 metr dərinliyində yerləşir. Bu hasilat, qazma və yaşayış platforması “Azəri” yatağının qərb hissəsindən neft istehsal etmək üçün layihələndirilib. 48 quyu ağzına malik platformadan Səngəçal terminalınadək 30 düymlük neft boru kəməri çəkilib. Ötən müddətdə burada çoxsaylı neft və texniki təchizat quyuları qazılaraq istismara daxil edilib.

Platformada illik olaraq ən çox neft hasilatı 2010-cu ildə qeydə alınıb (gündəlik orta hasilat 248,2 min barel və ya illik 12,24 milyon ton). 2024-cü ilin birinci yarısının yekunlarına görə, platformada gündəlik hasilat orta hesabla 77 min barel təşkil edib. Hasilat başlayandan indiyədək isə “Qərbi Azəri” platformasında 1 milyard barel və ya 137 milyon ton neft hasil edilib.

“Faza-2” layihəsinin digər nəhəng qurğusu sayılan “Şərqi Azəri” platforması 2006-cı ilin noyabr ayında istismara verilib. Xatırladaq ki, Bakıdan 100 kilometr aralı, Xəzər dənizinin təxminən 152 metr dərinliyində yerləşən bu hasilat, qazma və yaşayış platforması 48 quyunun qazılması üçün layihələndirilib. Burada illik maksimal neft hasilatı 2010-cu ildə qeydə alınıb (gündəlik orta hasilat 140,7 min barel və ya illik 7 milyon ton). Cari ilin ilk yarısında isə platformada gündəlik hasilat orta hesabla 52 min barel təşkil edib.

Ötən 18 ildə “Şərqi Azəri” platformasında, ümumilikdə, 608 milyon barel (82 milyon ton) neft çıxarılıb. Bütövlükdə isə “Azəri” yatağının qərb və şərq hissələrinin istismara daxil edilməsi “Əsrin müqaviləsi” çərçivəsində illik neft hasilatının səviyyəsini 40 milyon tonadək artırmağa imkan yaradıb.

Göründüyü kimi, “Əsrin müqaviləsi” çərçivəsində 1997-ci ildə “Çıraq” yatağından ilk neftin hasil olması ilə başlayan Azərbaycanın yeni neft erası sonralar “Azəri” yatağının mərkəzi, qərb və şərq hissələrinin istismara daxil edilməsi ilə sürətli inkişaf mərhələsinə qədəm qoyub.

# Qarabağa kredit ayrılması 13 faiz çoxalıb



**Azərbaycan Mərkəzi Bankının məlumatına əsasən, cari il iyulun 1-dək Qarabağ iqtisadi rayonunda verilmiş kreditlərin həcmi 456 milyon 441 min manata çatıb. İlin əvvəlində isə bu məbləğ 404 milyon 983 min manat olub. Beləliklə, ilin əvvəlindən iqtisadi rayon üzrə kredit portfeli 51 milyon 459 min manat və ya 13 faiz çoxalıb. Qarabağda kreditlərin böyük hissəsi manatda verilib və həcm 455 milyon 627 min manat, orta faiz dərəcəsi isə 18,87 faiz olub.**

# Şirvanda pambıq yağı istehsalı artır



**Azərbaycanın ən böyük pambıq yağı istehsalçısı olan Şirvan yağ emalı zavodu pambıq yağı istehsalını artırır. Bu barədə “MKT İK” MMC-nin satış departamentinin rəhbəri Mələk Məmmədova məlumat verib. Onun sözlərinə görə, son mövsümdə (2023-cü ilin oktyabr-2024-cü ilin mart ayları) müəssisədə 3 min 751 ton pambıq yağı istehsal edilib. Əvvəlki mövsümdə isə bu rəqəm 3 min 300 ton təşkil edib.**

Bildirilib ki, yeni mövsümdə isə (2024-cü ilin oktyabr-2025-cü ilin mart ayları) təxminən 4 min ton yağ istehsalı proqnozlaşdırılır. Bu həcmin 2 min tonunun rafinə edilmiş (təmizlənmiş), yerdə qalanının isə rafinə edilməmiş formada istehsal edilməsi nəzərdə tutulur. Məhsulun hazırlanması üçün tam olaraq yerli xammaldan istifadə edilir.

Şirvan yağ emalı zavodunun istehsal etdiyi məhsullar ilk dəfə olaraq Malayziya və Gürcüstana ixrac edilib. Bu il Malayziyaya 534 ton, Gürcüstana isə 20 ton pambıq yağı göndərilib. Zavod pambıq yağını bu iki ölkə ilə yanaşı, Türkiyə və Tacikistana da satıb. Tacikistan MMC-nin ənənəvi ixrac bazarı sayılır.

Qeyd edək ki, zavod bu il istehsal etdiyi pambıq yağının 45 tonunu daxili bazarda satıb, 3 min 542 tonunu isə ixrac edib. Hazırda müəssisənin anbarında 164 ton pambıq yağı var.

# Azərbaycan Şimal–Cənub Dəhlizinin mərkəzi ölkəsidir

## *Ölkəmiz bu yolda beynəlxalq daşımalardan 2,5-3 milyard dollar qazanacaq*

**Enerji və ticarət yollarının kəsişməsində yerləşən, güclü infrastrukturu ilə nəqliyyat habına çevrilən Azərbaycan bu gün Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolunun, Şimal–Cənub, Şərq–Qərb Beynəlxalq nəqliyyat dəhlizlərinin təşəbbüskarı və icraçısı kimi tanınır.**



Ölkəmiz Şərqlə Qərb arasında körpü rolu oynamaqla yanaşı, həm də Şimalla Cənubu birləşdirən mühüm tranzit mərkəzdir. Bütün bunlar ölkəmizin strateji mövqeyini şərtləndirir. Azərbaycanın son illər ərzində nəqliyyat-logistika sahəsində əldə etdiyi uğurlar, tranzit imkanlarının genişlənməsi istiqamətində atılan addımlar da bunu təsdiq edir.

Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin formalaşmasından bəhs edərkən, ilk növbədə, qeyd edək ki, bu infrastruktur Asiya ilə Avropanı nəqliyyat baxımından birləşdirəcək, Azərbaycan və Rusiyanın tranzit yükdaşıma imkanlarını artıracaq. Cənub Şərqi Asiya ölkələrindən daşınan yüklər Hindistanın Mumbai limanına, buradan isə İranın Çabahar və Bəndər-Abbas limanlarına daxil olacaq. Bu limanlardan isə yüklər qatarla Qəzvin-Rəşt-Astara (İran) – Astara (Azərbaycan) dəmir yolu ilə ölkəmizin ərazisindən keçərək Rusiya və Avropaya daşınacaq.

Rusiya, İran və Hindistan arasında imzalanmış hökumətlərarası saziş əsasında təməli qoyulan Şimal–Cənub dəhlizinin yaradılmasında məqsəd Hindistandan Rusiyaya, eləcə də Şimali və Qərbi Avropaya gedən yüklərin çatdırılma müddətini azaltmaqdır. Hazırda mövcud marşrutla Hindistandan Rusiyaya yüklərin çatdırılması üçün 6 həftədən artıq vaxt tələb olunursa, Şimal–Cənub Nəqliyyat Dəhlizinin tam fəaliyyətə başlaması ilə bu müddətin iki dəfə azalacağı gözlənilir.

Ekspertlər bildirirlər ki, Şimal–Cənub Nəqliyyat Dəhlizinin gəliri neft satışından əldə olunan gəlirə bərabər olacaq. Dəhlizin illik gəliri 20 milyard ABŞ dollarına çatacaq. İnfrastrukturun tam gücü ilə fəaliyyətə başlaması gələcəkdə Azərbaycanın da tranzit gəlirlərinin əhəmiyyətli dərəcədə artmasını şərtləndirəcək. Bir sözlə, respublikamız tranzit yüklərin daşınmasından ildə 2,5–3 milyard ABŞ dolları qazanacaq.

Hesablamalara görə, Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin yükdaşıma potensialı 2030-cu ilə qədər 14,6 milyon tondan 24,7 milyon tona qədər artacaq. Bu isə Azərbaycanın bölgənin ən əsas tranzit və logistik mərkəzinə çevrilməsinə böyük təkan verəcək.

Yeri gəlmişkən, Prezident İlham Əliyevin iqtisadi şaxələndirmə siyasətində əlverişli coğrafi mövqeyi olan ölkəmizin tranzit potensialının reallaşdırılması mühüm önəm daşıyır. Bununla bərabər, beynəlxalq və regional nəqliyyat dəhlizlərinin inkişafı da iqtisadiyyatımızın səmərəliliyinin artırılmasına müsbət təsir göstərir. Eyni zamanda, nəqliyyat, infrastruktur və logistika sahələrində birgə layihələr dövlətimizin iqtisadi imkanlarını genişləndirir, əhəmiyyətini artırır.

Bu istiqamətdə reallaşdırılan layihələrin nəticəsidir ki, son 10 ildə nəqliyyat sektorunda orta illik artım tempi 3,5 faiz təşkil edib, yeni infrastruktur qurulub, özəl investisiyalar artıb. Respublikamız regional əhəmiyyətli nəqliyyat-logistika və ticarət qovşağına çevrilib, eləcə də digər əsas ticarət marşrutlarından bəhrələnməyin əsası qoyulub.

Onu da qeyd edək ki, nəqliyyat sektorunun bütün sahələrində xidmət infrastrukturları modernləşdirilib, yol təsərrüfatının yenidən qurulması ilə bağlı layihələr həyata keçirilib, çoxsaylı yol ötürücüləri, körpülər, tunellər, yeraltı və yerüstü piyada keçidləri inşa olunub. Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin reallaşdırılması istiqamətində nəhəng infrastruktur layihələri gerçəkləşdirilib.

Rusiya Prezidenti Vladimir Putinin avqustun 19-da Azərbaycana dövlət səfəri çərçivəsində bir sıra mühüm məsələlərlə yanaşı, Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı məsələsi də müzakirə edilib. Azərbaycan və Rusiya prezidentlərinin mətbuata bəyanatlarla çıxışlarında bu layihənin önəmi xüsusi vurğulanıb. Dövlətimizin başçısı İlham Əliyev adıçəkilən nəqliyyat dəhlizi haqqında danışarkən, onu Bakı və Moskvanın dövlətlərarası münasibətlərində müstəsna əhəmiyyətə malik infrastruktur kimi qiymətləndirib: “Azərbaycanın ərazisində Şimal–Cənub nəqliyyat dəhlizinin həm dəmir yolu, həm də avtomobil yolu seqmentləri tam şəkildə reallaşdırılıb və uğurla fəaliyyət göstərir. Hazırkı məqamda bu dəhlizin ötürücülük qabiliyyətini yüksəltmək üçün onun dəmir yolu sahəsinin modernləşdirilməsi ilə məşğuluq. Biz ildə 15 milyon ton və daha çox yüklərin daşınması imkanlarından danışırıq”.

Rusiyanın Dünya İqtisadiyyatı və Beynəlxalq Münasibətlər İnstitutunun Mərkəzi Asiya sektorunun rəhbəri, tarix elmləri namizədi Stanislav Pritçin mediaya müsahibəsində bildirib ki, belə bir beynəlxalq nəqliyyat dəhlizi layihəsinin həyata keçirilməsi həm Cənubi Qafqaz regionunun, həm də Rusiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin inkişafında mühüm rol oynayır. Bu marşrut sayəsində ölkələr arasında ticarət dövriyyəsi iki dəfə artıb, daşımaların qiyməti isə dəniz nəqliyyatı ilə müqayisədə xeyli aşağı düşüb: “Şimal–Cənub nəqliyyat dəhlizi bizim əsas magistral layihəmizdir. Üstəlik, burada ən diqqətçəkən məqam odur ki, Rusiya və Azərbaycan öz növbəsində bütün razılaşmaları yerinə yetirib və infrastrukturu genişləndirməyə hazırdırlar. Bundan əlavə, bu, Rusiyanın ticarət əlaqələri üçün bağlanan qərb istiqamətinə alternativ olacaq yeni marşrut açmaq imkanıdır. Azərbaycan üçün isə təbii ki, bu, tranzit potensialını artırmaq və ondan istifadə etmək imkanıdır”.

Əsası 2000-ci ildə keçirilən Sankt-Peterburq İqtisadi Forumunda Rusiya, Hindistan və İran tərəfindən qoyulan bu dəhliz Rusiya və Şimali Avropanı Cənub-Şərqi Asiya və Körfəz ölkələri ilə nəqliyyat baxımından birləşdirən beynəlxalq əhəmiyyətli layihədir. Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan 2005-ci ildə bu layihəyə qoşularaq tranzit ölkə funksiyasını yerinə yetirmək istiqamətində mühüm addımlar atıb. Bakı–Tbilisi–Qars dəmir yolunun çəkilişindən tutmuş Ələt-Astara magistral avtomobil yolunun və Bakı Beynəlxalq Dəniz Limanının modernləşməsinə kimi reallaşdırılan layihələr yüklərin Azərbaycan ərazisindən tranzit olaraq daşınması üçün əlverişli imkanlar yaradıb.

Ekspertlərin fikrincə, Cənub-Şərqi Asiya ölkələrindən Avropaya yük daşıyan gəmi Süveyş kanalından keçməklə 16 min kilometr yol qət edirsə, Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi ilə cəmi 7200 kilometr yol gedir. Yüklər 60 gün ərzində deyil, 30 gün ərzində mənzilbaşına çatdırılır. Bununla yanaşı, nəqliyyat xərcləri də 40 faiz azalır.

Rusiyanın “Росконгрес” Fondunun analitiklərinin hesablamalarına əsasən, 2022-ci və 2023-cü illər ərzində dəhlizlə yükdaşımalar 18 faiz artaraq 19 milyon tondan 22,6 milyon tona çatıb. Yükdaşımaların həcminin 2030-cu ildə 30 milyon tona, 2035-ci ildə isə 35 milyon tona çatacağı gözlənilir.

“Azərbaycan Dəmir Yolları” QSC-nin məlumatına görə, cari ilin yanvar-iyul aylarında Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi ilə tranzit yük daşımalarının həcmi 434 min 651 ton olub. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 25 faiz çoxdur. Tranzit yüklər dəhlizin Azərbaycandan keçən Astara–Yalama və Yalama–Astara istiqamətləri üzrə daşınıb.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*




# “Yaşıl dünya” naminə həmrəylik



# Qlobal iqlim savaşı: Berlindən Bakıya uzanan ekoloji cəbhə

**İqlim dəyişmələri ilə qlobal mübarizə 1992-ci ildə İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının qəbul edilməsindən sonra başlayıb. Rio-de-Janeyro şəhərində imzalanan 3 əsas konvensiyadan biri məhz İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası olub. Sonradan bu konvensiya əsasında Kioto Protokolu qəbul edilib, 2015-ci ildə isə Paris Sazişi təsdiqlənib. Həmin sənədlərdə əsas hədəf və öhdəliklər müəyyənləşdirilib.**

Bu məqamda onu da bildirim ki, hələ bundan əvvəl, 1988-ci ildə BMT-nin Ətraf Mühit Proqramı və BMT-nin Ümumdünya Meteorologiya Təşkilatı İqlim Dəyişmələri üzrə Hökumətlərarası Panel adlı elmi əsaslı bir qurum yaratmışdı. Paris Sazişində vurğulanan sənayedən əvvəlki dövrdə (1850–1900-cü illər) istixana qazları emissiyalarının azaldılması, başqa sözlə, temperatur artımının 1,5-2 dərəcə həddində saxlanılması məhz İqlim Dəyişmələri üzrə Hökumətlərarası Panelin elmi qiymətləndirmələri əsasında müəyyən olunmuşdu.

Qeyd edim ki, Paris Sazişi ölkələrin qarşısında hər zaman istixana effekti qazlarının azaldılması ilə bağlı hədəfləri və bu istiqamətdə həyata keçiriləcək layihələri yeniləməyi mühüm vəzifə kimi qoyub. Bununla da 5 ildən bir nəzərdə tutulan məqsədlər zamanın tələbinə əsaslanılaraq yenilənib.

İqlim Dəyişmələri üzrə Hökumətlərarası Panelin sonuncu hesabatında 2050-ci ilə qədər 1,5 dərəcənin saxlanılması üçün xalis sıfır emissiya hədəfinə nail olunması müəyyənləşdirilib. Xalis sıfır emissiya hədəfi atılan istixana qazı emissiyalarının müxtəlif vasitələrlə (yaşıllıqlar və meşələr) udulması, tutulması və saxlanmasını əhatə edib. Beləliklə, atmosferə əlavə istixana qazları buraxılmadığından temperaturun artması, yəni istixana effektinin güclənməsinin qarşısının alınması şərtləndirilib. Şübhəsiz ki, yalnız bu yolla, sırf elmi əsasla 1,5 dərəcə hədəfinə çatmağın mümkünlüyü qəbul edilib.

Yeri gəlmişkən, elmə məlumdur ki, sulfidli qazlar turş yağışlar əmələ gətirir. Avropada və Şimali Amerikada geniş yayılan bu yağışlar meşələri, şirin su hövzələrindəki canlı aləmi məhv edir, kənd təsərrüfatı məhsullarının keyfiyyətini və məhsuldarlığını aşağı salır. Havaya zərərli maddələrin daxil olmasının qarşısını almaq bu gün istehsal texnologiyasının daha da təkmilləşdirilməsini və müasir avadanlıqlardan düzgün istifadə olunmasını ön plana çəkir. Qeyd edək ki, yaşıllıqlar da atmosferin tənzimlənməsində mühüm rol oynayır. Təkcə bunu demək kifayətdir ki, bir hektar meşə sahəsi bir ildə 18 min kubmetr havanı zəhərli maddələrdən təmizləyir və 10–20 tona yaxın karbon qazı udur.



Xatırladım ki, Azərbaycan 2030-cu ilə qədər 1990-cı illə müqayisədə istilik effekti yaradan qazların emissiyasının 35 faiz azaldılması öhdəliyini götürüb. 2050-ci ilə qədər isə bu göstəricinin 40 faiz azaldılması qarşıya hədəf qoyulub.

2025-ci ildə bütün ölkələr həmin öhdəlikləri yeniləməlidirlər və İqlim Dəyişmələri üzrə Hökumətlərarası Panelin əldə etdiyi uğurlar da bu zaman nəzərə alınmalıdır. Burada fərqli ölkələrin müxtəlif məsuliyyətləri var və bu, Paris Sazişində də öz əksini tapıb. Yəni inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələrin məsuliyyətləri fərqlidir. Paris Sazişində öhdəliklər və fərqlər məhz inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr olaraq fərqləndirilir. Emissiya həcminə görə isə fərqləndirmə yoxdur. Çünki bu gün İqlim Dəyişmələri üzrə Hökumətlərarası Panelin hesabatlarına görə, sənayedən əvvəlki dövrlə müqayisədə artıq temperaturun 1,1-1,2 dərəcəyə qədər artımı baş verib. Bu isə o deməkdir ki, inkişaf yolu keçmiş və hazırda inkişaf etməkdə olan ölkələrin istilik effekti yaradan qazların emissiyasının artmasında məsuliyyəti daha çoxdur.

Azərbaycanda keçiriləcək COP29-un əsas mövzularından biri də məhz iqlim maliyyəsi ilə bağlı olacaq, başqa sözlə, maliyyə vəsaitlərinin ötürülməsi ilə bağlı öhdəliklər müəyyənləşdiriləcək. Bu baxımdan inkişaf etmiş ölkələrin illik əsasda müəyyənləşdirilən bir maliyyənin, eyni zamanda, texnologiyanın inkişaf etməkdə olan ölkələrə ötürülməsini gerçəkləşdirmək və beləliklə, 1,5 hədəfinə çatmaq və ya temperatur artımını həmin səviyyədə məhdudlaşdırmaq qarşıya önəmli vəzifə kimi qoyulacaq.

Fikrimcə, 1,5 hədəfinə çatmaq və ya temperatur artımını həmin səviyyədə məhdudlaşdırmaq üçün ən başlıca yol texnologiyanın əldə olunması ilə bağlıdır. Çünki inkişaf etmiş ölkələrdə texnologiyanın inkişafı daha sürətlə baş verir. Lakin inkişaf etməkdə olan ölkələrdə və ya az inkişaf etmiş ölkələrdə texnologiyalara əlçatanlıq nisbətən fərqlidir. Emissiyaların daha az atılması üçün vurğulandığı kimi, texnologiyaların əlçatanlığına nail olmaq zəruridir. Bu baxımdan da inkişaf etmiş ölkələrin öz öhdəlikləri var.

***Faiq MÜTƏLLİMOV,***
***Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ekoloji siyasət şöbəsinin müdiri***

# Qarabağ gözəldir, həm də təmiz olacaq

## *Azad edilmiş ərazilərdə tullantı emalı poliqonları yaradılır*

**Qarabağ və Şərqi Zəngəzurda sürətli bərpa-yenidənqurma işləri aparılır. Regionda infrastruktur yenidən qurulur, sənaye, aqrar və turizm müəssisələri yaradılır. Doğma yurd yerlərinə dönən əhalinin məşğulluğu təmin edilir. Nəticədə, bölgədə məskunlaşan, işləyən və həmin ərazilərə səfər edən şəxslərin sayı da getdikcə çoxalır. Təəssüf ki, bir çox hallarda ölkəmizin bu füsunkar guşələrinə laqeyd münasibət bəslənilir, sanitariya-gigiyena tələblərinə əməl olunmur, zibil, tullantılar urnalardan kənara atılır. Bu da ətraf mühitin çirklənməsi, bir sıra ekoloji problemlərin yaranması ilə nəticələnir. Belə halda isə həmin tullantıların müasir təcrübəyə uyğun idarə olunması və onlardan xammal kimi təkrar istifadə edilməsi zərurəti ilə üzləşilir.**



**Ekoloq, çoğrafiya üzrə fəlsəfə doktoru Firuzə Ağayeva bu barədə dedi:**

– Ölkəmizdə iqtisadi inkişaf ekoloji təmiz texnologiyaların tətbiqi, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpası sahəsində aparılan fəaliyyətlə sıx bağlıdır. Bu məqsədlə azad olunmuş ərazilərdə poliqonlar yaradılır. Həmin poliqonların sahələri də kifayət qədər böyükdür. Məsələn, Ağdam tullantı poliqonu 15 hektar, Şuşa (Xocalı), Laçın və Kəlbəcər poliqonları hər biri 10 hektar, Qubadlı, Cəbrayıl, Tərtər və Füzuli poliqonları isə hər biri 5 hektar ərazidə inşa edilir. Zəngilanda isə 10 hektar ərazidə ötürücü məntəqənin yaradılması nəzərdə tutulur.

**– Məişət tullantıları üçün yaradılan meydançalarda onların çeşidlənməsi aparılacaq, sonra təkrar emala veriləcək. Bu barədə nə deyə bilərsiniz?**

– Doğma yaşayış məntəqələrinə köçən keçmiş məcburi köçkünlərin sayı getdikcə artır. Bu da məişət tullantıları həcminin çoxalmasına öz təsirini göstərir. Vaxtında onun idarəedilməsi isə öz həllini tapmalıdır. Əks halda, məişət tullantıları həcminin davamlı olaraq genişlənməsi ətraf mühitin çirklənməsinin artmasına səbəb olur. Buna görə də yaşayış məntəqələrinin müvafiq yerlərində meydançaların yaradılması nəzərdə tutulur. Həmin sahələrdə toplanan məişət tullantılarının yaş və quru olmaqla çeşidlənəcəyi, kağız məmulatlarının, eləcə də plastik kütlədən olan tullantıların ayrı yığılacağı planlaşdırılır. Burada əsas məqsədlərdən biri də plastik tullantıların çeşidlənməsi və təkrar emala verilməsidir.

Bu prosesdən sonra yararsız məhsullar utilizasiya olunması üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müəyyənləşdirildiyi məişət tullantıları poliqonuna daşınıb yandırılaraq yaşayış evlərinin qızdırılmasında istifarə ediləcək. Bununla da təbiətin çirklənməsinin qarşısı alınacaq. Müəyyən olunmayan yerlərdə bu tullantıların atılması, saxlanılması və basdırılması isə qadağan ediləcək. Atmosfer havasına zərərli təsir göstərən istehsal və məişət tullantılarının xüsusi qurğular olmadan yandırılmasına icazə verilməyəcək.

Onu da qeyd edim ki, təhlükəli istehsalat və məişət tullantılarının, habelə təhlükəli tibbi tullantıların nəqliyyat vasitələrində daşınması qaydası bu sahədə mövcud olan dövlət standartları və normativləri əsasında həyata keçiriləcək.

**– Azad olunmuş ərazilərdə tullantı materiallarının təkrar istehsala qaytarılması fikri varmı?**

– Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında tikinti-söküntü tullantılarının təkrar emalına başlanılıb. Tullantıların təkrar emalı ilk olaraq Ağdam rayonunda (Kəngərli kəndi) həyata keçirilir. Artıq ilk tikiləcək yaşayış məntəqələrində emal avadanlıqları quraşdırılır. Ərazidəki tullantılar, dağıdılmış tikililərin qalıqları təkrar emal olunur. Əldə edilən materiallardan tametaltı özül kimi istifadə edilir. Eyni zamanda, tullantı materiallarının təkrar istehsalata qaytarılaraq yol yataqlarının tikintisində istifadəsi mexanizmi tətbiq olunur. Bu, həm ekoloji, həm də iqtisadi səmərə sayılır.

Bütün Qarabağ və Şərqi Zəngəzurda bu üsuldan istifadə olunmaqla əldə edilən sıfır tullantı yolu ilə ərazilər təmizlənəcək, 10 milyonlarla kub dağıntı tikinti materialına çevriləcək. Azad olunmuş ərazilərdə tullantı sularının səmərəli idarəsi məqsədilə yağış, drenaj sularının toplanması şəbəkəsi qurulacaq. Təmizlənmiş tullantı suları təkrar istifadəyə yönəldiləcək, xüsusilə yaşıllıq ərazilərinin suvarılmasında istifadə ediləcək.

***Hazırladı:***
***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Azərbaycanın qlobal iqlim şəffaflıq platforması



**BMT-nin İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) sədri kimi Azərbaycan “Bakı qlobal iqlim şəffaflıq platforması”nı təqdim edib.**

Bunu Bakıdakı “İqlim şəffaflığı üzrə yüksək səviyyəli dialoq” çərçivəsində Azərbaycanın ekologiya naziri, COP29-un müəyyən olunmuş prezidenti Muxtar Babayev bildirib. Nazir bu gün dünyada fəlakətlərin daha tez-tez və daha şiddətli baş verdiyini, iqlim hadisələrinin bu cür inkişafının ortaq iqlim məqsədlərinə uyğun hərəkət etməyə təcili ehtiyac olduğunu göstərdiyini diqqətə çatdırıb.

Muxtar Babayev daha sonra deyib: “COP29-un və iqlim dəyişikliyinə qarşı fəaliyyətimizin uğurlu olması üçün Paris Sazişinin bütün müddəaları üzrə əlimizdən gələni etməliyik. Şəffaflıq bu səylərin əsas hissəsidir, həssas icmalar arasında qlobal iqlim məqsədləri ətrafında etimad yaradılmalıdır. Ötən il tərəflər bir araya gələrək Birləşmiş Ərəb Əmirlikləri Konsensusuna nail oldular. COP29-a doğru irəlilədikcə 1,5 hədəfinə çatmaq üçün biz işimizi COP28-də yaradılan müsbət ruh və impuls üzərində qurmalıyıq”.

Yeni platformanın dünyada iqlim şəraitinin yaxşılaşdırılması məqsədilə atılan addımlarda şəffaflığın təmin olunması üçün qlobal cəmiyyəti bir araya gətirəcəyini vurğulayan M. Babayev deyib ki, COP29 sədri olaraq vəzifəmiz iqlim dəyişikliyi üzrə danışıqlar prosesində bütün iştirakçıları dəstəkləməkdir: “Son vaxtlar biz ada dövlətlərini, o cümlədən ən iri olanı – Avstraliyanı ziyarət etdik. Kiçik dövlətlərin, xüsusilə Andorra və Qayana kimi ölkələrin maraqlarını da nəzərə alırıq. Platformanın məqsədi iqlim dəyişikliyi ilə bağlı tədbirlər haqqında hesabatların şəffaflığını artırmaqdır”.

Nazir qeyd edib ki, yalnız şəffaflıq məqsədlərinin kollektiv təsdiqlənməsi və ikiillik şəffaflıq hesabatlarının vaxtında təqdim edilməsi ilə irəliləyiş mümkündür. O, Azərbaycanın COP29-da ikiillik şəffaflıq hesabatını təqdim edəcəyini diqqətə çatdıraraq deyib ki, ölkəmiz bu yolla Paris Sazişinin genişləndirilmiş şəffaflıq sistemində ümumi iştirakın artırılmasını qarşısına məqsəd qoyub: “COP29 sədrləri gələcək nəsillər üçün iqlim fəaliyyətlərinin şəffaflığını gücləndirmək məqsədini daşıyırlar. Bu çərçivədə inklüzivliyi təmin etmək üçün tərəfdaşlarla birlikdə müxtəlif coğrafi bölgələrdə illik şəffaflıq hesabatının hazırlığı üzrə seminarlar keçirməyə davam edəcəyik”.

Xatırladaq ki, Azərbaycan 2024-cü il sentyabrın 25-də BMT-nin 79-cu Baş Assambleyasında qlobal iqlim şəffaflığı üzrə yüksək səviyyəli dialoq təşkil edəcək.

# Asiya İnkişaf Bankı Azərbaycanın etibarlı maliyyə tərəfdaşıdır

## *Bu qurum 25 ildə ölkəmizə 1,7 milyard dollar sərmayə qoyub*

**Asiya İnkişaf Bankının enerji üzrə baş direktoru Priyantha Vijayatunqa Azərbaycanın enerji keçidi və onun genişləndirilməsi üçün strateji inkişaf prioritetlərini, o cümlədən ölkədə “yaşıl” dəhlizlərin planlaşdırılmış inkişafı, bərpaolunan enerji infrastrukturu, enerji şəbəkəsinin genişləndirilməsi və dekarbonizasiya məsələlərini müzakirə etmək üçün Azərbaycanda səfərdə olub.**



Maliyyə naziri Samir Şərifov, hökumət rəsmiləri və digər aidiyyəti qurumların rəhbərləri ilə görüşlər keçirən qonaq Azərbaycanın enerji keçidini sürətləndirmək üçün hökumətin prioritetlərini yüksək qiymətləndirib. “Asiya İnkişaf Bankı ilə Azərbaycan arasında tərəfdaşlığın 25 illiyini qeyd etdiyimiz vaxtda bank ölkənin inkişaf məqsədlərinə dəstək olmaq öhdəliyini bir daha vurğulayır”, – deyə o, bildirib.

Son 25 ildə AİB Azərbaycanın enerji sektoruna 1,7 milyard dollar sərmayə qoyub. 2030-cu ilə qədər Azərbaycanda bərpaolunan enerjinin payının 30 faizə çatması, həmçinin, “yaşıl” dəhlizlərin inkişafı, o cümlədən Xəzər dənizinin sualtı kabel layihəsi, elektrik ötürücü və paylayıcı şəbəkələrin gücləndirilməsi və enerjinin genişləndirilməsi kimi əsas strateji prioritetlər Azərbaycan və AİB-in gələcək tərəfdaşlığının əsasını təşkil edəcək.

Baş direktorun hökumət rəsmiləri ilə görüşü zamanı AİB-in birgə maliyyələşdirdiyi Azərbaycanda ilk bərpaolunan “yaşıl” enerji layihəsi olan 230 meqavatlıq “Qaradağ” Günəş Enerjisi Stansiyasının istifadəyə verilməsini, eləcə də gələcəkdə tamamlanacaq 1 qiqavatlıq günəş və külək layihələri müzakirə edilib.

Bank rəhbəri COP29 tədbirinin keçiriləcəyi əsas məkan olan Bakı Olimpiya Stadionunun yaxınlığında, Böyükşor gölündə 100 kilovoltluq üzən günəş fotovoltaik pilot layihəsinin bu yaxınlarda istifadəyə verilməsi münasibətilə Energetika Nazirliyini təbrik edib. Qonaq, həmçinin Asiya və Sakit Okean regionunun iqlim bankı kimi AİB-in noyabrda Bakıda keçiriləcək Birləşmiş Millətlər Təşkilatının iqlim sammiti ərəfəsində potensialın gücləndirilməsi də daxil olmaqla Azərbaycanın COP29-da sədrliyini dəstəklədiyini diqqətə çatdırıb.

Qeyd edək ki, Azərbaycanın 1999-cu ildən əməkdaşlıq etdiyi Asiya İnkişaf Bankı ölkəmizdə dövlət və özəl sektora, o cümlədən nəqliyyat, enerji, səhiyyə və kənd təsərrüfatı sahələrinə 5 milyard dollardan çox vəsait ayırıb.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

Hidayət Orucov – 80

# Sabaha açılan vaxtın mübarək, Hidayət!

**Hər bir insanın bu dünyada bir ömür payı, Tanrının ona ayırdığı zamanı var. Onilliklərə uzanan, bəzən çox erkən bitən ömürlərin dəyəri insanın bu vaxtın sərhədlərində "yetişdirdiyi" əməlləri, qurub-yaratdıqları ilə ölçülür. İnsan övladı, bu cahan mülkündə yalnız arxada qoyduğu yadigarlar qədər qiymətlidir. Bəşər tarixi göstərir ki, o insanlar zamana sığmır ki, onlar bu cahanda ləl-cəvahiratdan daha qiymətli olan ağıl və zəkadan yaratdıqları söz sarayları qoyub gediblər. Azərbaycanın görkəmli şairi, dramaturq, nasir, publisist, ictimai-siyasi və dövlət xadimi Hidayət Orucov məhz belə şəxsiyyətlərdən, ömür payını yüksək əyarla zinətləndirən simalardandır.**

Hidayət müəllimin bu gün 80 yaşı tamam olur, amma onun fəaliyyəti və yaradıcılığı bu vaxtın sərhədlərini çoxdan aşıb və üzü böyük bir gələcəyə doğru yol almaqdadır. Adının önündə sadaladığım, sadəcə, onun titulları deyil, fitrəti, zəkası, istedadı, qeyrəti, əzmi və gərgin əməyi ilə ünvanına əbədi yazdırdığı, adında pasportlaşan dəyərlərdir.

Qədim Oğuz yurdunda, Qərbi Azərbaycanın Meğri rayonunun Maralzəmi kəndində adını dünyaya bəyan etməyə gələn Hidayət cahan mülkünü dərk etməyə başlayan gündən "sıldırım qayaları qəlpə-qəlpə qoparıb", poeziyada, dramaturgiyada, nəsrdə, publisistikada öz sözünə yol açan, zamanın, vaxtın Hidayətin vaxtı olduğunu hayqıran bir sənətkardır.

Ağlın və zəkanın bülöv daşı olan təhsilin qapılarını taybatay açdığı Səməd Vurğun adına Aldərə kənd orta məktəbində sahib olduqlarının ilk dəyərini bu məktəbi qızıl medalla bitirəndə nümayiş etdirir. Hələ orta məktəbdə ədəbi nəhrə baş vuranda dərk etmişdi ki, Azərbaycan bədii ədəbiyyatının xəzinəsində uzun əsrlər boyu kifayət qədər böyük və qiymətli sərvətlər toplanıb. Yaxşıların yaxşısını seçmək üçünsə mütləq ali təhsil ocağına yol alıb ədəbi sözün sehrini bilənlərin sevgili dildə verəcəkləri açara sahib olmaq lazımdır. O, dünyaya Meğrinin səmasından baxanda hesab edirdi ki, doğma yurdda yadların basqısında yaşayan yurddaşlarının şüurunu yalnız sözün, sovet dönəmində isə yalnız ədəbi sözün sehri ilə oyatmaq olar. Hidayətin düşüncəsində olan bu idi ki, ədəbiyyat, bədii söz ruhun dərinliklərinə çatmalı və qəlbə toxunmalıdır. Bu mərama isə yalnız poeziyanın, könülləri riqqətə gətirən şeirin ecazkar gücü yetərdi. Hidayət "Mən kiməm?" sual etdiyi şeirdə, əslində, başında qara buludlar dolaşan yurddaşlarının dilindən danışaraq deyir:

**Göylərimiz dumanlı,**
**Gözlərimiz qayğı yurdu–**
**tufanlı,**
**Ürəyimiz fikir yuvası idi.**

Və başqa bir yerdə deyir:

**Bilirsiniz mən kiməm?**
**Babamın atamdan sonrakı yaşı,**
**Çiçəkli, meşəli, qayalı**
**Zəngəzur torpağı,**
**bir aran çeşməsinin su daşı.**

Təbii köksündə oyanmış vulkanı püskürmək, cahana xalqının haqqını tanıtmaq üçün Hidayət doğulub boya-başa çatdığı Qərbi Azərbaycanın Meğri obasının Maralzəmi kəndində qala bilməzdi. Coşub çağlayan, hidayət vaxtının yetişdiyini dərk edən Hidayət üçün bu məkan çox dar idi. Sevdiyi, vurğunu olduğu, soyunun, boyunun cövhəri olub yadların içində onları kökündən ayırmağa qoymayan dilinə, ədəbiyyatına, mədəniyyətinə, adət-ənənəsinə daha dərindən bələd olmaq, uluların qərinələrdən gələn səsini, ününü gələcəyə daha yaradıcı şəkildə daşımaq üçün millətinin baş kəndinə Bakıya yol aldı.

Canı türk qanına susamışların içində tüğyan edən və nə zamansa üzə çıxacaq kibirin, kin-küdurətin bir gün oğuz soyunun varislərinə qan püskürəcəyini bütün varlığı ilə duyan Hidayət zamanın söz zamanı, hidayət göstərməyin sözlə mümkün olduğunu Bakı Dövlət Universitetində doğmalar arasında doğma dildə təhsil alanda bir daha dərk etdi. Bu doğma səslər onu "qədim Oğuz yurdu" Meğridə, bütün Zəngəzurda qəribsəməyə məhkum olmuş doğmalarının taleyi üçün daha gur yanmağa, mübarizəyə səsləyirdi.

Milli varlığın incilərini öyrənmək üçün ünvan seçdiyi Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) filologiya fakültəsinin əyani şöbəsinə daxil olan Hidayət burada çox duruş gətirmir. Vaxtın çay suyu kimi sürətlə axdığını və Allahın ayırdığı ömür payının hər dəqiqəsindən xalqının xeyrinə iş görmək yanğısı ilə qiyabi şöbəyə keçib Meğriyə qayıdır və doğma kəndində məktəb müdiri işləməyə qərar verir. Bu məktəbdə qanından və canından olan millətinin balalarına təhsil vermək onun üçün dünyanın ən müqəddəs vəzifəsi idi. Ancaq burda da çox duruş gətirə bilmir və bir neçə ildən sonra yazmaq, yaratmaq həvəsi onu, əməkdaşlıq etdiyi və sonradan dəvət aldığı İrəvanda çıxan "Sovet Ermənistanı" qəzetinə gətirir.

İlk vaxtlardan ruhunda dolaşan və cismini qovuran fikir və duyğularının doğma dildə çap edilən bu nəşrdə "azadlığa" qovuşacağını düşünüb bir müddət bu qəzetdə ədəbi işçi kimi çalışır. Lakin qəfəsə düşmüş quş kimi qəzetin hüdudları və imkanları da onu sıxmağa başlayır. Bu vaxtda isə artıq universitet təhsilini başa vurub ali təhsil diplomu almışdı və daha geniş hüdudları olan məkanlarda olmaq, içini alovlandıran düşüncə və fikirlərini hürrə qovuşdurmaq olardı.

...1968-ci ildə sanki Tanrı səsini eşidirmiş kimi Hidayətə müqəddəs bir ocağın – teatrın başında durmağı nəsib edir və o, Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru təyin edilir. Bu, Hidayət üçün, sadəcə, bir vəzifə deyil, düşüncələrini reallaşdırmaq üçün dramaturgiyaya daha dərindən nüfuz etmək üçün bir fürsət olur. Həyatında yeni sənətə açılan bu qapı onu yeniyetməlik və gənclik düşüncələrinə yeni prizmadan baxmağa, istəklərini dram əsərlərinin qəhrəmanlarının dili ilə söyləməsinə geniş imkan açır.

Hidayət müəllimin qələm dostu Xalq şairi Nəriman Həsənzadə yazır: "Günlərin bir günü Ermənistan SSR-dən, C.Cabbarlı adına teatrdan dəvət gəlmişdi. Hidayət görkəmli dövlət və siyasi-ictimai xadim Nəriman Nərimanov haqqında yazdığım mənzum pyesimi tamaşaya qoymağa hazırlaşdığını yazır və məni ailəlikcə İrəvana dəvət edirdi.

Qısaca deyim ki, mən ailəmlə birlikdə ... gənc dramaturqun qonağı olduq və "Nəriman" pyesinə C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında baxdıq. Tamaşaçılar da, biz də çox razı qalmışdıq. Sən demə, Hidayət bizi İrəvanı gəzdirib Bakıya yola salandan sonra, elə həmin gün onu Ermənistan KP MK-ya dəvət ediblər. "Nəriman" pyesini Ermənistanda tamaşaya qoyduğuna görə, ciddi xəbərdarlıq eləyiblər".

Amma bunlar Hidayəti əsla öz ideallarından kənara çəkilməyə qoymadı. Çünki o, xalqının özgürlük, yaşama haqqını sözün qüdrəti ilə alova çevirən, vulkan kimi püskürən bir haqq aşiqidir. Mənim sözümü qəribliyə salanlar olsa, o zaman şairin bu misralarına diqqət yetirsinlər:

**Düşmənim dayanıb düşmən dalında,**
**Bu daş hansı dağdan qopub, sürüşüb.**
**Bizim bu günlərin qalmaqalında**
**Haqq da, ədalət də didərgin düşüb!**

Xarici görünüşündən sakit, son dərəcə təmkinli, el dilində desək, "ipək kimi" görünən Hidayət belə məqamlarda daxilən daha gur çağlayır və bütün varlığı ilə onun xalqının haqqını görməzdən gələnlərə sanki üsyan edirdi:

**Şaxəli tarixəm,**
**dibsiz bir quyuyam.**
**Qədimdən-qədiməm,**
**uludan-uluyam.**
**Bir ovuc,**
**bir içim xan Araz suyuyam.**

Gənc, istedadı coşub daşan, milli qeyrəti kükrəyən Hidayət 1975-ci ildə bax belə çağlayaraq soyunun kimliyini sanki təkcə yersiz gəlib yurduna sahiblik iddiası ilə meydan sulayan soysuzlara deyil, bütün dünyaya bəyan edirdi. Əslində, şair bu poemada İkinci Dünya müharibəsi mövzusundan ürəyini dağlayan fikirləri aşkar söyləmək üçün məharətlə istifadə edir. O bilir ki, vaxt hidayət vaxtıdır, həm də onun – Hidayətin vaxtıdır. Ona görə də 70-ci illərdə Zəngəzura həsr etdiyi çoxsaylı şeirlərinin birində deyir:

**Qan-qada görübdür burda babalar,**
**Yüz kəndin torpağı–daşı itibdir.**
**Lökdə bir meşənin məzarlığı var–**
**Kötük başdaşların yaşı itibdir.**

Hidayətin nəsrdə, dramaturgiyada hansı zirvədə olduğunu demək bəlkə də mənə düşməz, amma o, bir şair kimi ideal gözəllik və ümumbəşəri yaradıcı nizamın dahisi sayıla bilər.

**Məni soruş!**
**Məni səslə!**
**Sənə uçan təyyarənin qabağını**
**duman kəssə,**
**Sərnişinlər arasında məndən başqa**
**bir kimsə də**
**mənzilinə tələsməsə,**
**Sənə gələn qatarların yolları da**
**bağlı olsa,**
**sənə gələn başqa minik tapılmasa...**
**üz tutaraq ürəyimdə nağıllaşan**
**bir ünvana,**
**kövrək ada**
**gələcəyəm pay-piyada,**
**gələcəyəm, qatarlardan sürətlə mən...**

Hidayətin bu və ya digər şeirinin yazılma səbəbi bəlkə də o qədər önəmli deyil, mühüm olan, sadəcə, eyni bir məkanda ancaq fərqli vaxtlarda bizə gəlib çatan sətirləri oxuyanda daxilən hansı hissləri və nələri yaşamağımızdır. Məsələn, Azərbaycan xalqı, xüsusən də Qərbi azərbaycanlılar üçün ağrılı-acılı ötən əsrin 80-ci illərində yazılan "Uşaqlıq şəkillərimə" şeirində şair köksündə qançıra çevrilmiş dərdini belə dilə gətirir:



**Hələ səni "köçərilər" sanmayıblar,**
**Şərqə şöhrət tarixini danmayıblar.**
**Gözləriniz önündəcə**
**Köhnə, təzə qəbirləri sökən yoxdur,**
**Ölülərin ölümünə"Qiyam edib"**
**istintaq, ittihama çəkən yoxdur.**
**Xəbəriniz yoxdur hələ–**
**bu dünyanın min üzü var:**
**biri ağdır,**
**biri qara,**
**biri arsız...**

Əvvəldə də qeyd etdiyimiz kimi, şairin özünəməxsus üslubu var və bu, çox dəyərlidir. Onun hələ də pərəstişkarları və yazı tərzini təqlid etməyə çalışanlar var.

Retrospektiv olaraq Hidayətin vaxtına dəyər vermiş olsaq, onun ədəbi yaradıcılıq sərvətinin – bədii əsərlərinin ömür taxtının ən qiymətli zirvəsində yer aldığına şahid olarıq. Onun 1970-ci ildə İrəvanda işıq üzü görən "Məni səsləyəndə" şeirlər kitabından başlayaraq bir-birinin ardınca "Məhəbbət qocalmır", "Bir az gözləyin məni", "Dənizi harayladım" kitabları oxucular arasında böyük maraqla qarşılanır. Ancaq Hidayət poeziya ilə kifayətlənmir və rəhbərlik etdiyi C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında "Məhəbbət yaşayır hələ..." pyesi tamaşaya qoyulur.

Bu vaxtlar Hidayət müəllim təkcə İrəvandakı Azərbaycan Dram Teatrının direktoru deyil, eyni zamanda, Ermənistan Yazıçılar İttifaqı İdarə Heyətinin üzvü və Azərbaycan Ədəbiyyatı Şurasının sədri, İrəvan Pedaqoji İnstitutunun Azərbaycan şöbəsində XIX-XX əsr Azərbaycan ədəbiyyatı müəllimi olaraq milli düşüncəsi türkə nifrətlə yoğrulan respublikada milli ədəbiyyatımızın, mədəniyyətimizin inkişafında əvəzsiz xidmətlər göstərməkdə idi. Bu xidmətlərdən biri də onun bilavasitə rəhbərliyi ilə Qərbi Azərbaycanda yaşayan şair və yazıçıların əsərlərinin dərc edildiyi "Ədəbi Ermənistan" məcmuəsinin işıq üzü görməsi idi. Amma Hidayətin çağlayan könüldən ağ vərəqlərə axan şeirləri, nəsr və dram əsərləri, publisistik yazıları kitab rəflərinə yığılmaqda davam edirdi.

Şair Hidayətin son dərəcə aydınlıq və harmoniyaya çağırışları həyatın axınında qaçılmaz olaraq səslənən bütün dramatik notları balanslaşdırır. O, şeirlərində də, bədii əsərlərində də, publisistikasında da həm emosional etirazın gücünü, həm də fəlsəfi axtarışların dərinliyini bilir. Hətta ömrünün sovet dövrünü yaşayan Hidayət təmkin və klassik forma zərifliyinin mükəmməlliyini kəşf edə bilib. Bu da, müxtəlif nəsil oxucuların ona heyran olmasını təmin edir.

Bir erməni hiyləsi ilə belə zindana atılması gizli düşmən üçün çətin olmadığı bir vaxtda gənc, yaşı hələ 30-u keçməyən bir türk ziyalısının bütün qədim Oğuz elini – Ermənistanı rəhbərlik etdiyi teatrla addım-addım gəzərək burada yaşayan qanı, dili, dini bir xalqını mədəniyyətə, dəyanətli, qürurlu olmağa çağırması heç də adi məsələ deyildi. Üstəlik, bu istedadlı zəka sahibinin məhz erməni fitnələrinin cilalandığı İrəvanda davamlı olaraq şeir kitabları nəşr olunur, dramları teatrda tamaşaya qoyulurdu. Qonşu ölkənin hökumət rəhbərləri bu gənc istedadın nümayiş etdirdiyi əzmkarlığı, zəhməti və ərsəyə gətirdiyi işlərin dəyərini verməyə bilməzdilər, çünki sovet quruluşunun tələbləri onları buna məcbur edirdi. Ona görə də 1978-ci ildə Hidayət Orucov Ermənistan SSR Əməkdar mədəniyyət xadimi fəxri adı ilə təltif edildi.

Bundan sonra bir qədər də açıq mətnlə yaradıcılığını davam etdirən Hidayətin İrəvanda sanki vaxtı sona yetməyə başlayır. Açıq-gizli təzyiqlər artıq ona, parlaq gələcəyi olan gənc Azərbaycan ziyalısına Ermənistanda yaşayıb-yaratmağa yer qoymur. Hidayət bəlkə də ruhunun daha azad nəfəs alması və qəlbini dağlayan həqiqətləri daha geniş auditoriyaya çatdırmaq üçün Bakıya köçmək məcburiyyətində qalır. Bu ona daha məhsuldar işləməyə, poetik istedadının məhsulu olan "Eviniz analı olsun", "Zirvə cığırı", "Qatardan məktub" şeir kitabları ilə yanaşı, "İrəvanda xal qalmadı", "Sabaha çox var" nəsr, dramaturgiya və publisistika kitablarını nəşr etməyə imkan verir. Həmin illərdə İrəvan Dövlət Azərbaycan Dram Teatrında "Məni qınamayın" pyesi uğurla tamaşaya qoyulur. Lakin onun Bakıya köçməsi ilə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzə başlaması, azərbaycanlıların kütləvi şəkildə Ermənistandan deportasiya edilməsi arasında elə də çox vaxt keçmir.

Hidayət Ermənistan ideoloqlarının hansı işlər çevirdiyini bütün ruhu ilə hiss etmişdi və elə ona görə də "kin əkən bu qövmün bir gün qan biçəcəy"ini görürdü. 1988-ci ildə bədxah qonşularımızın Azərbaycana təcavüzü başlayanda milli qüruru bütün təltiflərdən və mükafatlardan uca tutan Hidayət Orucov Ermənistan SSR Əməkdar mədəniyyət xadimi fəxri adından imtina etdi.

Bakıya gələndən az müddət sonra "Gənclik" nəşriyyatının direktoru vəzifəsində çalışan Hidayət Orucov doğma ellərdən köç başlayanda heç nəyə məhəl qoymadan kəskin publisistik qələmini işə salıb son dərəcə sərt məqalələrlə mətbuat səhifələrində çıxış etməyə, erməni separatçılarının, onların ideoloqlarının və havadarlarının iç üzünü açan tarixi sənədlərin nəşrlərinin meydana çıxmasında əzmlə, peşəkarlıqla çalışır. Bu məqamlarda vaxtın Hidayətin vaxtı olduğunu bir an belə unutmur və bədii, elmi-publisistik əsərlərdə Qərbi Azərbaycandan qovulan soydaşlarının ən yeni tarixinin canlı şahidi olaraq çoxlarına məlum olmayan ictimai-siyasi hadisələrin gizli-açıq məqamlarının təhlilini verir.

AMEA-nın həqiqi üzvü, Milli Məclisin deputatı, filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi Nizami Cəfərov yazır: "Yaradıcı ruhunun - istedadının "ilk məhəbbəti" olan poeziyanın ilham pərisi Ermənistanda olduğu kimi, Azərbaycanda - Bakıda da Hidayəti heç zaman tərk etmir". Həqiqətən Hidayət müəllim Bakıya gələndən sonra poetik düşüncələrinin nəzmə çəkilməsi üçün yorulmadan çalışır və onun şeiriyyətinin vurğunu olan oxucularını nəşr etdirdiyi yeni kitablarla sevindirməkdə davam edir. Nə zəhməti, nə istedadının sayəsində ərsəyə gətirdiyi əsərləri diqqətdən kənarda qalmır və 1991-ci ildə dövlət tərəfindən Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi fəxri adına layiq görülür.

Hidayətin istedadına, yaşadığı ağrıacılara, keşməkeşlərə, eyni zamanda, bütün bunlara rəğmən əldə etdiyi uğurlara dərindən bələd olan AYB-nin sədri, Xalq yazıçısı Anar ondan bəhs edərkən yazır: "Tanrının verdiyi ömrü hamı onun müəyyənləşdirdiyi vədədə başa vurur. Lakin heç də hər bir insan həyatının hansısa məqamında arxada qalan ömrə, illərə, görülmüş işlərə, dəyişdirilməsi mümkün olmayan əməllərə baxıb, Hidayət kimi özünəməxsus təvazökarlıqla deyə bilmir: bəli, mən yaşamışam..."

Azərbaycan üçün təlatümlü və fəlakətli olan ötən əsrin 90-cı illərində yüksək dövlət vəzifələrində çalışan, Hidayət bədii yaradıcılığı da əsla kənara qoymur və yuxusuz gecələr hesabına bir neçə kitabın ərsəyə gəlməsinə nail olur. Onun "Doxsanıncı il", "Həsrət", "Hərdən xatırla məni" şeir, "Sözün vaxtı" publisistika kitabları məhz həmin illərdə işıq üzü görür. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında tamaşaya qoyulan "Bu dünyanın adamları" pyesi də tamaşaçı rəğbəti ilə qarşılanır.

Hidayətin yaradıcılıq xəzinəsinin əsas fəlsəfəsi pozitivizm ideyasıdır, yəni yeni zamanda, yeni həyata, ən yeninin–müasirin formalaşmasına ümid və inam var. İstər dram əsərlərində, istər poeziyasında Hidayət insanları, ilk növbədə isə, xalqını yüksək amallar üçün doğulduğuna inandırır, onların talelərinin dəyərinin məhz bu yüksək amallarda olduğunu deyir, onların bunu dərk etmələri üçün yol göstərir.

Əgər şairlərin yuxusuz gecələrinin məramı əbədi mayaka çevrilməkdirsə, o zaman Hidayət illərdir ki, təkcə poeziyada deyil, dramaturgiyada, nəsrdə və publisistikada, ən qatı dumanda belə uzaq mənzillərdən xilasın ona yan almaqda olduğunu göstərən mayakdır.

Hidayət Orucov Azərbaycan ədəbiyyatı tarixinə əbədi həkk olunmuş bir nəhəngdir. Onun lirik istedadı nə qədər özünəməxsus və yüksəkdə durursa, dramaturgiya və publisistika istedadının da bu zirvəyə yüksəldiyini inkar etmək olmaz. Onun şeirləri söz oyunu, mürəkkəb assosiativ silsilələr, canlı metaforalar, obrazlar, mürəkkəb sintaksisdən istifadə ilə səciyyələnir. Bununla yanaşı, onun qeyri-adi yazı dili var və bir söz adamı olaraq deyərdim ki, bunun özü də unikaldır. Yaratdığı obrazlar o qədər canlıdır ki, oxuyanda sanki sənə yol yoldaşı olur.

Etiraf edim ki, onun nədə – poeziyadamı, nəsrdəmi, dramaturgiyadamı, publisistikadamı daha yaxşı olduğunu söyləmək çox çətindir. Hidayət tamamən fərqli üslubda yazır. Amma bu üslubun canı realizmdir. Onun şeirlərində xəyallar, sevgi qeyrət, qandan gələn təəssübkeşlik, yeri gələndə hiddət və etiraz var, amma bunlar gerçəkdir, realdır, canlı insanın hissləri, duyğularıdır.

**Balatonda bir qız gördüm,**
**Dağ qızına oxşayırdı.**
**Dodağında ot saplağı,**
**Saçlarında səhər mehi,**
**Gözlərində qara gilə...**
**Yeri-göyü, dalğaları,**
**Çiçəkləri, ağacları**
**İlk sevgitək oxşayırdı.**

Belə lirik ricətləri ilə könülləri riqqətə gətirən şairin siyasi səhnədə də özünəməxsus fəaliyyəti və iradəsini, qətiyyətini göstərən addımları olub. Bunun da özəl bir səbəbi olub. Hidayət Orucov ömür vaxtının bütün mərhələlərində ümummilli lider Heydər Əliyevin pərəstişkarı, onun şəxsiyyətinin vurğunu olub. Şair, nasir, dramaturq ulu öndər Heydər Əliyevlə təkcə qürur duymayıb, həm də öz dərin zəkası ilə onu millətinin, xalqının və dövlətinin xilaskarı kimi görüb. Bunu onun "Heydər Əliyev və Azərbaycanda milli siyasət", "İrəvana 7 məktub", "Burdan min atlı keçdi" və sair əsərlərində aydın görmək olur. Xatirələrinin birində Hidayət müəllim deyir: "İrəvan Pedaqoji İnstitutuna görüşə dəvət etmişdilər. Əvvəllər Siyasi Büro üzvü kimi burada Heydər Əliyevin portreti var idi. Görüşə gələndə diqqət etdim ki, Heydər Əliyevin portreti yoxdur. Universitetin Azərbaycan bölməsinin dekanından soruşdum: "Heydər Əlirzaoğlunun portretini görmürəm?" Dedi: "Bunlar çıxarıblar, indi biz də Heydər Əliyevin o ölçüdə şəklini axtarırıq". İnstitutun rektoru da mənim sol tərəfimdə gedirdi. Başqa bir sözümüz olmadı. Zala girdik. Rektor yavaşca mənə tərəf əyilib dedi: "Sizin dekanla söhbətinizi eşitdim. Siz elə şeylərə fikir verməyin. Hansısa axmaq o şəkli oradan çıxarıb... Mən özüm tapşıraram, Heydər Əliyeviçin portretini gətirib ora vuracaqlar". Mən də sözümü lazımi tərzdə dedim: "Yox, mən ona bir söz demirəm, amma belə bir təhsil müəssisəsində hansısa axmağın portreti oradan salması təəssüf doğurur. Fikirləşirəm 30 il Mikoyanın şəkli bizim başımızın üstündə olub. Bir azərbaycanlı onu divardan qoparıb düşürməyib. Siz elə bilirsiz bizim içimizdə axmaq yoxdur, var. Amma heç kim bunu etməyib..."

Tale elə gətirir ki, 1990-cı illərin əvvəllərindən etibarən Hidayət mühüm dövlət işlərinə irəli çəkilir. 1992-ci ilin sonlarından isə Milli siyasət məsələləri üzrə Dövlət müşaviri kimi bilavasitə öz siyasi kumiri, ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında çalışmağa başlayır. Bu dövlət postunda da Hidayət Orucov özünün böyük təşkilatçılıq istedadını göstərərək ümummilli lider Heydər Əliyevin öndərliyilə Azərbaycanda gedən genişmiqyaslı milli dövlət quruculuğu prosesində fəal iştirak edir. Azərbaycan Prezidenti İlham Əliyev 2004-cü ildə Hidayət Orucovun dövlət quruculuğu işlərində fəaliyyətini yüksək qiymətləndirərək onu "Şöhrət" ordeni ilə təltif edir.

Yəqin, elə Xalq şairi Nəriman Həsənzadə də, qələm dostunun bu uğurundan fərəhlənərək yazır: "Hidayət bu millətin bəxtinə doğulanlardandır. Öz taleyi ağır olsa da, xalqının, başqa xalqların taleyində mühüm rolu olub. Və indi də var, zaman onu tamam yeni ruhlu, yeni təfəkkür tərzinə malik, yeni tipli sənətkar kimi yetişdirdi. Böyük bir şəxsiyyətin (ulu öndər Heydər Əliyevin – İ.R.) yanında formalaşmışdır... Hidayətin şəxsində Azərbaycan ədəbiyyatı müstəqil Azərbaycan dövlətçiliyinə xidmət edir. Bu onun taleyi və şərəfli tərcümeyi-halıdır".

Hidayət müəllimin ömür gündəliyini qələmə almaq, adi bir kənd məktəbinin müdirliyindən Dövlət müşaviri, Dini İşlər üzrə Dövlət Komitəsinin sədri, Azərbaycanın fövqəladə və səlahiyyətli səfiri kimi dövlət vəzifələrinə qədər şərəfli yol keçən şəxsiyyətdən bir qəzet səhifəsində hər şeyi təfsilatı ilə yazmaq əsla mümkün deyil.

Əslində, bu yazımız 80 il "Sözün vaxtı"nı özünün vaxtı bilən Hidayət müəllim haqqında, bəlkə də, kiçik bir təqdimatdır. İstərdik, Hidayət müəllim bunu vaxtın hüdudlarına sığmayan şair, dramaturq, nasir, tərcüməçi, dövlət xadimi, diplomatın 80 illiyinə bir təbriknamə kimi qəbul etsin.

Yaşınız, sabaha açılan vaxtınız mübarək, Hidayət müəllim!

*İlqar RÜSTƏMOV*
*XQ*

“Xalq qəzeti”nin qonaqları

# Qocaman naşirin yubilyar qəzetə hədiyyəsi

**Tanınmış naşir və poliqrafçı alim Şəddat Cəfərovun son illərdə qələmə aldığı “Əzəldən sözə bağlıyam” çoxcildliyinin növbəti 3 cildi də işıq üzü görüb. Müəllif əvvəlki 2 kitab kimi, sonrakı 3 cildin mətbəə qoxusu getməmiş ilk nüsxələrini media aləmində keçən 70 illik fəaliyyəti dövründə sıx əməkdaşlıq etdiyi “Xalq qəzeti”nin kollektivinə hədiyyə edib.**





Redaksiyada keçirilən görüşdə “Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov Azərbaycanın qocaman naşir-poliqrafçısını, redaksiyamızın çoxillik dostunu uzun onillikləri əhatə edən, ölkə mətbuatının çoxillik əhatəli xronikasını yaradan dəyərli memuar ədəbiyyatını ərsəyə gətirdiyinə görə təbrik etdi. Qəzet rəhbəri qocaman poliqrafçı və yazarın yaşının 85 ili haqladığı bir vaxtda da naşirlik fəaliyyətini davam etdirməklə yanaşı, fəal bədii-sənədli yaradıcılıqla məşğul olmasını nadir ictimai fəallıq kimi dəyərləndirdi. O qeyd etdi ki, beşcildlikdə əksini tapmış zəngin materiallar, önəmli xatirələr mətbuat araşdırıcıları, jurnalistlər və tələbələr üçün qiymətli mənbəyə çevriləcək.

Müstəqilliyin ilk illərində çətinliklərlə üzləşmiş “Xalq qəzeti”nin nəşrini davam etdirməsinə o zaman rəhbəri olduğu “Azərbaycan” nəşriyyatında lazımi kömək göstərmiş naşir bu redaksiyanın həmişə onun üçün doğma olduğunu söylədi. Şəddat Cəfərov bugünlərdə 105 yaşı tamam olmuş qəzetin yaradıcı heyətini səmimi təbrik etdi, kollektivə xoş arzularını çatdırdı.

Söhbət zamanı əsryarımlıq tarixi olan mətbuatımızın zaman-zaman xalqımızın milli oyanış və milli istiqlal mübarizəsinə gur işıq salması, sovet dövründə ellikcə maarifləndirmə, mədəni inqilab, ictimai tərəqqi və quruculuq proseslərini kütlələrə təbliğ və təşviq etməsi qədirbilənliklə qeyd edildi. Bildirildi ki, milli mətbuatımızın, eləcə də canlı jurnalistika məktəbinə çevrilmiş “Xalq qəzeti”nin ötən dövrdə əldə etdiyi zəngin təcrübə, yaratdığı ənənələr, tarixə həkk etdiyi örnəklər çağdaş mediamızın peşəkarlıq və vətəndaşlıq qaynağıdır. Bu vəsilənin davamında yaşlı nəsil yazar və naşirlərin xatirələri canlı media dərsləridir.

Qəzetimizin keçmiş əməkdaşı, çoxcildli media memuarının işıq üzü görməsində müəllifin yaxın köməkçisi olan, uzun illər onunla yaradıcı əməkdaşlıq edən Mehman Fərzullayev bildirdi ki, qəzet-kitab nəşri ustad poliqrafçı Şəddat Cəfərov həyatının mənası olub. O, həmişə sözə yüksək dəyər verib, özü də fəal yaradıcılıqla məşğul olub. Naşir-alim illər boyu topladığı sənədli materialların və yaddaşındakı xatirələrin indiki və gələcək nəsil üçün gərəkli olduğunu düşünərək onları sistemli olaraq qələmə alıb və ayrı-ayrı kitab şəklində nəşr edib.

Görüşün sonunda Şəddat Cəfəfov yeni cildləri redaksiyanın kitabxanasına və əməkdaşlara hədiyyə etdi.

*Tahir AYDINOĞLU*
*XQ*

Gəlimli-gedimli dünya

# Dilçi alimin fizik oğlu

**Hələ keçən əsrin 80-ci illərindən tanıdığım Rafiq müəllim təkcə sakit və təmkinli təbiəti ilə yox, həm də həmişə maraq doğuran mülahizələri ilə yadımda qalmışdı. Tələbə ikən müqavilə ilə çalışdığım çoxtirajlı universitet qəzetindən başlanan bu tanışlıq dostluğa çevrilmişdi.**



Rafiq Əlövsət oğlu Abdullayev 1945-ci ildə Şamaxıda doğulub. Azərbaycan dilçiliyinin görkəmli nümayəndəsi, filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi, Dövlət Mükafatı laureatı Əlövsət Abdullayevin ailəsinin bu ilk övladı Bakının Səbail rayonundakı 7 nömrəli tam orta məktəbi qızıl medalla bitirib və Azərbaycan Dövlət Universitetinin (indiki BDU) fizika fakültəsinə daxil olub. Təhsil göstəriciləri yüksək olduğu üçün 2-ci kursdan Leninqrad Dövlət Universitetinə keçirilib. Orada 3 cildlik “Ümumi fizika kursu”nun müəllifi, dünya şöhrətli alim Sergey Frişin tələbəsi olub. Bu, Rafiq müəllimin elmi bioqrafiyasına özünün silinməz möhürünü vurub. Sonra o, Kiyev Dövlət Universitetinin aspiranturasında təhsilini davam etdirərək fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsini alıb.

Bu artıq keçmiş vahid sovet elmi məkanının parçalanıb “milli mənzillərə” köçməyə başladığı illər idi. Həmin vaxt ona keçmiş ittifaqın bir neçə nüfuzlu elmi-tədqiqat mərkəzində, hətta nüvə fizikası sahəsində ən böyuk məbəd sayılan Dubna şəhərində, özü də yaxşı vəzifələrdə çalışmaq təklif olunur. Lakin o, milli elmi məkanı seçir.

Bir müddət elmi fəaliyyətini Bakıda, Elmlər Akademiyasının Tətbiqi Fizika İnstitutunda davam etdirir. Elmi işçi, baş elmi işçi vəzifələrində çalışdığı illərdə beynəlxalq konfransların iştirakçısı olur. Bunun ardınca dövlətin dəstəklədiyi beynəlxalq elmi əməkdaşlıq proqramı çərçivəsində Madaqasqar Milli Universitetinin fizika fakültəsində çalışır. Rafiq müəllim 4 il fransız dilində fizika fənnindən mühazirələr oxuyur, seminar məşğələləri aparır.

Azərbaycana qayıtdıqdan sonra xeyli müddət fəaliyyətini Bakı Dövlət Universitetinin fizika fakültəsində dosent, fakültə dekanının müavini vəzifələrində davam etdirib, elmi tədqiqatların və tədris prosesinin təşkilinə töhfələr verib. Amma özünün elmi və tədris fəaliyyətinin ən uzünmüddətli mərhələsini o, qardaş Türkiyədə keçirib. Qardaş ölkənin müxtəlif universitetlərində dosent, professor, dekan, kafedra müdiri, prorektor vəzifələrində çalışıb. Sonuncu iş yeri Muş Alparslan Universiteti olub.

Türkiyənin Egey Universitetinin professoru Ürfət Nuriyev bildirir ki, Rafiq müəllimi yaxından tanımasam da, onun haqqında eşitdiklərim çox zəngin və millətsevər bir insan olduğunu sübut edir. Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının I prorektoru, Rafiq müəllimin yaxın dostu və qohumu Əlikram Abdullayevin isə ilk sözü bu oldu ki, Rafiq müəllimin atası Əlövsət Abdullayevin nəhəng obrazının fonunda onun ətrafındakıların “portret”inin gerçək cizgilərini görmək çətindir. Üstəlik, Rafiq müəllim özü təbiət etibarı ilə çox təvazökar insan idi, amma bütün bunlara rəğmən, onun şəxsiyyətinin vüsəti danılmazdır.

Əlavə edək ki, Rafiq müəllim hər zaman daha çox məhz atasının nəcib əməlləri haqqında danışardı. Bir dəfə də o mənə belə bir xatirə söyləmişdi: “1975-ci ildə Moskvadan universitetə səlahiyyətli bir komissiya gəlir. Qonaqlar Orta Asiya universitetlərində tədrisin rusca aparıldığını xatırladıb, prorektor olan atama cəmiyyətdəki nüfuzundan istifadə edərək Azərbaycanda da ali tədrisin rus dilində aparılması təşəbbüsü ilə çıxış etməsini təklif edirlər. Əlövsət müəllim Orta Asiya ilə müqayisənin düzgün olmadığını deyir, Qafqazın digər respublikalarında – Gürcüstan və Ermənistanda da tədrisin milli dildə aparıldığını xatırladır. Bu etiraz komissiya üzvlərində ciddi narazılıq yaradır və Əlövsət müəllimin nəinki prorektor vəzifəsindən azad edilməsi, hətta universitetdən xaric olunması məsələsi gündəmə gəlir... Yalnız Mərkəzi Komitənin o zamankı Birinci katibi Heydər Əliyevin məsələyə müdaxiləsi onu ağır cəzadan xilas edir”.

Əlövsət müəllimin ailəsində intizamlı, çalışqan, mənəviyyatlı, vətənsevər, milli dəyərlərə bağlı bir gənc kimi yetişən Rafiq müəllimin şəxsiyyəti təkcə onun atasından miras qalan yüksək mənəvi keyfiyyətlərin daşıyıcısı olması ilə səciyyələnmir. O çox geniş diapazona malik, öz yolu, öz dəst-xətti olan təkrarsız keyfiyyətlərə malik insan idi.

Mənim bu şəxsi qənaətimi professor Əlikram Abdullayevdən eşitdiyim aşağıdakı sözlər də təsdiq edir: “Mənə elə gəlir ki, Rafiq çox böyük uğurla dövlət qulluqçusu, diplomat, böyük dilçi alim də ola bilərdi, amma onun seçimi fizika oldu ki, bu da təsadüfi deyildi. O heç vaxt büruzə verməsə də, əslində iddialı bir gənc idi. XX əsr tarixə fizika əsri kimi düşürdü və o, məhz bu əsrin alimi olmaq arzusunda idi. Ədalət naminə, onun buna potensialı da vardı. Allah ona çox güclü fitri istedad vermişdi. Biz bir yerdə böyümüşük. Mən ondan bir neçə yaş böyüyəm. Lap kiçik yaşlarından yanımda oturub dərslərə necə hazırlaşdığıma diqqətlə qulaq asır, əzbərlədiklərimi əzbərləyir, hesabladıqlarımı hesablayırdı. Mən 3-cü sinfi bitirəndə gördüm ki, o, mənim bütün öyrəndiklərimi elə mənim qədər bilir və rahatlıqla 4-cü sinfin dərslərinə qoşula bilər. O zamanlar buna icazə yox idi. Amma Rafiqin bibisi, mənim ibtidai sinif müəllimim və böyük bacım Tusiyə müəllim 5 yaşında ikən onun adının jurnala yazılmasına nail oldu. Sonra məktəbi dəyişəndə onun adını gah aşağı sinfə yazdılar, gah yuxarı sinfə, axır ki, o, 15 yaşında orta məktəbi qızıl medalla bitirdi”.

Onun dilləri mənimsəməyə, sanki, xüsusi bir “vergisi” var idi. Ana dilimizi incəlikləri ilə bilirdi. Ailə kitabxanasında rus dilində zəngin elmi, bədii ədəbiyyatın olması səbəbindən o, rus bölməsində oxuyan uşaqlardan heç də geri qalmırdı. Buna görə də Leninqrad Universitetinə oxumağa gedəndə dil problemi olmayıb. Daha sonralar alman və fransız dillərində də sərbəst danışmağı, mühazirələr oxumağı öyrənib.

Elmə və təhsilə bütün varlığı ilə bağlı olan Rafiq müəllim ömrü boyu böyük yaradıcılıq həvəsi ilə çalışıb, fizikanın müxtəlif problemlərinə dair elmi tədqiqatlarını davam etdirməklə yanaşı, gənc nəsil fiziklərinin yetişdirilməsinə ciddi töhfəsini verib. Çoxsaylı elmi əsərlərin müəllifi, bacarıqlı pedaqoq kimi tanınan professor Rafiq Əlövsət oğlu Abdullayev bu il iyulun 12-də qəflətən vəfat edib.

Allah rəhmət eləsin...

*Namiq QƏDİMOĞLU*
*XQ*

# Poetik sözün rəngləri

**Onunla ilk dəfə Masallının Xırmandalı kəndindəki əkin sahəsində görüşməyimdən 30 ilə qədər vaxt ötür. O zaman bostanında yetişdirdiyi bal kimi şirin qarpız-yemişin dadına baxdıq. Əkinçi şairin söz “tarla”sına səpdiyi saf duyğu “toxum”larının da misra-misra böyüyüb şirin barbəhər verdiyinin şahidi oldum.**



Söhbət istedadlı qələm sahibi Arif Fərzəlidən gedir. Rayonda hamı ona “Masallının Fikrət Qocası” deyir. Həm şairliyinə görə, həm də eynilə mərhum ustadı kimi, səs telləri “incik” olduğundan bir az xırıltı ilə danışdığı üçün. Çöllər onun vərəqidir, bellər – yazan qələmi... Qabarlı əlləri, kövrək ürəyi ilə əyalətdə umacaqsız bir tale yaşayır. Bostanında “lək-lək” sözlər, “tağ-tağ” misralar becərir. Daşın-torpağın arasından “qızıl” beytlər, bəndlər tapıb çıxarır. Sonra da hamısını sanki güləbətinlə bir-birinə toxuyur...

Arifin şeirləri göz qamaşdıran rənglərdən xalidir, amma boyaları təbiidir deyə, heç biri pozulub getmir. Necə ki, fabrik məhsulu olmayan qədim xalçanın, kilimin “bəti-bənizi” hələm-hələm solub-saralmır. Onun insan haqqında düşüncələri adamı xəyala daldırır:

**Nəsil-nəsil şumlanırıq,**
**növbə-növbə əkilirik hamımız,**
**Bir ovuc Vətən torpağıyıq -**
**bərəkətlimiz, şoranımız, xamımız...**

Bir qədər əvvəl Arifin yeni “Tarix kitabı” işıq üzü görəndən sonra Masallıdakı dostlarla kəndə görüşünə getdik. Şair Nurməmməd Ağa, ziyalı dostumuz, məktəb direktoru Hamlet Quliyev, “Yeni həyat” rayon qəzetinin baş redaktoru Əlihüseyn Şükürov və mən qapısını ərklə açdıq. Şair bizi görüb sevindi, təzə kitabına “Mübarəkdir” dedik və çay süfrəsi arxasında ürək söhbətləri elədik. Dəqiqələr dadlı-dadlı ixtilatların şirinliyində əridi.

Arif Fərzəli əyalətdə yaşayıb-yaratmaq qismətinə şükür eləyən, böyük şəhərlərin reklam işıqlarında gözü qalmayan şairlərdəndir. Amma adı paytaxt Bakının ədəbi mühitində yetərincə tanınır və tez-tez çəkilir. Bakı Dövlət Universitetinin kimya fakültəsini, sonra isə Maksim Qorki adına Moskva Dünya Ədəbiyyatı İnstitutunu bitirmiş Arif müəllim “Toxuma həsrət torpaq”, “Sizin dünya”, “Ömür yarımçıq qalmır”, “Yağışa düşən qərib” və başqa kitabları ilə ədəbi aləmə səs salıb. Qələmi günbəgün ovxarlanıb, duyğularını yerli-yerində fəlsəfi düşüncə köynəyindən keçirib. Cavan vaxtlarında yetərincə vətənpərvər şair idi, indi daha çox vətəndaş şairdir. Onun “Oyunmuş bu yol deyilən” şeirində oxuyuruq:

**Vaxt cığır – zaman içində,**
**Baxt şaxır güman içində.**
**Yaddaşım al-qan içində –**
**Qardaş savaşından gəlləm.**

Tarixi faciələrimizi bilənlər dərhal duyur ki, müəllif şair babası Şah İsmayıl Xətainin qan qardaşı sayılan Sultan Səlimlə gərəksiz döyüşünə işarə vurur. Arifin adi detallardan ustalıqla istifadə etməsi diqqətçəkəndir. Uğurla seçilən hər detal şeirə orijinallıq gətirir. Bu baxımdan “Qoca boksçu” maraqlıdır:

**Əlləri sustalıb, düşüb yanına,**
**Əlcəyi divardan asılı qalıb.**
**Tablamır taleyin yumruqlarına,**
**Ömrünün küncünə qısılıb qalıb.**

Kürəyini dağlara söykəmiş kənd, bar ağaclarının yanında “utanan” söyüd, qurumuş bulaq, arxası üstə düşüb göyləri cırmaqlayan böcək, bir anda, özü də aşırı yağmış qar, “məktub” – qəbirlər... Arifin poetik dünyasının yaddaqalan atributlarıdır. Məncə, sıradan bir rəssam belə onun şeirlərinə eskizlər çəksə, sərgisi sənətşünasları ciddi şəkildə maraqlandırar.

Arifin sevgi şeirləri oxucuya öz yaşantısı kimi tanış gəlir:

**Öz əlimlə qayçılandım bir ömür,**
**Qamçıladım, qamçılandım bir ömür,**
**Bir buluddum, damcılandım bir ömür,**
**Sellənmədim bu sevdanın yolunda...**

Şair musiqini, muğamları da gözəl bilir, duyur və poetik nəfəsi ilə çatdırır. “Segah” şeirinə nəzər salaq:

**Mizrab toxunacaq, sim ağlayacaq,**
**Zili hönkürəcək, bəm ağlayacaq.**
**Görüm məni ən çox kim ağlayacaq,**
**Qoy bir harayında itim segahın.**

**Bu nizə daşları keçən nizəymiş,**
**Elə bu nizənin yönü bizəymiş...**
**Ağrısı-acısı hələ təzəymiş,**
**Yarası qədimdən-qədim segahın.**

**Simlər pərdə üstə yollardı – qoşa,**
**Gedən ölməzliyə gedib qovuşar.**
**Bir qaçıb obaya hay sal, ay uşaq,**
**Dədəsi tapılıb “Yetim segah”ın...**

O, həm də sözlə yarızarafat-yarıciddi manipulyasiya edə bilən şairdir: Görün, bəzi sözləri zamanın nəbzində necə oynadıb:

**“Atam” deyirsən, atom düşür yadına,**
**“Nəvə” deyirsən, nüvə düşür yadına.**
**O gün dostum “Pəriş” yerinə,**
**Çaşıb “Perşinq” deyib arvadına...**

Qələm dostum hazırda özünün müdrik çağını yaşayır. Şeirləri qədər uzunömürlü olması diləyi ilə:

*Əli NƏCƏFXANLI*
*XQ*

# Kitab oxuyaq, mahnı dinləyək



**Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə Xəzər Rayon Mərkəzləşdirilmiş Kitabxana sisteminin 2 nömrəli kitabxana filialı Zirə EKO Parkında “Mütaliə saatı”, eləcə də Sosial Xidmətlər Agentliyinin 1 saylı 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün sosial xidmət müəssisəsində konsert keçirilib.**

“Mütaliə saatı”nda uşaqlara kitabxananın fondundan bir-birindən maraqlı kitablar təqdim olunub və hekayələr seçilərək səsləndirilib. Əsas məram yay tətilinin səmərəli təşkili və uşaqlarda mütaliə vərdişlərinin inkişaf etdirilməsi olub. Nağıllar, macəra hekayələri və şeirlər maraqla dinlənilib.

Xüsusi qayğıya ehtiyac duyan uşaqlar üçün konsertdən isə məqsəd onların sosial adaptasiyasına dəstək olmaq idi. Müəssisədə hərtərəfli himayə edilən 100-ə yaxın uşağın iştirak etdiyi konsertdə tanınmış estrada müğənnisi Rüfət Axundov və digər ifaçılar maraqlı musiqi nömrələri ilə çıxış ediblər. Əyləncəli proqram həssas qrupdan olan uşaqların sevincinə səbəb olub və onlarda unudulmaz təəssürat yaradıb.



*XQ*

Yeni tamaşalar

# “Siluet”in qeyri-səlis məntiqi

## *Yaxud 2 tale yaşayan qadınların faciəsi*



**Bu yaxınlarda İrəvan Dövlət Azərbaycan Dram Teatrının yeni tamaşasına dəvət alanda çox sevindim, eyni zamanda, proqram-dəvətnamədə qeyd olumuş “İmir Məmmədlinin “Qadın” pyesi əsasında, psixoloji, mistik, qroteksvari, qeyri-səlis məntiqlə birhissəli uydurma” təqdimatı məni çox təəccübləndirdi.**

Düşündüm ki, müasir, qeyri-ənənəvi tamaşalarda yuxarıda göstərilən istiqamətlərdən biri, yaxud ikisinə əməl olunur. Görəsən, rejissor dörd mürəkkəb istiqaməti bir uydurmada necə cəm edəcək və necə həll edəcək? Estetik, plastik, eyni zamanda teatrın tələblərinə cavab verən digər elementləri bir ahənglə nə cür təqdim edəcək? Doğrusu, çox həyəcanlı idim. Həm teatrın rəhbəri İftixar Piriyevin sənət təcrübəsinə və istedadına bələd olaraq çox ümidli idim. Həm də bu mürəkkəb tərəflərin birliyini təsəvvür etmək zövqverici və təəccüblü idi.

Nəhayət, 2024-cü ilin 11 iyulu – gözlədiyim gün gəlib çatdı. Gənc Tamaşaçılar Teatrında qarşılaşdığım anşlaq tamaşanın ictimaiyyət tərəfindən marağa səbəb olduğuna sübut idi. Doğrusu, tamaşanın zalda öz yerində “əyləşməyən” və nəzarətçinin narazılığına görə “küçə davası” salan və səhnəyə qaçan qadınların çığır-bağırı ilə başlaması ovqatımı təlx etdi. Təsəvvür etdiyim gözəlliyi seyr etmək istəyimi azaltdı (sonradan fikrim yaxşı mənada tam dəyişsə də, heç cür bu səhnəyə haqq qazandıra bilmədim).

Fransa bəstəkarı, dirijor və caz piano ifaçısı Mişel Lerqanın həzin musiqi sədaları ilə aktrisaların plastik rəqslərini görəndə bildim ki, həyəcanım əbəs deyilmiş, tamaşanın sonuna qədər, həqiqətən də, psixoloji, mistik, qroteksvari, qeyri-səlis məntiqli bir “uydurma”nın şahidi olduq və bu, tamaşaçıya müasir teatrın çoxistiqamətli həllini bir daha göstərdi, Azərbaycan teatrının yeni inkişaf istiqamətini təyin etdi.

Əsərin məzmunu real həyatımızı tam əhatə edir. Əsərin qayəsi əksər ailələrdə mövcud olan etinasızlıq, hər bir qadının qəlbində gizli saxladığı tənhalıq hissi, birgə yaşamın çətinlikləri, qısqanclıq, hər bir xanımın sevilmək, dəyərləndirilmək, xoşbəxtlik arzusu kimi təzadlı mövzularla zəngin idi. Səhnədə qadın obrazında Xədicə Məmmədova, Siluet rolunda Güney Əliyeva və Şəhvət qismində Pərvin Dadaşova plastikaları, gözəllikləri, yüksək istedadı və səhnə bacarığı ilə tamaşanın sonuna qədər bizi cazibələrində saxladılar. Aktrisaların İn və Yan qütblərini əks etdirən Taicitunu səhnənin önünə gətirmələri rejissorun çox maraqlı tapıntılarındandır.

Həyatımızın əksliklərin vəhdətindən ibarət olmasını nəzərə alsaq, burada da görürük ki, əks qütblərdən biri digəri olmadan müstəqil mövcud ola bilməz. Gecə olmadığı müddətcə gündüz də yoxdur və əksinə. Qütblər bir-birini yaratdığı, dəstəklədiyi kimi eyni şəkildə məhv edə, məhdudlaşdıra da bilərlər. Necə ki, əsərdə qadının qəlbinin dərinliyndə gizli saxladığı xəyalları, arzuları, gözləntiləri, təzadlarla əks olunur. Sevincində kədər, kədərində isə ümid görünür. Aktrisaların mimikaları, səhnə plastikaları, məzmunu olduğu kimi təqdim edən səhnə hərəkətlərinin dinamikliyi, obrazdan obraza dəyişmələri çox yüksək peşəkarlıqla nümayiş olunurdu. Bu səhnələrə tamaşa etdikcə xəyalımda rejissorun verdiyi mizanlar, zəhmətlə edilən çoxsaylı məşqlər, göz yaşları, gülüşlər canlanırdı. Özümü sanki məşqlərdə iştirak etmiş kimi hiss edirdim.

Rejissor yüksək peşəkarlıqla tamaşaçı ilə ünsiyyət məsələsini də həll edir. Siluet və Şəhvət lazer işıqları ilə tamaşaçının onlarla birgə keçirdiyi həyəcanını daha da artırır (Bu tipli tamaşalarda bəzən aktyorlar konkret tamaşaçıya sual verir. Mənsə sanki sual gözləyirmiş



kimi həyəcanla hadisələri izləyirdim. Bu onunla əlaqədardır ki, “Siluet”də rejissor tamaşaçını səhnədə gedən hadisələrin bir hissəsinə çevirə bilmişdi).

Belə bir deyim var ki, qadını başa düşməyə çalışmaq lazım deyil, onu sevmək lazımdır. Tamaşada bu hisslər pantomim hərəkətləri, plastikaları ilə çox dəqiq verilib. Qadın özünü sevgilisinin arvadının yerinə qoyur, çox dərin psixoloji travma yaşayır. Əslində, baş verməsi mümkün olan bir faciəni yaşayır. Həm məşuqənin xoşbəxt anlarının ləyaqətsiz hərəkətinə görə suçlanma hissi, ailəli xanıma qibtə hissi, həm də xəyanət olunan xanımın xəyal qırıqlığı həyəcanı.

Belə məlum olur ki, bir qadının taleyndə hər iki hadisə yaşana bilər. Xədicə Məmmədova hər iki qadının bir-birinə olan qibtə, nifrət, eyni zamanda da, empatiyasını çox yüksək peşəkarlıqla ifa edir. Tamaşaçını inandırmağı bacardığı kimi ona həm də öz xoşbəxtliyini başqasının bədbəxtliyi üzərində qurmağın sonunu göstərir. Ümumiyyətlə, Güney Əliyeva da, Pərvin Dadaşova da hər üç aktrisa obrazlarını o qədər səmimi, təbii, plastik ifa edirlər ki, tamaşaçını inandırır və həyəcanda saxlamağı bacarırlar. Hətta tamaşa boyu yalnız kölgəsi görünən kişi obrazının ifaçısı Əmrulla Nurullayevi də tamaşaçı sanki səhnədə olmuş kimi qəbul edir. Çünki tamaşa tamdır, bitkindir, hadisələr arasında əlaqə kəsilmir. Bu da bir daha rejissorun peşəkarlığından xəbər verir.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Nərminə Ağayevanın “Siluet“ tamaşası haqqında yazdığı məqalədə deyilir: “İki tale yaşayan Qadın bütün qadınların taleyi barədə bir tablo yaradır. Hər bir qadının həyatında baş verə biləcək hadisəyə hazır olmağa, nə özünü, nə də qarşısındakını günahlandırmamağa səsləyir. Çünki Qadın obrazın dili ilə deyir: “bu, həyatdır”. Rejissor isə deyir: “həyat qeyri-səlisdir”.

”Qeyri-səlis məntiq” insanların qeyri-dəqiq və rəqəmi olmayan məlumatlara əsaslanaraq qərarlar qəbul etməsinin müşahidəsinə əsaslanır”. Yeni teatr sistemi ilə hazırlanan “Siluet“ tamaşası qeyri-səlis məntiqə tam uyğun gələn ilk tamaşadır. Əsərin fəlsəfi məzmunu, təsir qüvvəsi, eyni zamanda, müasir teatr tendensiyalarına da uyğundur.

Tarix elmləri doktoru, kulturoloq, professor Fuad Məmmədov Lütfü Zadənin “Qeyri-səlis məntiq nəzəriyyəsi” əsasında “Kulturologiya piramidası” universal metodunu yaratmışdır. Məqsəd dünya mədəni irsini öyrənməklə milli mədəniyyətin inkişafına elmi cəhətdən yardım edilməsi, insanın inkişafının və idarəçiliyin mürəkkəb problemlərinin sistemli təhlili, bununla da, innovativ kulturoloji yanaşma işlənib hazırlanmasıdır. Bu mənada “Siluet“ tamaşası F.Məmmədovun təqdim etdiyi “Kulturologiya piramidası” universal metoduna tam uyğun gəlir. Bu metodun təhlilində idrakın əsas xüsusiyyətləri, insanın yaradıcılıq bacarıqları tədqiq edildiyi üçün “Siluet“ tamaşasının həm yaradıcılıq, həm də innovativ təqdimatı baxımından kulturologiyanın tətbiq sahəsinə aid etmək olar.

Tamaşanın məzmunu, eyni zamanda, nümayişdə istifadə olunan həm pantomim, həm də kölgə teatrının elementləri müasir tələblərə tam cavab verir. Rejissor işi, aktyor oyunu, səhnə tərtibatı, simvollarla zəngin dekorasiya, qadınların qeyri-ənənəvi, bir qədər Avropa düşüncəsinə uyğun gələn fantaziyalarının Fransa bəstəkarının musiqisi ilə müşayiəti, tamaşanın ayrılmaz bir hissəsi kimi təqdim olunan paklon, ümumiyyətlə, hər şey möhtəşəm, peşəkar idi. Tamaşa nümayiş olunan gün “Siluet“in tamaşaçıları çox şanslı və xoşbəxt idilər. Bu məqamda paklonun musiqi sədaları ilə müşayiət olunması və bununla da tamaşaçıya daha çox alqışlamaq şansı verilməsi arzusu keçdi könlümdən.

Əsərin müəllifi İmir Məmmədli, tamaşanın rejissoru İftixar Piriyev, ədəbi dram hissəsinin rəhbəri Nərminə Ağayeva başda olmaqla teatrın bədii, texniki, yaradıcı heyətini belə möhtəşəm bir tamaşanın ərsəyə gəlməsi münasibəti ilə təbrik edirəm. Yeni teatr mövsümündə uğurlarınız davamlı olsun.

***Minaxanım ƏSƏDOVA,***
***tarix elmləri doktoru,***
***kulturoloq***

# Formula 1-də qeydiyyat seminarı

**Bakı Şəhər Halqası Əməliyyat Şirkəti Formula 1 Qatar Airways Azərbaycan Qran-Prisi 2024-ün mediada yüksək səviyyədə işıqlandırılmasını təmin etmək məqsədilə yerli KİV nümayəndələri üçün qeydiyyat seminarı keçirib. Təlim zamanı jurnalist və fotoqraflara qeydiyyat prosesi, media mərkəzinin fəaliyyəti və onların yarış zamanı əməl etməli olduqları qaydalar barədə geniş məlumat verilib.**

Media nümayəndələrinə Formula 1 Qatar Airways Azərbaycan Qran-Prisi 2024 barədə ümumi məlumat, yarış təqvimi, komandaların heyətləri və bu möhtəşəm tədbirin əsas məqamları təqdim edilib. Beynəlxalq Avtomobil Federasiyası və Formula One Management şirkəti tərəfindən tənzimlənən akkreditasiya prosesi media nümayəndələrinin işinin beynəlxalq standartlara uyğun təşkil edilməsinə yönəlib və yarış zamanı onların təhlükəsizliyini təmin etmək üçün bütün lazımi tədbirlər görülüb. Hər il olduğu kimi, bu il də akkreditasiyaya qeydiyyat prosesi elektron portal üzərindən həyata keçirilib.



Seminarda media nümayəndələrinin yarış boyu iş qrafiki, media mərkəzindəki qaydalar və onlara təqdim olunan texniki imkanlar ətraflı şəkildə müzakirə edilib.

Qeyd edək ki, ötənilki Azərbaycan Qran-Prisini 250-dən çox yerli və beynəlxalq media nümayəndəsi işıqlandırıb.

Bakı 8-ci dəfə sürət yarışına ev sahibliyi edəcək. Bu il Formula 1 Qatar Airways Azərbaycan Qran-Prisi 13-15 sentyabr tarixlərində keçiriləcək.

***L.AZAD,***
***E.AĞALAR (foto)***
***XQ***

# Lamiyə Vəliyeva da “Paris-2024”ün qalibi oldu

## *Komandamızın medallarının sayı 5-ə çatıb*



**Paris Yay Paralimpiya Oyunlarının 6-cı günü də Azərbaycan komandası üçün uğurlu olub.**

Bu mötəbər yarışda gücünü sınayan paralimpiya və 4 qat dünya çempionu Lamiyə Vəliyeva T13 kateqoriyasında 100 metr məsafəyə qaçışda mübarizə aparıb. 11.81 saniyə göstərici ilə rəqibləri üçün əlçatmaz olan idmançımız finiş xəttini birinci keçərək finala vəsiqə əldə edib. Həlledici mərhələdə idmançımız 11.76 saniyə nəticə ilə qızıl medal qazanıb.

Xatırladaq ki, hazırda Azərbaycan komandasının hesabında 3 qızıl, 1 gümüş və 1 bürünc medal var. İmaməddin Xəlilov (parataekvondo, 70 kq) və Səid Nəcəfzadə (T12, uzunluğa tullanma) qızıl, Raman Salei (100 metr məsafəyə arxası üstə üzmə) gümüş, Sabir Zeynalov (parataekvondo, 58 kq) bürünc medala sahib çıxıb.

***Leyla QURBANOVA***
***XQ***


# “Gəncə Aqro 2” MMC -nin 2023-cü il dekabrın 31-nə mühasibat balansı

**manatla**

| **AKTİVLƏR** | **31 dekabr 2022-ci il** | **31 dekabr 2023-cü il** |
|---|---|---|
| Uzunmüddətli aktivlər | 133 967,13 | 135 597,69 |
| Torpaq, tikili və avadanlıqlar | 133 967,13 | 135 597,69 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | **133 967,13** | **135 597,69** |
| Qısamüddətli aktivlər | 1 125 388,99 | 1 652 679,93 |
| Ehtiyatlar | 310 486,37 | 362 989,69 |
| Qısamüddətli debitor borcları | 814 842,31 | 1 289 441,39 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 60,31 | 248,85 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | **1 125 388,99** | **1 652 679,93** |
| **CƏMİ AKTİVLƏR** | **1 259 356,12** | **1 788 277,62** |
| **KAPİTAL** | | |
| Nizamnamə kapitalı | 8 512 238,42 | 8 511 238,42 |
| Kapital ehtiyatları | 14 886,02 | 34 855,68 |
| **CƏMİ KAPİTAL** | **8 527 124,44** | **8 546 094,1** |
| Qısamüddətli öhdəliklər | 256 829,45 | 130 954,47 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 14 247,86 | 30 970,5 |
| Qısamüddətli kreditor borcları | 242 427,89 | 84 830,27 |
| Sair qısamüddətli öhdəliklər | 153,7 | 15 153,7 |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | **256 829,45** | **130 954,47** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **256 829,45** | **130 954,47** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **8 783 953,89** | **8 677 048,57** |

## Kapitalda dəyişikliklər hesabatı

| | Qeyd | Nizamnamə kapitalı | Kapital ehtiyatları | Cəmi kapital |
|---|---|---|---|---|
| **2023 -cü il yanvarın 1-nə qalıq** | | 8 512 238,42 | 14 886,02 | 8 527 124,44 |
| **Kapital ehtiyatlarına əlavə** | | | 19 969,66 | 19 969,66 |
| **2023 -cü il dekabrın 31-nə qalıq** | | 8 511 238,42 | 34 855,68 | 8 546 094,10 |

## Mənfəət və zərər haqqında hesabat

| Əməliyyatın adları | Qeyd | 2023-cü il | 2022-ci il |
|---|---|---|---|
| Əsas əməliyyat gəlirləri | Дт601.1-Кт801 | 1 617 435,00 | 1 315 784,00 |
| Satışın maya dəyəri | 701 | 1 782 409,65 | 2 068 256,72 |
| Ümumi mənfəət | | -164 974,65 | -752 472,72 |
| İnzibatı xərclər | 721 | 943 296,79 | 837 373,15 |
| **Əməliyyat mənfəəti(zərəri)** | | -1 108 271,44 | -1 589 845,87 |
| Maliyyə gəlirləri | Дт631-Кт801 | 121 443,06 | 54 325,67 |
| **Vergi tutmadan əvvəl mənfəət (zərər)** | | -986 828,38 | -1 053 945,77 |
| Mənfəət vergisi | | -197 365,676 | -210 789,154 |
| Hesabat dövründə xalis mənfəət(zərər) | | -789 462,704 | -843 156,616 |

## Pul vəsaitlərinin hərəkəti haqqında hasabat

| | | |
|---|---|---|
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər: | 8 222,64 | 8 488,56 |
| Əsas vəsaitlərin amortizasiyası | 8 222,64 | 8 488,56 |
| Ehtiyatlar üzrə artım / azalma | 52 503,32 | 7 745,13 |
| Sair qısamüddətli aktivlərdə artım / azalma | 474 599,08 | 247 683,20 |
| Cari vergi öhdəlikləri | 30 970,50 | 14 247,86 |
| Əməliyyat kreditor borclarında artım / azalma | (157 597,62) | 55 150,99 |
| Sair qısamüddətli öhdəliklərdə artım / azalma | (157 597,62) | 55 150,99 |
| İnvestitsiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti | 9 853,20 | 0 |
| İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları | 60,31 | (317,09) |
| İlin sonuna pul vəsaitləri və bank overdraftları | 248,85 | 60,31 |



# Teymur Əhmədov adına “AzNar” QSC səhmdarlarının nəzərinə!

7 oktyabr 2024-cü il saat 15.00-da Göyçay şəhəri, Natəvan küçəsi 120 nömrəli ünvanda Teymur Əhmədov adına “AzNar” QSC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyinə aşağıdakı məsələnin müzakirəsi daxil edilmişdir:

1. “AzNar” QSC-nin icra orqanı barədə.

Ümumi yığıncağa gələn səhmdarlar və səhmdarların nümayəndələri şəxsiyyətlərini, səlahiyyətlərini təsdiq edən sənəd və etibarnamə təqdim etməlidirlər.

Əlaqə telefonu – +994202740517.

Ünvan – AZ2300, Göyçay şəhəri, Natəvan küçəsi 120.

***Teymur Əhmədov adına “AzNar” QSC-nin rəhbərliyi***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 191 (30595) 4 sentyabr 2024-cü il, çərşənbə

# Onun da aləmdə səsi, sözü qaldı

## *Bu gün Xalq yazıçısı, görkəmli alim və pedaqoq Əzizə Cəfərzadənin anım günüdür*

**Nədənsə hərdən insanları illərə bənzədirəm. Ömür kitabımızda hər ilin öz yeri olduğu kimi, əzizlərimizin, müəllimlərimizin, dost və tanışlarımızın da öz səhifəsi var. O səhifələr ömrümüzün ən mənalı illəri kimi, özü-özlüyündə sıralanıb. Elə il var ki, lap yaxın dövrdə yaşasaq da, unudulmuş kimidir və o ilin ömür kitabımızda neçənci səhifədə olduğunu xatırlaya bilmirik. Onu da bilmirik ki, o ili necə yaşamışıq. İl də var ki, həmişə təzə-tər kimidi, elə bil yeni yaşamışıq, elə bil dünən olub – çox günləri şirin, unudulmaz xatirələrlə dolu. İnsanlar da belədir. Eləsi var ki, həmişə bizimlə yoldaş kimidir. Sanki, hər gün bizimlə oturub-durur, söhbət edir, dərdimizə ortaq olur, sevincini bölüşür, məsləhətləri ilə bizə dayaq olur. Halbuki o insanların bəziləri artıq dünyasını dəyişib. Amma onlar yaxın və uzaq olmasından, kimliyindən asılı olmayaraq bizim o gözəgörünməz kitabımızın ilk səhifələrində həmişəlik yer alıblar. O insanlar bir nur topası kimidirlər. Onların fikirləri, düşüncələri, ziyaları həmişə ətrafında olanların qəlbinə xeyirxahlıq toxumu səpir, insanları yaxşılığa, düzlüyə, gözəl əməllərə səsləyir. Təəssüf ki, biz çox zaman yaxşılarımızın qədir-qiymətini nəinki sağlığında, heç dünyasını dəyişəndən sonra da bilmirik. Doğrudur, adlarına kitab da bağlayırıq, abidə də qoyuruq, amma tezliklə unuduruq...**





Tez-tez xatırladığım, ürəyimdə səsi, sözü, işığı yaşayan insanlardan biri də Xalq yazıçısı, zəhmətkeş alim, gözəl pedaqoq Əzizə xanım Cəfərzadədir. Əzizə xanım Azərbaycan Dövlət Universitetində mənə cəmi bir neçə ay mühazirə oxuyub. İnanıram ki, o beş-altı aylıq mühazirələrin şirinliyi təkcə mənim yox, digər tələbə yoldaşlarımın da qəlbində qızıl lent kimi yaşayır.

Təzadlı ömür yaşamış bu insan alim, yazıçı, ictimai xadım olmaqla bərabər, əsl Azərbaycan qadınına xas olan xüsusiyyətləri öz simasında cəmləşdirmişdi. O, milli adət-ənənələrimizin, şifahi söz yaradıcılığımızın dərin bilicisi idi və bildiklərini öz tələbələrinə, eyni zamanda, hər kəsə öyrətməyə, çatdırmağa çalışırdı. Bir qədər mübaliğə ilə desək, Əzizə xanım mühazirə deyəndə auditoriyada heç kəs nəfəs almaq istəmirdi. Onun dedikləri bir işıq kimi ürəyimizə dolurdu – biz sevinirdik, qəlbimizdə müşkül ümidlərimiz göyərirdi, bəzən də kövrəlirdik. Əzizə xanım məşhur insanlarımızın həyat və yaradıcılığından, günümüzün dərdlərindən danışdıqca bəzən özü də göynəyirdi. Bu göynərti, ağrı onun seçdiyi ifadələrdə, səsinin ahəngində aydın duyulurdu. O, sanki hansı səbəbdənsə oğul itirmiş bir ananı, gözü yollarda qalmış atanı, qardaşı, bacını ovutmaq istəyirdi. Onun dilində bayatılar, laylalar daha təsirli səslənirdi. O, özü belə bayatıların neçəsini ürəyinin istisi ilə yoğurmuş, xalqına ərməğan etmişdi. Bəzən elə danışırdı ki, sanki, min illərdi tariximizlə baş-başa yol gəlir, neçə-neçə döyüşdən keçib. Tarixi romanlarını oxuyanda da bu xanımın qəlbinin üfüqlərinin genişliyinə, zənginliyinə heyran olmaya bilmirsən. Fikirləşirsən ki, bir qadın ürəyi nə boyda yükün daşıyıcısı olarmış, ilahi...

Əzizə xanım həyatda çox çətinlik və ədalətsizliklə üzləşmişdi. Buna baxmayaraq, mətanəti, zəhməti və vüqarı sayəsində hər cür səddi aşa bilmişdi. Tələbəlikdən sonra bilmişdim ki, Əzizə xanım faşizmə qarşı müharibə illərində bizim Ağsu rayonunun Çaparlı kəndində müəllim işləyib, məktəb direktoru olub. Ancaq o yalnız müəllimlik eləməyib, həm də ərini, oğlunu, nişanlısını cəbhəyə yola salan, gündüzlər tarlada kətmən vuran, taxıl biçən qadınlara həyan olub. Onların ürək sözlərini, arzularını üçkünc məktublara tökərək əsgərlərə yola salıb. Öz aylıq əmək haqqından cəbhədə olanların uşaqlarına, qadınlarına ərzaq, geyim alıb. Axşamlar şirin söhbətləri ilə qız-gəlinin ümid və arzularını göyərdib.

Təəssüf ki, tələbə olduğu illərdə düşüncələri, oxuduğu və yazdıqları nə qədər mütərəqqi olsa da belə, ictimai mühitdə xoş qarşılanmayıb. Birinci kursda oxuyarkən türk yazıçısının ərəb əlifbası ilə çap olunmuş romanını oxuduğuna görə Əzizə xanımı universitetdən xaric ediblər. Bundan əlavə,1948-ci ildə nəşr edilən ilk kitabını satışa vermədən yandırıblar. Əzizə xanım deyirdi ki, özüm ilk kitabımın üzünü görə bilmədim, hamısını yandırdılar. Çünki məni o zaman "Axmatovşina"-da, adını bilmədiyim "salon lirikası" tərənnümündə günahlandırırdılar.

Təxminən on beş il onun kitabı nəşr edilməyib. Buna baxmayaraq, o, ürəyinin diqtəsi ilə məhsuldar işləyib."Natəvan haqqında hekayələr", "Aləmdə səsim var mənim", "Vətənə qayıt", "Yad et məni", "Baki-1501", "Cəlaliyyə", "Sabir", "Eldən elə" , "Bir səsin faciəsi", "Zərrintac-Tahirə", "İsıga doğru", "Bəla", "Rübabə-sultanım", "Xəzərin göz yasları" və s. əsərlərini qələmə alıb.

Yaradıcılığını ardıcıl izləyənlər bilirlər ki, Əzizə xanımın "Eşq sultanı" adlı (2003-cü il) son tarixi romanı dahi Füzulinin həyatından bəhs edir. Yazıçı-alim Vaqif Sultanlı yazır ki, Füzuli mövzusu Əzizə Cəfərzadə yaradıcılığı üçün gözlənilməz deyildir. O, uzun illər bu mövzu ilə bağlı maraqlanmış, nə zamansa yazacağını düşündüyü roman üçün fakt və materialları daha erkən illərdən toplamağa baslamışdı. Yazıçının Füzuliyə həsr olunmuş elmi tədqiqatları da diqqətəlayiqdir. Habelə, xatırlatmağa ehtiyac vardır ki, Şamaxı rayonunda yerləşən xaraba Bayat kəndində abidə qoyulması təşəbbüsü də Əzizə xanıma məxsusdur. Təsadüfi deyil ki, romanda yazıçı Füzulinin Şirvandan köçüb getməsi, əslən Şamaxının qədim Bayat kəndindən olması versiyasını əsas götürmüş və hadisələri bu məcrada təsvir etmişdir. Ona görə də roman boyu Füzulinin yaşadığı vətən həsrəti, qürbət duyğuları qabarıq ifadəsini tapmışdır.

Yaradıcılığı bir yana, həyat Əzizə xanımı dünyanın haralarına aparmayıb. 1921-ci il dekabrın 29-da Bakıda doğulan böyük sənətkar yəqin buna görə söhbətlərinin birində deyirdi ki, mən bir ömürdə on insanın həyatını yaşamışam.

Təyinatla Şamaxı rayon qəzetində işlədiyim illərdə Əzizə xanım tez-tez doğma elinə gəlirdi. Kəndlərində müəllim işləyən qardaşı, filologiya elmləri doktoru Əhməd Cəfərzadə arabir ədəbi axtarışları ilə bağlı qəzetə maraqlı yazılar gətirərdi. Onu da deyim ki, Əzizə xanım o illərdə kitablarına görə nəşriyyatlardan aldığı pulla öz kəndlərində – Tağılıda məktəb, sonra klub binası tikdirmişdi. Onun bu xeyriyyəçiliyi, nədənsə, çoxlarına qəribə gəlirdi.

Bir dəfə rayon üzümçülərinin əmək qələbəsi ilə bağlı qəzetin xüsusi sayına Əzizə xanımın təbrik məktubunu hazırlamalı idim. Onda Əzizə Cəfərzadə Respublika Qadınlar Şurasının sədri idi. Bakıya hansı nömrəyə zəng elədimsə, Əzizə xanımla danışa bilmədim. Əlacsız qalıb redaktordan gizlin Əzizə xanımın adından geniş bir təbrik-teleqram (o illərdə belə təbriklər dəbdə idi) yazdım. Təbrik qəzetin birinci səhifəsində çap olundu. Bir müddət sonra rayonda məhsul bayramı keçirilirdi. Əzizə xanım da dəvət olunmuşdu. Onun gəlişini bilən kimi yanına getdim, qəzeti ona göstərdim və ondan xəbərsiz təbrik yazduğıma görə üzr istədim. Dedi: "Qoy oxuyum, sonra ". Adından yazılmış təbriki oxuyub gülümsədi və lap yaxşı yazmısan, elə bil ürəyimi oxumusan, – dedi. Bu sözlərdən sonra sakitləşdim.

Bakıda müxtəlif qəzetlərdə işlədiyim illərdə də bəzən Əzizə xanıma zəng edib milli adətlərimizlə bağlı nəyisə dəqiqləşdirmək üçün, bəzən də Novruz çərşənbələri barədə bilgilər alırdım. Bir dəfə də, səhv etmirəmsə, iyunun sonları idi. Müsahibə almaq istədim. Əzizə xanım dedi ki, qoy istilər qurtarsın, evimə gələrsən.. Heç nə deyə bilmədim. Amma o müsahibə baş tutmadı. Əzizə xanım sentyabrın 4-də vəfat etdi...

Bu yazını yazdıqca sanki Əzizə xanımın kövrək, yanğılı səsinə qulaq asdım. "Xalqlar dostluğu", "Şöhrət" ordenləri ilə təltif edilən zəhmətkeş alim və yazıçı ömrünü vərəqlədim, aləmə səs salan işıqlı əsərlərini oxudum. 21 il əvvəl dünyasını dəyişən Əzizə xanımın ruhu əbədi şad olsun.

***Səməd MƏLİKZADƏ***

## Güləşçimiz Dünya çempionatının ikincisi olub

**İspaniyanın Pontevedra şəhərində güləş üzrə U-20 Dünya çempionatı start götürüb.**




Yarışın ilk günündə yunan-Roma güləşçiləri mübarizəyə qoşulublar. Komandamızın üzvlərindən Cocu Səmədov (87 kq) mübarizəyə 1/8 finaldan start verib. O, əvvəlcə serbiyalı Andriya Mihayloviçi (5:1), sonra ermənistanlı Ruben Gevorgyanı (3:1) məğlub edib. Səmədov yarımfinalda qazaxıstanlı Temirlan Turdakini (4:2) də mübarizədən kənarlaşdıraraq finala vəsiqə qazanıb. Həlledici mərhələdə qırğızıstanlı rəqibi Asan Janişova uduzaraq gümüş medalla kifayətlənib.

Qeyd edək ki, Azərbaycan yığması mundialda 25 idmançı ilə təmsil olunur. Dünya çempionatına sentyabrın 8-də yekun vurulacaq.

## Kikboksinqçilərimiz 36 medal qazanıblar



**Azərbaycanın kikboksinq komandası Budapeştdə gənclər arasında Dünya çempionatında uğurla çıxış edib.**

WAKO (Dünya Kikboksinq Təşkilatları Assosiasiyası) versiyası üzrə keçirilən turnirdə Azərbaycan millisi 5 qızıl, 8 gümüş və 23 bürünc medal qazanıb.

Qeyd edək ki, 5 qızıl medaldan 4-ü K-1 versiyasında əldə edilib.

## Boksçularımız ölkəyə 4 medal gətiriblər

**Azərbaycan boksçuları Bosniya və Herseqovinanın paytaxtı Sarayevo və Serbiyanın Subotiça şəhərlərində beynəlxalq turnirlərdə iştirak ediblər. Yığmanın məşqçisi Elvin Məmişzadənin rəhbərliyi altında yarışlara qatılan təmsilçilərimiz 3 gümüş və 1 bürünc medal qazanıblar.**



75 kq-da çıxış edən Abbasqulu Şadlinski hər iki yarışda ikinci yeri tutub. Bosniya və Herseqovinada Kənan Nəcəfov (92 kq) fəxri kürsünün ikinci pilləsinə yüksəlib. Hüseyn Hüseynli (80 kq) isə eyni yarışı bürünc medalla başa vurub.

***L.QURBANOVA***
***XQ***

## Səyyar "ASAN xidmət" Qaxda



*"ASAN xidmət"in müasir texnoloji avadanlıqla təchiz edilmiş xüsusi avtobusu sentyabrın 3-dən başlayaraq Qax şəhərində sakinlərə səyyar formada xidmət göstərir.*

Əhaliyə səyyar formada xidmətlərin göstərilməsi üçün Qax şəhərinin mərkəzində, əhalinin gediş-gəlişinin sıx olduğu küçədə xüsusi yer ayrılıb. Burada xidmətlərin göstərilməsi üçün hər cür şərait yaradılıb. Sakinlər əvvəlcə məlumat bürosuna yaxınlaşır, daha sonra növbə əsasında avtobusa daxil olur, müraciətlərini edirlər.

"ASAN xidmət"in səyyar avtobusunun qrup rəhbəri Namiq Mahmudovun verdiyi məlumata görə, xidmətlər Azərbaycan Respublikasının Ədliyyə, Daxili İşlər, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən təqdim olunur.

Səyyar "ASAN xidmət" Qaxda sakinlərə sentyabrın 30-dək xidmət göstərəcək.

***XQ***

## Bu gün 37 dərəcə isti olacaq

**Sentyabrın 4-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Milli Hidrometeorologiya Xidmətindən mətbuata verilən məlumata görə, şimal-şərq küləyi axşam mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq.

Havanın temperaturu gecə 20-25°, gündüz 31-36° isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunundan 756 mm civə sütununa enəcək. Nisbi rütubət gecə 70-75 faiz, gündüz 40-45 faiz olacaq.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 18-23°, gündüz 32-37°, dağlarda gecə 11-16°, gündüz 20-25° isti olacaq.

***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi akademiyanın əməkdaşı Səbahə Şıxəliyevaya atası

**İSA ŞIXƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29**
**Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com**
**Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az**
**+994(51) 280-16-44**

**"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.**

**ÜNVANIMIZ:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

**İNDEKS** 0282
**TİRAJ** 3790
**SİFARİŞ** 2009
**QİYMƏTİ** 60 qəpik

**Növbətçi redaktor**
**Mirbağır YAQUBZADƏ**
**Çapa imzalanmışdır 00:00**